RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 249 (9994) 25 noyabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycanın əczaçılıq sənayesində yeni inkişaf mərhələsi




## Prezident İlham Əliyev dərman preparatları istehsalı müəssisəsinin açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun Hökməli qəsəbəsində "Scandens Pharmaceutical Industries Ltd" MMC-nin dərman preparatları istehsalı müəssisəsinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və baş direktor Kamran Həsənov dövlətimizin başçısına müəssisə barədə məlumat verdilər.

Beynəlxalq standartlara uyğun layihələndirilən müəssisə Almaniya, İsveçrə və İtaliyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. İl ərzində müəssisədə antibiotiklər, diabetologiya, hepatologiya, kardiologiya, andrologiya, allerqologiya və qastroenterologiya sahələrinə aid təxminən 800 milyon ədəd tablet və kapsul dərman preparatı istehsal olunacaq. İstehsal olunan məhsullar həm daxili bazara çıxarılacaq, həm də gələcəkdə ixrac ediləcək. Müəssisədə 120 iş yeri yaradılıb.

2

## Kəlbəcər 5 ildir dirçəliş dövrünü yaşayır



Prezident İlham Əliyevin tarixi zəfərimizi və işğaldan azad olunmuş şəhərlərin şanlı günlərini əbədiləşdirmək üçün imzaladığı sərəncama əsasən, 31 iyul 2023-cü il tarixindən etibarən hər şəhərin işğaldan azad olunduğu gün ayrıca qeyd olunur və 25 noyabr Kəlbəcər Şəhəri Günü kimi təsdiqlənmişdir.

Kəlbəcər toponimi qədim türk dilində "çay üstündə qala" mənasındadır və bölgənin qədim keçmişindən xəbər verir. Tərtər çayı boyunca uzanan süni mağaralar, 30 min ildən artıq yaşı olan qədim yaşayış yerləri Kəlbəcərin zəngin arxeoloji irsinin nümunələridir. Qayaüstü rəsmlər, qədim türk əlifbası nümunələri və atəşpərəstlik dövründən islam mədəniyyətinə qədər keçən tarixə aid daş abidələr bu bölgənin əsrlər boyu müxtəlif mədəniyyətlərin qovuşduğu məkan olduğunu təsdiqləyir.

Azərbaycanın ən yüksək dağlıq rayonlarından biri olan Kəlbəcər Camışdağ (3724 m) və Dəlidağ (3616 m) kimi möhtəşəm zirvələri ilə seçilir. Meşələrlə əhatələnən bu ərazi şimaldan Daşkəsən və Göygöl, qərbdən Ermənistan, şərqdən isə Ağdam və Xocalı ilə sərhədlənir. 1930-cu ildən inzibati rayon kimi fəaliyyət göstərən Kəlbəcərin ərazisi 3054 kvadratkilometrdir və 145 kəndi əhatə edir.

1993-cü il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin Kəlbəcəri işğal etməsi faciəli nəticələrə gətirib çıxardı: 511 dinc rayon sakini qətlə yetirildi, 321 nəfər isə əsir və itkin düşdü. İşğal illərində rayonun tarixi-mədəni irsi dağıdıldı, təbii sərvətləri və infrastruktur obyektləri talan edilərək Ermənistana daşındı.

4

## Qarabağ Zəfəri türk xalqlarının qürur mənbəyidir

### Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına

Hörmətli forum iştirakçıları!

Sizi Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunda ürəkdən salamlayıram.

Türk dövlətlərinin artan potensialı və qlobal müstəvidə gündən-günə güclənən mövqeyi daha iddialı məqsədlərin qarşıya qoyulmasını, birgə səylərin artırılmasını, bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsini, çevik mexanizmlərin yaradılmasını zəruri edir. İlk dəfə keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumu bu istiqamətdə atılmış mühüm addımdır.

Regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, tərəqqi ideyalarına sadiq olan dost və qardaş xalqlarımızı ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlər möhkəm bir ailə kimi birləşdirir, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsini şərtləndirir.

Azərbaycan Türk Dövlətləri Təşkilatına hazırda sədrlik edən ölkə kimi üzv ölkələrin vətəndaş cəmiyyəti təsisatları arasında da ictimai kommunikasiyanın gücləndirilməsinə çalışır. Bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Qızıl Aypara Cəmiyyətləri Prezidentlər Şurasının iclasının keçirilməsi, QHT-lərin indiki həmrəylik forumu və ardınca TDT-nin media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin növbəti toplantısı bu sahədə aparılan işlərin miqyasını və çoxşaxəli xarakterini nümayiş etdirir.

Bu gün türk dünyası özünün yüksəliş dövrünü yaşayır. Beş il əvvəl qazandığımız Qarabağ Zəfəri türk xalqlarının ümumi sevinci və qürur mənbəyidir. İnanıram ki, hazırda yenidən qurulan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, açılacaq Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacaqdır.

Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əsasda QHT-lər üçün tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə ortaq qrant müsabiqələri elan etməyə, qarşılıqlı kommunikasiyanı gücləndirən layihələri dəstəkləməyə hazırdır.

2026-cı ildə 100 illiyi keçiriləcək I Türkoloji Qurultayın türk xalqlarının mədəni inteqrasiyası məsələləri ilə bağlı yarımçıq qalmış işlərinin QHT-lərin yaxından iştirakı ilə müasir çağırışlara uyğun davam etdirilməsi də xüsusi aktuallıq kəsb edir.

Türk dünyası QHT-lərinin BMT və digər beynəlxalq təsisatlar çərçivəsində birgə, koordinasiyalı fəaliyyəti, vahid platformada birləşməsi ümumi işimizə və məqsədlərimizə böyük töhfə verə bilər.

Əminəm ki, forum zamanı quracağınız əməkdaşlıq əlaqələri türk dünyasında həmrəyliyin, birliyin və ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Sizi bir daha Azərbaycanda salamlayır, forumun işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 noyabr 2025-ci il*

## COP30: nəticələr gözləntiləri doğrultmadı

### Belem Bakını yenidən gündəmə gətirdi

COP29-un dünya üçün iqtisadi və siyasi faydaları əhəmiyyətli oldu. O, iqlim maliyyəsi strukturunun güclənməsinə, "yaşıl iqtisadiyyat"ın inkişafına və beynəlxalq diplomatiyada iqlim mövzusunun daha da ön plana çıxmasına töhfə verdi. Eyni zamanda riskləri idarə etmək və razılaşmaları real əməli addımlarla əlaqələndirməyin vacibliyini gündəmə gətirdi ki, bu faydalar uzunmüddətli və davamlı olsun.

Əldə edilmiş tarixi nəticələrlə, o cümlədən iqlim maliyyəsi sahəsində kəmiyyətcə ciddi bir hədəfin qoyulması, karbon bazarlarının qaydalarının tamamlanması, adaptasiya mexanizmləri və şəffaflıq strukturunun gücləndirilməsi yönündə irəliləyişlər kimi parlaq nailiyyətlərlə Azərbaycan estafeti Braziliyaya ötürdü. Bəzi kritik sahələrdə, o cümlədən gender, itki-zərər, ambisiyalı emissiya hədəfləri ilə bağlı tam razılaşmaların əldə edilməsi baxımından COP30-dan gözləntilər çox böyük idi. Bu tədbir Azərbaycanın bir il əvvəl müəyyən etdiyi təşkilatçılıq standartlarını da möhkəmləndirərək bir pillə yüksəltməli idi.

Əfsuslar olsun ki, bu gözləntilər özünü doğrultmadı. COP30-da, ilk növbədə iştirakçılıq və bərabərlik problemləri üzə çıxdı.

5

## Gələn ilin büdcəsi uğur vəd edir



Müstəqillik tarixinin qürurlu illərini yaşayan, son 5 ildə qlobal nüfuzu, iqtisadi qüdrəti və hərbi gücü daha da artan Azərbaycan 2025-ci ilə artıq uğurla yekun vurmaqdadır. Hər ilin sonunda Milli Məclis növbəti ilin dövlət büdcə zərfinə aid qanun layihələrini müzakirəyə çıxararaq təsdiqləyir və hökumətin növbəti ildəki əsas hədəfləri bəlli olur.

7

## 8 ölkə, 71 xarici nümayəndə, 150-yə yaxın qonaq

D-8 Media Forumunun ölkəmizdə keçirilməsi Azərbaycan jurnalistlərinin beynəlxalq əlaqələrini genişləndirəcək

9

# Azərbaycanın əczaçılıq sənayesində yeni inkişaf mərhələsi

## Prezident İlham Əliyev dərman preparatları istehsalı müəssisəsinin açılışında iştirak edib













*Əvvəli 1-ci səh.*

Dəyəri 74 milyon manat olan layihə özəl investisiya hesabına həyata keçirilib. Şirkət İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi hesabına idxal olunan avadanlıqlara görə 6,5 milyon manat güzəşt əldə edib.

Müəssisənin fəaliyyətə başlaması Azərbaycanın əczaçılıq sənayesində yeni inkişaf mərhələsi kimi qiymətləndirilir. Burada xammaldan hazır məhsula qədər dərman preparatlarının istehsalının bütün mərhələləri həyata keçiriləcək. Yeni müəssisə ölkəmizdə əczaçılıq sənayesinin inkişafına və yerli istehsalın güclənməsinə töhfə verəcək. Yerli və beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli məhsulların istehsalı ölkəmizin ixrac imkanlarını da genişləndirəcək.





Müəssisə, eyni zamanda əczaçılıq sahəsində peşəkar kadrların hazırlanması və əməli bacarıqların inkişafı üçün baza rolunu oynayacaq. "Scandens Pharmaceutical Industries Ltd" MMC, Azərbaycan Tibb Universiteti, Macarıstanın Peç Universiteti və "Panon Pharma" şirkəti arasında imzalanmış dördtərəfli Memorandum çərçivəsində burada əczaçı və qeyri-əczaçı ixtisasları üzrə qısa və uzunmüddətli təlim və təcrübə proqramlarının həyata keçirilməsi nəzərdə tutulub.

Prezident İlham Əliyev müəssisəni işə saldı.

Müəssisənin damında ümumi gücü 450 kVt/saat olan 710 ədəd Günəş paneli quraşdırılıb ki, enerji sərfiyyatının təxminən 40 faizi bu panellər vasitəsilə ödənəcək.

---

# V.Ə.Cəfərovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Vahid Əziz oğlu Cəfərov (Vahid Əziz) "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2025-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında statistika sahəsində Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il oktyabrın 3-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında statistika sahəsində Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 noyabr 2025-ci il*

# YAP nümayəndə heyəti Braziliya Federativ Respublikasında səfərdə olub

***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov, partiyanın Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli və İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovdan ibarət nümayəndə heyəti Mərkəzçi Demokrat İnternasionalının (IDC-CDI) dəvəti ilə 2025-ci il 20-23 noyabr tarixlərində Braziliya Federativ Respublikasında səfərdə olub.***



Noyabrın 21-də nümayəndə heyəti San-Paulu şəhərində IDC-CDI, Braziliyanın Sosial Demokrat Partiyasının (PSD) Demokratik Məkan Fondu və Konrad Adenauer Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Demokratik müzakirə: sağ-mərkəzin siyasətdə körpülər qurması və həllər təklif etməsi" mövzusunda forumda iştirak edib.

Forumun açılış mərasimində IDC-CDI-nın Prezidenti, Kolumbiyanın sabiq prezidenti Andres Pastana, PSD Demokratik Məkan Fondunun Ali Məsləhət Şurasının Prezidenti, San-Paulu Ştatının Hökumət və İnstitusional əlaqələr üzrə katibi, San-Paulunun sabiq meri, Braziliyanın dövlət naziri Gilberto Kassab və Konrad Adenauer Fondunun Braziliyadakı nümayəndəsi Maksimilian Hedrix çıxış ediblər. Yeni dünya nizamına keçid prosesinin geniş vüsət aldığı müasir dövrdə qlobal kataklizmlərin hökm sürdüyü, bu səbəbdən də milli, regional və beynəlxalq təhlükəsizlik məsələlərinin aktual çağırış kimi xalqlar və dövlətlərin qarşısında dayandığı qeyd olunub. Bildirilib ki, hazırda bəşəriyyətin sağlam gələcəyi naminə intensiv dialoqa ehtiyac duyulur və bu kontekstdə sosial məsuliyyət daşıyıcısı kimi siyasi partiyaların da üzərinə mühüm vəzifələr düşür. Qarşılıqlı faydalı əməkdaşlıq şəraitində milli maraqlara hörmət və beynəlxalq hüquq normalarına riayət etməklə müxtəlif ölkələri təmsil edən siyasi partiyaların ümumbəşəri dəyərlər və ortaq maraqlar naminə səylərinin birləşdirilməsinin vacibliyi vurğulanıb.

"Dəyişikliklər dövründə ekstremal yanaşmalar arasında idarəetmə", "Dəyişən dünyada sağ-mərkəz narrativ", "Mürəkkəb problemlərə realist həllər" mövzularında panel sessiyaları ilə öz işini davam etdirən forumda, həmçinin müasir dövrdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, demokratik institutların gücləndirilməsi, media və vətəndaş cəmiyyəti təsisatlarının dəstəklənməsi, eləcə də xalqlar arasında körpülərin qurulması üçün ideoloji qütbləşmənin azaldılması, etnik zəmində münaqişələrin qarşısının alınması və sivilizasiyalararası dialoqun təşviqində siyasi partiyaların rolu məsələləri müzakirə olunub.

Həmin gün forum iştirakçıları San-Paulu İncəsənət Muzeyini də ziyarət ediblər.

Noyabrın 22-də isə YAP nümayəndə heyəti IDC-CDI İcra Komitəsinin iclası və Nizamnamə Baş Assambleyasında iştirak edib.

İcra Komitəsinin 2025-ci il 30 may tarixində Kot-d'İvuar Respublikasında keçirilmiş son iclasının protokolu təsdiq edildikdən sonra Andres Pastrana, baş katib Antonio Lopez-İzturiz və digər rəsmilərin hesabat xarakterli çıxışları dinlənilib. İcra Komitəsinə yeni üzvlərin seçilməsi və qətnamə layihələrinin qəbulundan sonra isə xüsusi nümayəndələr regional hesabatlarını təqdim ediblər.

IDC-CDI Nizamnamə Baş Assambleyasında isə təşkilat rəhbərliyinin çıxışlarından sonra 2026-cı il üçün fəaliyyət planı təqdim olunub. Daha sonra təşkilatın 2026-cı il büdcəsi təsdiq edilib, səsvermə nəticəsində prezident və vitse-prezidentlər seçilib.

YAP nümayəndə heyəti noyabrın 22-də PSD Demokratik Məkan Fondu tərəfindən mədəni proqram çərçivəsində təşkil olunan tədbirə də qatılıb.

Səfər zamanı həmçinin YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Kamboca Xalq Partiyası Xarici əlaqələr komissiyası sədrinin birinci müavini və Kamboca Krallığı Milli Assambleyasının Xarici işlər, beynəlxalq əməkdaşlıq və informasiya komitəsinin sədri Suos Yara və Macarıstanın hakim Fides partiyasının vitse-prezidenti, Avropa Parlamentinin üzvü Kinqa Qal ilə görüşüb. Görüşlər zamanı partiyalararası əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan UNESCO-nun Ümumdünya İrs Komitəsinin üzvü seçilib

**Noyabrın 24-də Paris şəhərində Ümumdünya Mədəni və Təbii İrsin Qorunması üzrə 1972-ci il Konvensiyasına Tərəf Ölkələrin Baş Assambleyasının 25-ci sessiyası çərçivəsində UNESCO-nun Ümumdünya İrs Komitəsinin (ÜİK) 2025-2029-cu illər üzrə üzvlüyünə keçirilmiş seçkilərdə Azərbaycan Respublikası komitənin üzvü seçilib.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, ciddi rəqabət şəraitində baş tutmuş seçkilərdə Şərqi Avropa regionu üçün ayrılmış 1 yer uğrunda ölkəmizlə birgə 5 ölkə mübarizə aparıb. Azərbaycan səsvermənin ilk mərhələsində 161 ölkədən 92-nin dəstəyini təmin edərək komitəyə üzv seçilib.

21 üzv ölkədən ibarət olan komitə UNESCO-nun Ümumdünya İrs Konvensiyasının həyata keçirilməsinə nəzarət edən əsas icra orqanıdır. Komitənin başlıca vəzifəsi UNESCO Ümumdünya İrs Siyahısının formalaşdırılması, dünyaəhəmiyyətli mədəni və təbii irsin tanınması, qorunması və gələcək nəsillərə ötürülməsi üzrə fəaliyyətləri tənzimləməkdir. Komitə həmçinin Ümumdünya İrs Fondunun vəsaitlərinin istifadə istiqamətlərini müəyyən edir və tərəflərin müraciəti əsasında layihələrə maliyyə dəstəyi ayırır.

Bu dəstək konservasiya işlərindən tutmuş idarəetmə planlarının hazırlanmasına, fövqəladə hallarda yardım və müvafiq strukturların potensialının gücləndirilməsi kimi önəmli sahələri əhatə edir.

Azərbaycan 2015-2019-cu illərdə də komitənin üzvü olub və onun fəaliyyətinə əhəmiyyətli töhfələr verib. 2019-cu ilin iyul ayında komitənin 43-cü sessiyasına ölkəmiz evsahibliyi edib. Azərbaycanın UNESCO komitəsinə seçkilərdə qalibiyyəti ölkəmizin regional və beynəlxalq miqyasda artan nüfuzunun bariz nümunəsidir.

# Milli Məclisin Sədri Sahibə Qafarova Slovakiyanın ölkəmizdəki səfiri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 24-də Slovakiya Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Elçin Qasımov ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova bu vəzifədə fəaliyyətə başlaması münasibətilə səfiri təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə olunaraq, xüsusilə Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun ölkəmizə səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə"nin əlaqələrimizi keyfiyyətcə yeni mərhələyə qaldırdığı qeyd edilib.

Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı səfərlərin intensivliyi müsbət qiymətləndirilərək bu təmasların münasibətlərə töhfə verdiyi vurğulanıb.

Səfir Slovakiya Respublikası Milli Şurasının Sədri Riçard Rasinin salamlarını Azərbaycan parlamentinin Sədrinə çatdırıb. Diplomat həmçinin 8 noyabr - Zəfər günü münasibətilə təbriklərini ifadə edib.

Görüşdə qanunvericilik orqanları arasında da əlaqələrin inkişafı qeyd olunaraq, bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb. Bu mənada, parlament sədrlərinin, o cümlədən deputatların qarşılıqlı səfərlərinin qanunvericilik orqanları arasında əlaqələrin daha da genişlənməsinə müsbət təsirləri qeyd edilib.

Söhbət zamanı, həmçinin parlamentlərimiz arasında bütün istiqamətlərdə, o cümlədən parlament komitələri arasında əməkdaşlığın yaradılması imkanları nəzərdən keçirilib.

*"Azərbaycan"*

# Milli Məclisin deputatları beynəlxalq forumda iştirak ediblər

**Ötən həftə Rusiyanın Sankt Peterburq şəhərində 4-cü Beynəlxalq "Moda Birliyi" Forumu keçirilib. Forumun əsas məqsədi beynəlxalq peşəkar dialoqu inkişaf etdirmək və konkret biznes layihələri başlatmaqdır. Tədbirdə Azərbaycanı Milli Məclisin deputatları Nigar Məmmədova və Tamam Cəfərova təmsil ediblər.**





Forumda iştirak edən yüngül sənaye və yaradıcı sənaye nümayəndələrinin həmçinin Rusiya Federal Məclisi Federasiya Şurasının Sədri, MDB Parlament Assambleyası Şurasının sədri Valentina Matviyenko ilə görüşü olub. Görüş zamanı Milli Məclisin deputatı Nigar Məmmədova Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanın salamlarını çatdırıb. Nigar Məmmədova bildirib ki, MDB məkanında işbirliyi ölkələrin daha dərin inteqrasiyasına, sabitlik, etimad və inkişafdan ibarət ümumi məkanın formalaşdırılmasına şərait yaradan möhkəm institusional baza təqdim edir. Deputat MDB-nin mədəni və gənclər gündəliyinin formalaşmasında modanın roluna toxunub. Qeyd edib ki, moda - mədəni diplomatiyanın, yumşaq gücün və humanitar əməkdaşlığın ən təsirli alətlərindən biridir.

Forum çərçivəsində MDB Parlamentlərarası Assambleyasının baş katibi Dmitri Kobitski ilə Azərbaycan nümayəndə heyəti arasında görüş də baş tutub. N.Məmmədova MDB Parlamentlərarası Assambleyasının otuz ildən çoxdur ki, aktual məsələlərin müzakirəsi, dövlətlərarası proqramların həyata keçirilməsi və iştirakçı ölkələrin milli qanunvericiliklərinin yaxınlaşdırılmasına töhfə verən model qanunların hazırlanması üçün effektiv mexanizm kimi özünü doğrultduğunu bildirib. Tərəflər Parlamentlərarası Assambleya daxilində qarşılıqlı fəaliyyət məsələlərini və parlament əməkdaşlığının inkişaf perspektivlərini də müzakirə ediblər.

Görüşdə Parlamentlərarası Assambleya Şurasının baş katibinin müavini və Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyası yanında səlahiyyətli nümayəndəsi Aydın Cəfərov da iştirak edib.

IV Beynəlxalq "Moda Birliyi" Forumu çərçivəsində keçirilən "MDB-də yüngül sənaye və yaradıcı sənaye sahələrində dövlət dəstəyi tədbirləri" mövzusunda "dəyirmi masa"da isə MDB ölkələrindən və biznes birliklərindən nümayəndələr sənayenin dayanıqlı, rəqabətli olmasının yollarını müzakirə ediblər. Azərbaycan nümayəndələri diqqəti əsasən ölkədə mövcud olan yüngül sənaye və yaradıcı sənaye sahələrinə dəstəyə yönəldiblər. Nigar Məmmədova xüsusilə beynəlxalq tərəfdaşlarla əməkdaşlığa toxunaraq bu kontekstdə Azərbaycanla dost Özbəkistanın işğaldan azad olunmuş ərazilərdə birgə reallaşdırdığı layihələrin əhəmiyyətini qeyd edib. Milli Məclisin deputatı həmçinin süni intellekt və rəqəmsallaşmanın moda sənayesinin inkişafına təsirlərinə toxunub. O, süni intellekti yüngül sənayenin inkişafında inklüzivliyi təmin edən vasitə kimi dəyərləndirib.

Plenar iclasda isə "Moda sosial imkanlar məkanı kimi: İnklüzivlik, Məşğulluq və Humanitar Əməkdaşlıq" mövzusunda çıxış edən Nigar Məmmədova yaradıcı sənaye sahələrinin qadınların liderə çevrildiyi və əlilliyi olan insanların iş və yaradıcılıq üçün yeni imkanlar qazandığı azsaylı sahələrdən biri olduğunu vurğulayıb. O, adaptiv geyim istehsalının həyat keyfiyyətini yaxşılaşdırdığını və parlamentlərin bu cür təşəbbüsləri əlçatanlıq standartları, istehsalçıları dəstəkləmək üçün tədbirlər və təhsil proqramları vasitəsilə dəstəkləyə biləcəyini qeyd edib. N.Məmmədova qeyd edib ki, kreativ sənayelər nadir sahələrdən biridir ki, burada qadınlar rəhbər olur, brend yaradır, sahibkara çevrilir, gənclər özünü ifadə etmək üçün geniş imkan tapır, əlilliyi olan şəxslər isə işə, sənətə və cəmiyyətə inteqrasiya olunur, çevik iş modelləri sosial inklüzivliyi gücləndirir. Diqqətə çatdırılıb ki, bu yalnız iqtisadiyyat deyil, həm də sosial mobillik, yeni imkanlar və real inklüzivlik deməkdir.

Deputat modanın inklüziv cəmiyyətin qurulmasındakı roluna da toxunub. Bildirib ki, inklüziv moda - trend deyil, bu, cəmiyyətin yetkinlik səviyyəsidir: "Əlilliyi olan bir insan rahat, funksional və estetik geyim əldə edəndə - bu, həyat keyfiyyətinin yüksəlməsidir. Burada söhbət təkcə modadan getmir. Söhbət ləyaqətdən, bərabər olmaq hüququndan gedir. Cəmiyyətin bir parçası olduğunu hiss etməkdən gedir".

MDB məkanında humanitar əməkdaşlıq çərçivəsində parlamentlərin roluna diqqət çəkən deputat bildirib ki, sosialyönümlü kolleksiyalar yaradan istehsalçıların dəstəklənməsi, keyfiyyət və əlçatanlıq standartlarının müəyyən edilməsi, gənclər və əlilliyi olan şəxslər üçün təhsil imkanlarının yaradılması və MDB ölkələri arasında humanitar əməkdaşlığın gücləndirilməsində ali qanunverici orqanların rolu vacibdir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Milli Məclisin komitələrinin birgə iclası olub

**Noyabrın 24-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin onlayn formatda birgə iclası keçirilib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli iclası açaraq bildirib ki, gündəliyə bir məsələ - Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) daxil edilib.

İclasda mənəvi dəyərlərin qorunması, gənclərin zərərli kontentdən müdafiəsi və internet mühitində məsuliyyət mexanizmlərinin dəqiqləşdirilməsi üçün yeni qanun layihəsinin hazırlanmasına ehtiyac yarandığı bildirilib. Qeyd edilib ki, qanun layihəsinin əsas məqsədi ictimai mənəviyyatı qorumaq, xüsusilə yeniyetmə və gəncləri sosial şəbəkələrdə yayılan zərərli və qeyri-etik informasiyadan müdafiə etmək, həmçinin internet mühitində məsuliyyət mexanizmlərini dəqiqləşdirərək mövcud qanunvericiliyi təkmilləşdirməkdir.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qanun layihəsi barədə fikirlərini bildiriblər, onun cəmiyyətdə narazılığa səbəb olan neqativ halların qarşısını almağa təkan verəcəyini diqqətə çatdırıblar.

Qanun layihəsinin müzakirəsində Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev, deputatlar Hikmət Məmmədov,Vüqar Rəhimzadə, Mübariz Qurbanlı, Elman Nəsirov, Tural Gəncəliyev, Erkin Qədirli və Razi Nurullayev çıxış edərək layihə ilə bağlı fikirlərini bildiriblər, qeyd və təkliflərini səsləndiriblər.

İclasın sonunda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə edilib.

*"Azərbaycan"*

# Bakı TDT-yə üzv ölkələrin QHT-lərinin həmrəylik forumuna evsahibliyi edib

**Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin qeyri-hökumət təşkilatları (QHT) ilk dəfə bir platformada toplaşıblar.**










AZƏRTAC xəbər verir ki, noyabrın 24-də Bakıda TDT-yə üzv ölkələrin QHT-lərinin həmrəylik forumunun açılışı olub.

Tədbir iştirakçıları əvvəlcə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Şimali Kipr Türk Respublikası və Macarıstanın mədəniyyət nümunələrini əks etdirən stendlərlə tanış olublar.

Forumun açılış mərasimində türk dövlətləri arasında mövcud tarixi bağlılığı, ortaq dəyərləri, sıx əməkdaşlıq münasibətlərini və bu əlaqələrin inkişaf yolunu, perspektivlərini əyani şəkildə nümayiş etdirən videoçarx təqdim olunub.

Sonra Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Prezident İlham Əliyevin forum iştirakçılarına məktubunu oxuyub.

Açılış mərasimində çıxış edən QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bildirib ki, Vətən müharibəsində qazanılan Zəfər təkcə Azərbaycanın deyil, bütün türk dünyasının uğurudur və bu Qələbə ortaq birliyin və həmrəyliyin təntənəsidir. O, səkkiz ölkədən 500-ə yaxın nümayəndənin Bakıda qəbul edilməsindən məmnunluq ifadə edərək, forumun yeni əməkdaşlıq istiqamətlərinin formalaşmasına və ortaq layihələrin sistemli icrasına töhfə verəcəyini vurğulayıb.

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı ofisinin rəhbəri Hayrettin Özçelik isə qeyd edib ki, qurumun əsas vizyonu ölkələrin iqtisadi, sosial və humanitar inkişafını təşviq etmək, ortaq tarixi və mədəni irs üzərində gələcəyi formalaşdırmaqdır. O bildirib ki, Bakı ofisi bu istiqamətdə 2 minə yaxın layihə həyata keçirərək türk dünyasında əməkdaşlığın genişlənməsinə töhfə verir.

Açılış nitqlərindən sonra iki panel müzakirəsi keçirilib.

**"Zəngəzur dəhlizi: türk coğrafiyasını birləşdirən körpü"** mövzusunda keçirilən panel müzakirəsində regional əməkdaşlıq və vətəndaş cəmiyyətinin təşəbbüsləri əsas müzakirə mövzusu olub. Paneldə Türkiyənin Daxili İşlər Nazirliyinin Vətəndaş Cəmiyyəti ilə Əlaqələr Baş İdarəsinin direktor müavini Özcan Aygün, Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının Komitə sədri Babur Bekmuradov, Qazaxıstanın Mədəniyyət və İnformasiya Nazirliyi yanında Vətəndaş Cəmiyyəti Məsələləri Komitəsi sədrinin müavini Zhanargül Alzhanova, Türkmənistanın CAER Layihə Ofisinin direktoru Mergen Kepbanov, Macarıstanın "Danube" İnstitutunun icraçı direktoru İstvan Kiss, eləcə də Şimali Kipr Türk Respublikasının Daxili İşlər Nazirliyinin aparat rəhbəri Mehmet Ercilasun çıxış ediblər.

Çıxışçılar Zəngəzur dəhlizinin türk dünyası üçün strateji əhəmiyyətindən, bu marşrutun regiondaxili inteqrasiyanı gücləndirən mühüm nəqliyyat və əməkdaşlıq xətti kimi rolundan danışıb, vətəndaş cəmiyyəti institutlarının bu prosesə verdiyi töhfələri vurğulayıblar. Qeyd olunub ki, QHT-lər arasında əlaqələrin genişləndirilməsi və birgə təşəbbüslərin artırılması türk coğrafiyasında davamlı inkişaf və ortaq maraqların qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

**"Azərbaycan-Qazaxıstan QHT-lərinin I Əməkdaşlıq Forumu"na** həsr olunan panel müzakirələrində iki ölkənin vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Paneldə "Bakı Politologiya Klubu" İctimai Birliyinin sədri Zaur Məmmədov, Qazaxıstanın "Sənin Gələcək" Respublika İctimai Birliyinin sədri Zhansaya İsmagulova, "Community Hub" İctimai Fondunun direktorları Asiya Tiryakova və Assiya Tikeyeva, "İkinci Respublika" İctimai Fondunun rəhbəri Ayan Turekulov, "Ortaq dəyərlər" Azərbaycan İctimai Birliyinin sədri Aqil Camal, "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyinin sədri Şəlalə Həsənova və Gəncliyin Sosial-İqtisadi İnkişafına Yardım İctimai Birliyinin üzvü Hacıbəy Heydərli çıxış ediblər.

Çıxışçılar Azərbaycan və Qazaxıstan QHT-ləri arasında əməkdaşlığın gücləndirilməsinin regionda vətəndaş cəmiyyətinin inkişafına, sosial layihələrin daha effektiv icrasına və ictimai təşəbbüslərin koordinasiyasına mühüm töhfə verəcəyini bildiriblər. Qeyd olunub ki, gənclərin fəallığının artırılması, sosial innovasiyaların təşviqi, icmaların inkişafı və könüllülük fəaliyyətinin genişləndirilməsi gələcək əməkdaşlığın prioritet istiqamətləri sırasında yer almalıdır.

Tədbir bədii-mədəni proqramla yekunlaşıb, forum isə işini Naxçıvanda davam etdirəcək. Burada TDT-yə üzv ölkələrin QHT-lərinin Platformasının təsis olunması gözlənilir. Platformaya rəhbərliyi Azərbaycan edəcək və 8 ölkənin QHT-lərini birləşdirəcək.

Forum iştirakçıları 2026-cı ildə Azərbaycanda keçiriləcək 13-cü Dünya Şəhərsalma Forumuna dəvət olunacaq və tədbir birgə bəyanatın qəbul edilməsi ilə başa çatacaq.

Qeyd edək ki, forumda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikasından 500-dən çox vətəndaş cəmiyyəti təmsilçisi iştirak edib. Bu, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin xətti ilə təşkil olunan ən böyük tədbirdir.

# Şuşada Azərbaycan-Türkiyə Beyin Mərkəzlərinin I Forumu keçirilib

**Şuşa şəhərində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə Azərbaycan-Türkiyə Beyin Mərkəzlərinin I Forumu keçirilib. Tədbirdə hər iki ölkədən aparıcı analitik qurumların rəhbərləri, ekspertlər və tədqiqatçılar iştirak ediblər.**





AZƏRTAC xəbər verir ki, əvvəlcə şəhidlərin xatirəsi sükutla anılıb.

Forumda BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev və Türkiyə Xarici İşlər Nazirliyi yanında Strateji Araşdırmalar Mərkəzinin sədri Polat Safi çıxış ediblər. Çıxışlarda Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin regionda formalaşan yeni geosiyasi reallıqlar fonunda daha da gücləndirilməsinin vacibliyi vurğulanıb. Natiqlər beyin mərkəzləri arasında əməkdaşlığın iki ölkənin xarici siyasətinə analitik dəstəyin artırılmasına xidmət etdiyini bildiriblər.

Forum çərçivəsində üç panel sessiya keçirilib.

Birinci sessiyada Azərbaycan və Türkiyənin xarici siyasətində əsas trendlər, Qafqaz regionunda dəyişən təhlükəsizlik arxitekturası və iki ölkənin diplomatik koordinasiya imkanları müzakirə edilib.

İkinci sessiyada Türk Dövlətləri Təşkilatında inteqrasiyanın perspektivləri, iqtisadi və nəqliyyat əməkdaşlığının genişləndirilməsi, eləcə də vahid analitik yanaşmaların formalaşdırılması məsələləri diqqət mərkəzində olub.

Üçüncü sessiyada nəqliyyat-kommunikasiya və enerji əməkdaşlığının strateji əhəmiyyəti, Zəngəzur dəhlizi və Orta dəhlizin inkişafı, həmçinin Azərbaycan və Türkiyənin enerji diplomatiyasında yeni istiqamətlər müzakirə edilib.

Forumda hər iki ölkənin beyin mərkəzlərinin ortaq cəhətləri vurğulanıb. Ekspertlər Azərbaycan və Türkiyənin analitik qurumlarının eyni regional prioritetlərə malik olduğunu, xarici siyasət, təhlükəsizlik, enerji və nəqliyyat məsələlərində oxşar strateji yanaşmalar ortaya qoyduqlarını bildiriblər. Qeyd olunub ki, iki ölkənin beyin mərkəzləri arasında tədqiqat gündəliyi böyük ölçüdə üst-üstə düşür və bu əməkdaşlıq regiondakı proseslərin daha dərindən təhlilinə imkan yaradır. Bu platformanın təşkil edilməsi region üçün mühüm əhəmiyyət daşıyır. Azərbaycan-Türkiyə intellektual əməkdaşlığı regional sabitlik və təhlükəsizlik baxımından yeni sinerji yaradır, TDT çərçivəsində vahid strateji yanaşmaların formalaşmasına, eləcə də Cənubi Qafqazda sülh və inkişaf modelinin möhkəmlənməsinə töhfə verir.

Tədbirin yekununda iki ölkənin beyin mərkəzləri arasında elmi-analitik əməkdaşlığın genişləndirilməsi, ortaq tədqiqat layihələrinin həyata keçirilməsi, birgə strateji hesabatların hazırlanması və növbəti forumların mütəmadi keçirilməsi müzakirə olunub.

# 25 Noyabr Kəlbəcər Şəhəri Günüdür

## Kəlbəcər 5 ildir dirçəliş dövrünü yaşayır

**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində göstərdiyi şücaət və əldə etdiyi parlaq Qələbə hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Qarabağ zəfəri yalnız hərbi əməliyyatların nəticəsi deyil, eyni zamanda dövlətçilik tariximizin ən böyük siyasi uğurlarından biridir. Ağdam, Kəlbəcər və Laçının bir güllə belə atılmadan işğaldan azad olunması Prezident İlham Əliyevin uzaqgörənliyi, diplomatik məharəti və qətiyyətli liderliyinin bariz təzahürüdür.**



Şuşanın azad edilməsindən sonra aciz duruma düşən Ermənistanın kapitulyasiya aktını imzalamaqdan başqa çıxış yolu qalmamışdı. Elə bu səbəbdən 10 noyabr üçtərəfli Bəyanatında Ermənistan silahlı qüvvələrinin Kəlbəcər, Laçın və Ağdamdan qeyd-şərtsiz çıxması barədə müddəa öz əksini tapdı.

Prezident İlham Əliyevin tarixi zəfərimizi və işğaldan azad olunmuş şəhərlərin şanlı günlərini əbədiləşdirmək üçün imzaladığı sərəncama əsasən, 31 iyul 2023-cü il tarixindən etibarən hər şəhərin işğaldan azad olunduğu gün ayrıca qeyd olunur və 25 noyabr Kəlbəcər Şəhəri Günü kimi təsdiqlənmişdir.

Kəlbəcər toponimi qədim türk dilində "çay üstündə qala" mənasındadır və bölgənin qədim keçmişindən xəbər verir. Tərtər çayı boyunca uzanan süni mağaralar, 30 min ildən artıq yaşı olan qədim yaşayış yerləri Kəlbəcərin zəngin arxeoloji irsinin nümunələridir. Qayaüstü rəsmlər, qədim türk əlifbası nümunələri və atəşpərəstlik dövründən islam mədəniyyətinə qədər keçən tarixə aid daş abidələr bu bölgənin əsrlər boyu müxtəlif mədəniyyətlərin qovuşduğu məkan olduğunu təsdiqləyir.

Azərbaycanın ən yüksək dağlıq rayonlarından biri olan Kəlbəcər Camışdağ (3724 m) və Dəlidağ (3616 m) kimi möhtəşəm zirvələri ilə seçilir. Meşələrlə əhatələnən bu ərazi şimaldan Daşkəsən və Göygöl, qərbdən Ermənistan, şərqdən isə Ağdam və Xocalı ilə sərhədlənir. 1930-cu ildən inzibati rayon kimi fəaliyyət göstərən Kəlbəcərin ərazisi 3054 kvadratkilometrdir və 145 kəndi əhatə edir.

1993-cü il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin Kəlbəcəri işğal etməsi faciəli nəticələrə gətirib çıxardı: 511 dinc rayon sakini qətlə yetirildi, 321 nəfər isə əsir və itkin düşdü. İşğal illərində rayonun tarixi-mədəni irsi dağıdıldı, təbii sərvətləri və infrastruktur obyektləri talan edilərək Ermənistana daşındı. Kəlbəcərin işğalı həm strateji mövqeyinə, həm də təbii resurslarına görə Ermənistan üçün xüsusi əhəmiyyət daşıyırdı. Belə ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanla sərhədi olmadığından, Laçın və Kəlbəcər üzərindən yaradılan yeni əlaqə Ermənistana silah, texnika və canlı qüvvə daşınmasına geniş imkan açmış və bu da işğal siyasətinin daha da genişlənməsinə şərait yaratmışdı.

BMT Təhlükəsizlik Şurası məhz Kəlbəcərin işğalından sonra - 30 aprel 1993-cü ildə 822 saylı ilk qətnaməni qəbul etdi. Qətnamədə Ermənistanın Kəlbəcəri işğal etməsi qətiyyətlə pislənir və işğalçı qüvvələrin Kəlbəcərdən və digər ərazilərdən dərhal çıxması tələb olunurdu. Lakin bu sənədin icra edilməməsi və Ermənistanın cəzasız qalması digər rayonlarımızın da işğal edilməsinə şərait yaratdı. Sonradan qəbul edilən digər üç qətnamə də 822 saylı sənəd kimi kağız üzərində qaldı. Ermənistan beynəlxalq hüququ kobud şəkildə pozaraq 1999-cu ildən etibarən Kəlbəcər də daxil olmaqla, işğal altındakı ərazilərdə qeyri-qanuni məskunlaşdırmaya başladı.

BMT qətnamələrinin real icrası yalnız İkinci Qarabağ müharibəsindən sonra - Azərbaycanın öz gücü, hərbi-siyasi iradəsi və qələbəsi hesabına mümkün oldu.

İkinci Qarabağ müharibəsinin ilk günlərindən etibarən Kəlbəcərin şimal istiqamətində aparılan döyüşlər Azərbaycan Ordusuna mühüm strateji üstünlük qazandırmışdı. Ordumuz bu bölgədə bir sıra yüksək strateji mövqeləri nəzarətə götürərək Ermənistan silahlı qüvvələrinin həmin istiqamətdə manevr imkanlarını ciddi şəkildə məhdudlaşdırmışdı. Basarkeçər-Kəlbəcər yolunun nəzarət altına alınması nəticəsində erməni hərbi birləşmələrinin hərəkəti, demək olar ki, tamamilə iflic vəziyyətinə salınmışdı.

Üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq, Kəlbəcər rayonu 2020-ci il 25 noyabr tarixində Azərbaycana qaytarıldı. Əslində, bəyanata əsasən, rayonun 15 noyabrda təhvil verilməsi nəzərdə tuturdu, lakin Ermənistanın müraciəti və Rusiyanın xahişi ilə humanist mövqedən çıxış edən Azərbaycan əlavə olaraq 10 günlük vaxt ayrılmasına razılıq verdi. Bu, beynəlxalq hüquqa zidd şəkildə Kəlbəcərdə qeyri-qanuni məskunlaşdırılmış erməni sakinlərinin təhlükəsiz şəkildə ərazini tərk etmələri üçün yaradılmış şərait idi.

Biz 1993-cü ilin aprelində kəlbəcərlilərin öz doğma yurdlarından zorakılıq və amansızlıqla qovulmasını - dağ yolları ilə, ayaqyalın, ağır şəraitdə didərgin salınmalarını unutmadıq və heç vaxt unutmayacağıq. Nə həmin vəhşiliklə insanları evindən edən Ermənistan, nə də Azərbaycanın verdiyi 10 günlük möhlətdən sui-istifadə edərək Kəlbəcərdə evləri, meşələri yandıran, təbiəti məhv edən ermənilər dövlətimizin göstərdiyi bu humanizmə layiq idilər. Bununla belə, Azərbaycan insan hüquqlarına hörmət prinsipini qoruyaraq, böyüklük nümayiş etdirərək ermənilərin ərazini təhlükəsiz tərk etməsi üçün bütün zəruri imkanları yaratdı. Bu addım ölkəmizi əsassız şəkildə ittiham edənlərə veriləbiləcək ən tutarlı cavablardan biri oldu.

Kəlbəcərin azad olunmasında iştirak etmiş hərbçilərin qəhrəmanlığını əbədiləşdirmək məqsədilə 26 noyabr 2020-ci il tarixində "Kəlbəcərin azad olunmasına görə" medalı təsis edildi. Prezident İlham Əliyevin sərəncamı ilə bu döyüş əməliyyatlarında göstərdikləri igidlik və şücaətə görə Azərbaycan Silahlı Qüvvələrinin 9455 hərbi qulluqçusu sözügedən medalla təltif olundu.

İkinci Qarabağ müharibəsində qazanılan zəfərdən sonra dövlətimiz işğaldan azad edilmiş bütün ərazilərdə olduğu kimi, Kəlbəcərin də dirçəlişini prioritet milli hədəf kimi müəyyənləşdirmişdir. Prezident İlham Əliyevin siyasi iradəsi, ardıcıl nəzarəti və birbaşa rəhbərliyi ilə Kəlbəcər rayonunda genişmiqyaslı yenidənqurma layihələri həyata keçirilir. 2024-cü il 1 may tarixli qərarla təsdiqlənən "Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı" bu bölgənin inkişaf vizionunun əsas strateji sənədinə çevrilmişdir.

Nazirlər Kabinetinin təsdiqlədiyi baş plana əsasən, Kəlbəcər şəhərinin ərazisi və əhalisi işğaldan əvvəlki göstəricilərlə müqayisədə iki dəfədən çox artırılacaq. 1969-cu ildə tərtib edilmiş son baş plana görə, şəhərin ərazisi 130 hektar, əhalisi 7500 nəfər idisə, 2040-cı ildə bu göstəricilər 290 hektara və 17 min nəfərə çatdırılacaq.

Şəhərin mərkəzində ortamərtəbəli yaşayış və inzibati binalar inşa olunur, ətraf zonalarda isə fərdi evlər salınacaq. Ümumi yaşayış fondu 488 min kvadratmetr təşkil edəcək, bunun 421 min kvadratmetri fərdi evlərin, 46 min kvadratmetri isə çoxmənzilli yaşayış binalarının payına düşəcək. Ümumilikdə 4250 mənzil tikilərək adambaşına 25 kvadratmetr yaşayış sahəsi norması təmin ediləcək.

Bununla yanaşı, şəhərdə 4 məktəbin, 4 uşaq bağçasının, 2 xəstəxananın, 1 reabilitasiya mərkəzinın, İşğal və Zəfər muzeylərinin, hotellər, idman və sosial obyektlərin tikintisi planlaşdırılır.

Kəlbəcər şəhərində artıq 524 ailəlik yaşayış məhəlləsi, 19,5 hektarlıq ərazidə salınan kompleksdə 6 dördmərtəbəli bina (hər birində 27 mənzil), 39 "townhouse" tipli ikimərtəbəli ev tikilərək birinci mərhələdə 201 ailə köçürülüb. Kompleksdə park, istirahət guşələri, sosial obyektlər, parkinq, velosiped yolları və uşaq meydançaları yaradılıb. İkinci mərhələdə daha 323 ailənin məskunlaşdırılması üçün 16 bina və 57 "townhouse" inşa olunacaq.

2025-ci il avqustun 21-də Prezident İlham Əliyev Kəlbəcərə səfəri çərçivəsində ilk 20 ailəyə mənzil açarlarını təqdim edib. Ümumilikdə isə şəhərə artıq 81 ailə (338 nəfər) köçürülüb.

Bundan başqa, Yanşaq kəndi 121 ha ərazidə salınır və burada ümumilikdə 421 ailə məskunlaşdırılacaq. Zallar kəndi 137 ha ərazidə salınır və ümumilikdə 487 ailənin köçürülməsi planlaşdırılır. Zar kəndi 243 hektardan çox ərazidə salınır və 855 ailənin köçürülməsi planlaşdırılır.

Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunan tunel regionun ən böyük logistik layihələrindən biridir. Yolun 13,5-ci kilometrliyində inşa edilmiş və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışı olmuşdur. Bu, dünyanın ən uzun avtomobil tunellərindən biridir. Belə ki, uzunluğuna görə bu tunel dünyada 18-ci, Avropada 5-ci, MDB ölkələri arasında isə 1-cidir.

İşğaldan azad olunmuş Kəlbəcər rayonunda enerji infrastrukturu əsaslı şəkildə bərpa edilərək bölgənin hidroenerji resurslarının səmərəli istifadəsi təmin olunub. Meydan çayı üzərində 3,4 meqavat gücündə kiçik su-elektrik stansiyası tam yenidən qurulmuş, bununla yanaşı, Tərtər çayı və Qaraarxac çayı üzərində yerləşən "Çıraq-1", "Soyuqbulaq" və "Çıraq-2" kimi ümumi gücü onlarla meqavatı aşan su-elektrik stansiyaları müasir tələblərə uyğun şəkildə bərpa edilib. Bundan əlavə, "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" stansiyalarının tikintisi Kəlbəcərin həm enerji müstəqilliyi, həm də "yaşıl enerji" strategiyası baxımından mühüm mərhələ kimi qiymətləndirilir.

Kəlbəcərin təbii müalicə resurslarının yenidən iqtisadi dövriyyəyə qaytarılması məqsədilə inşa edilən "İstisu" Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 80 min kvadratmetr olacaq və burada 145 nömrəlik hotel, kotteclər və inzibati binalar inşa edilir. Kompleksdə fəaliyyət göstərəcək SPA mərkəzi mineral su ilə müalicə, palçıq terapiyası və klimatoterapiya kimi istiqamətləri özündə birləşdirərək, Kəlbəcəri regionun aparıcı sağlamlıq turizmi məkanlarından birinə çevirmək potensialına malikdir. Bu layihə həm də rayonun turizm infrastrukturunun bərpasında və iqtisadi canlanmasında mühüm rol oynayır.

Mənbəyini dəniz səviyyəsindən 1600 metrdən yüksəkdə yerləşən termal su yataqlarından alan "İstisu" mineral suyu tərkibinə görə regionun ən nadir və müalicəvi sularından biridir. 2022-ci ildə təməli qoyulan və 2024-cü ildə tam istifadəyə verilən mineral su zavodu ildə 100 milyon şüşədən çox istehsal gücünə malikdir və burada iki növbəli rejimdə təxminən 100 nəfər çalışır. İşçi heyətinin böyük hissəsinin Kəlbəcər və Laçın sakinlərindən ibarət olması zavodun həm sosial məşğulluğa, həm də bölgənin iqtisadi reinteqrasiyasına töhfə verdiyini göstərir.

Kəlbəcər həm tarixi kökləri, həm də strateji mövqeyi ilə Azərbaycanın fəxarət mənbəyidir. Kəlbəcər Şəhəri Günü xalqımızın iradəsini, əzmkarlığını və Vətənə bağlılığını simvolizə edən mənalı bir gündür. Bu əlamətdar tarix bizə keçmişimizi xatırladır, gələcəyə doğru birliyimizi və qətiyyətimizi daha da gücləndirir.

Kəlbəcərin uca dağları, saf çayları və zəngin təbiəti gələcək nəsillərə əmanətdir və hər bir azərbaycanlının qəlbində xüsusi dəyərə malikdir. Şəhərin bərpası istiqamətində atılan hər bir addım isə ölkəmizin daha güclü və dayanıqlı gələcəyinin formalaşmasına xidmət edir.

Kəlbəcər Şəhəri Günü münasibətilə hər kəsi bu nadir gözəlliklərlə dolu bölgəmizi daha çox sevməyə, qorumağa və onu gələcək nəsillərə layiqincə çatdırmağa səsləyirəm!

*Ziyafət ƏSGƏROV,*
*Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini*

## Yurdumun azad çağı

**Kəlbəcər uzunömürlülər diyarı kimi məşhurdur. Bu torpaqdan yoğrulan, suyu, havası ilə qidalanan insanların təbiətin özü kimi, saf, sağlam olması təbii qanunauyğunluqdur. Amma bu ulu yurdun uzunömürlülər diyarı olmasının bir başqa mistikası, İlahi açması da var. 1993-cü ilin aprelində işğal nəticəsində Kəlbəcəri tərk edən insanların hər birinin ürəyində mütləq geri dönəcəyi ümidi vardı. Ona görə idi ki, vaxtilə qapılarını bağlayıb çıxdıqları və sonradan düşmənin talayıb darmadağın etdiyini bildikləri evlərinin açarlarını heç zaman atmadılar, sığındıqları çadır, vaqon, yataqxanalarda ən məhrəm yerdə saxladılar. Bu insanlar nə vaxtsa Kəlbəcərə dönəcəklərinə dair sarsılmaz inam və ümidlərini bax bu cür qəlblərində mühafizə etdilər.**



Ancaq o da həqiqət idi ki, işğal illərində yaşları orta həddi çoxdan keçən kəlbəcərlilərin əksəriyyətinin ürəyinə bir daha yurdlarını görməyin özlərinə nəsib olmayacağı kimi tükürpərdici qorxu hissi də hakim idi....

Düz bir qərinə əvvəl, qüssəli bir aprel günündə, baxdıqca göz işləyən, ucu-bucağı bilinməyən qədim Kəlbəcər yurdu sakinləri üçün qeybə çəkilmişdi. O faciənin şahidləri sonradan danışırdılar ki, sonuncu dəfə sanki Kəlbəcəri dağlarının bəyaz saçlarını yola-yola Tərtərçaya qoşularaq hönkür-hönkür ağlayan görmüşdülər. Elə həmin gün kəlbəcərlilər Azərbaycanın dörd bir yanına pərən-pərən düşmüşdülər.

Amma il dolandı, ay ötdü, gün yetişdi və 25 noyabr 2025-ci il Kəlbəcərin qurtuluş, kəlbəcərlilərin diriliş gününə çevrildi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır!" haqq nidası Kəlbəcərin 27 illik əsarətinə son qoydu.

Kəlbəcərin uzunömürlülər diyarı olmasının özünəməxsus İlahi sirri də elə burada gizli idi. Sinninin ötən çağlarında bu yurddan didərgin düşən insanların bir çoxuna da uca Tanrı Kəlbəcəri görməyi yenidən nəsib etdi. Düşmənə inad, o insanların onilliklər boyu çəkdikləri əzab və əziyyətlərinin qarşılığı olaraq Kəlbəcər ruhu, Kəlbəcər sevgisi və Kəlbəcər uzunömürlülüyü özünü bir daha göstərdi...

### Sazlı-sözlü yurdum

Kəlbəcərin əsrarəngizliklərindən biri də bu diyarda doğulan, bu dağlar qoynunda yaşayan insanların sözə vurğunluğudur. Göz açıb Kəlbəcərin möcüzəvi təbiətini görənlər dil açıb şair olur, sözlər yandırır bu insanları, telli sazı basırlar sinələrinə, sevinclərini də, kədərlərini də elə sazın-sözün sehri ilə çatdırırlar.

Bu dəfə də belə olmuşdu... Kəlbəcər eli məcburi köçkünlüyün ağrı-acısını, məşəqqətini, Vətən özləmini, yurda dönüş istəyini ürəyindən sözlərə köçürmüşdü...

Kəlbəcər rayonunun Sınıqkilsə kəndindən (indi Hacıkənd) olan şair Nüsrət Bağırov da vətən harayını öz şeirində belə qələmə almış, bəlkə də bir daha o torpağı görməyəcəyinə dair qəlbində daş kimi asılmış inamsızlığını bu cür dilə gətirmişdi:

*Dindirməyin, qanım yaman qaradır,*
*tutulmuşam, bir çarəsiz dərdə mən.*
*Ağbulağı, Qaraxaçı, Taxtanı,*
*Görərəmmi, ey İlahi, bir də mən.*

Ömrünün 80-ni haqlayan çağında yurd nisgili bitən, ana torpağına sevinclə qədəm qoymağın bəxtəvərliyini yaşayan Nüsrət Bağırov qardaşı Vahidlə birgə azadlığından sonra, bir yay günündə Kəlbəcərə, doğulduğu Sınıqkilsəyə yollandı. İki qardaş illərin ayrılığından sonra baş tutan ziyarətləri zamanı vəfat etmiş ataları Yunisin, qardaşları Fəruxlaq Qənaətin yurduna getdilər, doğma ocaqlarında Tanrıya şükranlıq qurbanı kəsdilər. Eh, gör üzərindən neçə illər keçmişdi.... onlar vaxtilə 39, 50 yaşlarında tərk etdikləri Kəlbəcərə indi alınlarında qırışlar iz salmış, saçları çallaşmış ağsaqqallar kimi qayıtmışdılar...

Sınıqkilsə Kəlbəcərin ən axar-baxarlı qədim kəndlərindəndir. Dağların yamacında bina olunmuş, yaşıl meşələri, gur çayları, büllur bulaqları, şaqraq şəlalələri, güllü yaylaqları ilə gözoxşayan bu kənddə Alxaslı obası yaşayırdı. Vaxtilə bu ərazidə xeyli alban məbədi (vənglər) olduğu üçün kəndi Sınıqkilsə adlandırıblar.

Alxaslılar zəhmətkeş, qoçaq olmaları, qonaqpərvərlikləri, eləcə də baməzəlikləri ilə tanınırdılar. Onların özlərinə məxsus ləhcə ilə etdikləri məzəli zarafatları bütün rayonda dillər əzbərinə çevrilərdi. O da var ki, Kəlbəcərin dəniz səviyyəsindən 2 min metrə qədər yüksəkdə yerləşən Sınıqkilsə kəndinin sərt təbiətini ram edərək orada şad-xürrəm həyat sürmək də hər kəsin hünəri deyildi və bunu məhz Alxaslı obası bacarırdı. Kənd sakinləri heyvandarlıqla, əkin-biçinlə məşğul olur, yazda yaylaqları Qoç daşa köçərək üç ayı orada keçirər, payızda binəyə düşərək qış mənsilini tutar, qar yağıb çayları buz tutan şaxtalı fəsildə də kənddə yaşamlarını sürdürərdilər. Bu kəndin kişiləri də, qadınları da hər zaman at belində, köç üstündə idi. Qadınların əl qabiliyyətlərinə də söz ola bilməzdi. Dadından doymaq olmayan qatlamanı, kömbəni, quzu buğlamasını, qırxbuğum kətəsini bişirdikləri məharətli əlləri ilə al-əlvan xalı-xalçaları elə toxuyardılar ki, elə bilərdin Kəlbəcərin gül-çiçəkli çəmənləri köçüb ilmələrdən boylanır.

Kəlbəcərli olasan, sazdan-sözdən uzaq olasan?! Sınıqkilsədən də Nüsrət, Nəcəf, Çərkəz, Bimar Əli, Eldar İsayev və digər onlarca şəxs şeirləri ilə qəlblərdə taxt qurublar. Əziz Əsədov isə bu kəndin tanınmış aşıqlarındandır…

### Yadına gəlirmi...

Kəlbəcərin azadlığının beşinci ildönümünü qürurla qeyd etdiyimiz 25 noyabr tarixi ərəfəsində "Biz qayıtdıq, Vətən!" rubrikamızın qonağı olan şair Nüsrət Bağırovla ömrünün ən gözəl çağlarını keçirdiyi ana yurduna xatirələrin izi ilə döndük, torpaq həsrətindən dolanıb keçərək Vətənin azadlığına uzanan yolunda qoşa addımladıq...

1942-ci ildə Sınıqkilsə kəndində dünyaya göz açan Nüsrət Bağırov 1951-ci ildə kənddə 8 illik məktəbə gedib, 9-10-cu sinifləri isə Qılınclı kəndindəki məktəbdə təhsil alıb:

- Dönüb geriyə, Kəlbəcərli günlərimə bir daha nəzər salanda o gözəl dövrlər kino lenti kimi gözlərimin önündən keçir. Kəlbəcərdə sıx məskunlaşma haradasa 400-450 il bundan əvvəl başlayıb. Yadımdadır, kəndimizdə İsa adlı kişi var idi, o, 120 il yaşadı, danışırdı ki, Kəlbəcərin ərazisi vaxtilə keçilməz meşəlik olub. Bu meşələrdə maral, ceyran qoyun sürüsü kimi imiş. Ona da öz babası danışarmış ki, onlar Kəlbəcərə gələndə burada məskunlaşma çox olmayıb. Özləri əkin yeri düzəldiblər, bir müddət maral əti, qozla dolanıblar. Sınıqkilsə kəndinə isə Alxaslı obası Laçından köçüb gəlib yurd salıb. Babam Seyid Məmməd indiki Ermənistan ərazisində yerləşən Dərələyəzdən gəlib əvvəlcə Kəlbəcərin Milli kəndinə, sonra Sınıqkilsə kəndinə köçüb. Sınıqkilsə rayonun ən qabaqcıl kəndlərindən biri idi. Çünki hər planda birinci idi. Qoyun, mal sürüləri, taxıl zəmiləri ad çıxarmışdı. Payızda sapsarı taxıl zəmiləri dəniz kimi dalğalanırdı. Camaat taxılı biçib, dərz bağlayıb xırmanlarda döyürdü.

Kəndin içərisi bütün armud ağacı idi. Yazda bu ağaclar çiçəkləyəndə, sanki hər yerə ətir çilənmiş kimi gözəl rayihə yayılırdı.

Mayın axırında hamı hazırlaşıb Qoç daş yaylağına köçürdü. Bütün uşaqlığım, çilik ağac oynayan vaxtlarım hamısı o yurdda keçib. Ağappaq alaçıqların sıra-sıra düzüldüyü yaylaq nağıllar aləminə bənzəyirdi.

Qış düşəndə, bayırdan əl-ayaq çəkiləndə qadınlar hana ilə məşğul olurdular, bir-birilərinə iməci gedib gəbə toxuyurdular. Rəhmətlik anam Bağdagül, bacılarım Maral, Bulud, Duman da mahir toxucu idilər.

Yaz vaxtı məktəbə gedəndə nərgiz-bənövşədən dəstə tutub partalarımıza düzdüyümüzü xatırlayıram. Savadlı, peşəsini sevən yaxşı müəllimlərimiz var idi. Məktəbi bitirəndən sonra Moskvada üç il hərbi xidmət keçərək Kəlbəcərə döndüm və İstisu Sanatoriyasında anbar müdirinin müavini işləməyə başladım. İstisu ümumittifaq kurortu idi. Bura həm qışda, həm də yayda ölkə daxilindən və xaricindən xeyli sayda insan istirahətə gəlirdi. Xüsusilə yay vaxtı insanlar bura daha çox üz tuturdular. Kimisi evlərdə, kimisi çadırlarda qalırdı. Bağırov sanatoriyası var idi, orada tanınmış şəxslər, elm, mədəniyyət, incəsənət adamları dincəlirdilər. O dövrdə şair Ağa Laçınlı, yazıçı Əli Vəliyevlə görüşüb dostlaşmışdıq...

Sınıqkilsənin də özünəxas sazlı-sözlü ab-havası vardı. Dədə Şəmşirin kəndimizdə toyda olmağını xatırlayıram. Səməd Vurğun deyir: "Azəri yurdunun oğluyam mən də, az-az uydururam, yeri gələndə". Mən də təbim gələndə az-az "uydurur"am. Həmin vaxt Dədə Şəmşirə də şeir yazmışdım.

Şairliyə könül verməyim də elə ən çox Kəlbəcərin havasından, suyundandır, bir də gərək şeirin bünövrəsini biləsən. Aşıq Şəmşirin şəyirdi, əslən göyçəli olan Aşıq Pənah var idi. Çox natiq aşıq idi. Deyim ki, o natiqlikdə aşığa sonradan heç harda rast gəlmədim. Həm saz ifaçısı, həm sinədəftər olması, həm də dil qabiliyyəti yüksək səviyyədə idi. O, adətən, qış aylarında kəndimizə sazbənd dayım Əsədgilə gələrdi. Həmin vaxt camaat işini qurtarandan sonra yığışardı onlara. Uzun qış gecəsində Aşıq Pənah gah nağıl deyərdi, gah dastan danışardı, gah da saz havaları çalıb oxuyardı. Məndə də elə şeirə həvəs oradan yarandı. Bir də, Qılınclıda oxuyanda Başlıbeldən olan Əli adlı ədəbiyyat müəllimimiz şeirə, ədəbiyyata sevgimin səbəbkarıdır. Şeirlərimin çoxu isə təbiətə, vətənə, qəhrəmanlığa həsr olunub.

*Dəli könül qəfəs altda coşarmı,*
*Vurmasa dağların nəfəsi qardaş,*
*Elindən-dilindən ayrı düşənin,*
*Olarmı yazmağa həvəsi, qardaş.*
*"Bir ömürdə iki həyat yaşadım..."*

Tale elə gətirmişdi ki, şair Nüsrət Bağırov bir müddət Kəlbəcəri, Azərbaycanı tərk edib Rusiyaya getmiş, qismətinə qürbətdə vətən dərdi çəkmək düşmüşdü. Qələmə aldığı şeirlərin hamısına torpaq həsrəti çökmüşdü, amma Kəlbəcərin işğal olunması, ata-anasının yurd nisgili ilə bu dünyadan köçməsi ilə şairin də qələmindən qara qanlar axmağa başlamışdı.

Qürbətdə vətən dərdi başqa olur, söyləyən şair Nüsrət Bağırov illər ərzində yaşadığı ağrı-acıları "Bir ömürdə iki həyat yaşadım", deyə ifadə edib.

- Hisslərimi, yaşadıqlarımı şeirlərlə ifadə edir, sanki bununla özümü ovudurdum.

30 illik ayrılıqdan sonra Kəlbəcərin azadlıq xəbərini eşitmək möcüzə idi. Hələ 15-20 il əvvəl şeirlərimdən birində yurdumun sülh yolu ilə azad olunmasını arzu etmişdim:

*Sərhədimiz Sarı yerdə bölünsə,*
*O dağlarda yenə oba salınsa,*
*Yurdum, yuvam sülh yoluyla alınsa,*
*Nəzir-niyaz paylayaram, pirdə mən.*

*Qaçqın sözün tarixlərdən pozaram,*
*Qəbirimi öz əlimlə qazaram,*
*Başdaşıma "VƏTƏN" sözün yazaram,*
*Əgər ölsəm doğulduğum yerdə mən.*

Həqiqətən də elə oldu. Kəlbəcər müharibə yolu ilə deyil, bir güllə atılmadan, bir itki verilmədən azad edildi. Azadlığından sonra ilk dəfə doğulduğum torpağa gedəndə çox qəribə, sevinclə kədərin birgə yaşandığı hisslər keçirdim.

Adamı vahimə bürüyürdü, elə bil dağlar adamın üstünə gəlirdi... Ətrafa boylanırdın, səs-səmir yox, el-oba, qonşu yox... Dağıdılmış, yalnız quruca divarları qalmış evlər adamın ürəyini ağrıdırdı...

Baxırdım... Bu dağıdılmış evlərin birində mən də vaxtilə ata-anam, bacı-qardaşlarımla xoşbəxt günlər yaşamışdım... O günlər bir-bir gözlərimin önündən ötüb keçirdi... Uşaqlıq, gənclik illərim yadıma düşürdü...

Amma bu kədərli anında ayağının altında doğma torpağını hiss etməyin səni toxdadırdı, düşünürdün ki, dağ-dərə, meşə, çay öz yerindədir və sən də artıq buradasan. Əsas olan da budur. Bu yerlərdə əvvəlkindən də gözəl evlər tikiləcək... O evlərdə xoşbəxt ailələr qurulacaq, körpələr doğulacaq... Kəlbəcərin sazlı-sözlü, qonaq-qaralı günləri yenidən başlayacaq.

*Yasəmən QƏNAƏTQIZI,*
*"Azərbaycan"*

# Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında Əməkdaşlıq Proqramı imzalanıb

**Ədliyyə naziri Fərid Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən II Beynəlxalq Ədliyyə Konfransında iştirak edib.**



Konfrans çərçivəsində nazir Fərid Əhmədov Səudiyyə Ərəbistanı Krallığının ədliyyə naziri Vəlid bin Məhəmməd bin Saleh Əl-Samni ilə görüşüb.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı ölkələr arasında dostluq və əməkdaşlıq münasibətlərinin bütün sahələrdə, xüsusilə hüquq və ədliyyə sahəsində inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər həmçinin ədliyyə sahəsində əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi məqsədilə Əməkdaşlıq Proqramı imzalayıblar. Proqram qeydiyyat, notariat və digər ədliyyə orqanlarında görüşlərin təşkili, qabaqcıl təcrübələrin öyrənilməsi, tədris müəssisələri arasında birgə tədbirlərin keçirilməsi və digər sahələri əhatə edir.

Qeyd edək ki, konfrans ümumilikdə 40-dan çox ölkədən yüksəkvəzifəli dövlət rəsmilərinin, beynəlxalq təşkilatların nümayəndələrinin, ekspertlərin və alimlərin iştirakı ilə keçirilib. Tədbirdə ədliyyə və məhkəmə sistemlərində texnologiyaların gələcəyi, rəqəmsal transformasiya və süni intellektin tətbiqi, qanunvericilik sahəsində müasir yanaşmalar, alternativ mübahisələrin həlli mexanizmlərinin təkmilləşdirilməsi və digər aktual mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Baş prokuror Kamran Əliyev Rumıniyanın baş prokuroru ilə görüşüb

**Rumıniyada rəsmi səfərdə olan Azərbaycanın baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rumıniyanın Yüksək Kassasiya və Ədalət Məhkəməsinin baş prokuroru Aleks Florantsa ilə görüşüb. Görüşdə Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov da iştirak edib.**



AZƏRTAC xəbər verir ki, görüş zamanı Azərbaycan ilə Rumıniya arasında dostluq və strateji əməkdaşlıq münasibətlərinin inkişafı, prokurorluq orqanları arasında əməkdaşlıq və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə mövzusu olub.

Baş prokuror Kamran Əliyev qarşı tərəfə dəvətə görə təşəkkürünü çatdırıb, Avropa məkanında Rumıniya ilə Azərbaycan əlaqələrinin dərin tarixi, mədəni və dostluq ənənələrinə söykəndiyini söyləyərək ölkələrimiz arasında münasibətlərin qarşılıqlı faydalı və səmərəli olduğunu bildirib. Baş prokuror Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan söz açıb, cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığın mühüm rolunu vurğulayıb. O, 2024-cü ilin oktyabr ayında Aleks Florantsanın Bakıya səfərini xatırlayaraq səfər zamanı imzalanmış Əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumunu yüksək qiymətləndirib. Kamran Əliyev Rumıniyaya səfərini iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın yeni mərhələsi adlandırıb, qarşı tərəfi Azərbaycana səfərə dəvət edib.

Rumıniyanın Yüksək Kassasiya və Ədalət Məhkəməsinin baş prokuroru Aleks Florantsa qonaqları salamlayaraq Azərbaycan ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini bildirib. O, iki ölkənin prokurorluq orqanları arasında münasibətlərindən söz açaraq təcrübə mübadiləsi, Avropa Şurası və BMT müvafiq qurumları çərçivəsində əməkdaşlıq barədə danışıb.

Daha sonra qonaqlara Rumıniya prokurorluq orqanlarının fəaliyyəti barədə ətraflı məlumat təqdim olunub. Görüşdə tərəflər hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparıblar.

Səfər çərçivəsində nümayəndə heyətimiz həmçinin Rumıniyanın ədliyyə naziri Radu Marinesku ilə görüşüb. Görüşdə dövlətlərimiz arasında mövcud olan strateji tərəfdaşlıq əlaqələri, hüquqi əməkdaşlığın inkişafı və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# COP-a sədrlik Azərbaycandan Braziliyaya təhvil verilib

## Azərbaycan və Braziliya "Bakıdan Beleme Yol Xəritəsi"ni hazırlayaraq təqdim ediblər

**Noyabrın 10-dan 21-dək Braziliyanın Belem şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 30-cu Sessiyası (COP30), noyabrın 6-7-də isə Sessiyanın Liderlər Zirvəsi təşkil olunub. Liderlər Zirvəsində Azərbaycan Respublikasını Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti təmsil edib. Milli Məclisin Sədri Azərbaycan Respublikası adından bəyanat səsləndirib və bir sıra ölkələrin rəhbər şəxsləri ilə ikitərəfli görüşlər keçirib.**




Bu barədə Xarici İşlər Nazirliyi heyətinin COP30-da iştirakına dair mətbuat məlumatında qeyd olunub.

Bildirilib ki, COP30-un rəsmi açılış günündə COP-a sədrlik Azərbaycan Respublikasından Braziliyaya təhvil verilib. COP29-un sədri, Azərbaycan Respublikası Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev COP30-un açılış sessiyasında çıxış edərək ötən il Bakıda keçirilmiş COP29 çərçivəsində əldə edilmiş tarixi nəticələr, eləcə də ölkəmizin COP-a sədrlik etdiyi dövr ərzində həyata keçirdiyi fəaliyyət barədə məlumat verib. M.Babayev həmçinin COP29-un sədri qismində COP30 çərçivəsində təşkil olunmuş bir sıra tədbirlərdə iştirak və çıxış edib, digər nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər keçirib.

COP30-un hər iki seqmentində Xarici İşlər Nazirliyinin (XİN) heyəti də iştirak edib. Konfrans çərçivəsində XİN nümayəndə heyəti konfransın yekununda qəbul edilməsi planlaşdırılan qərarların qəbulu istiqamətində aparılan danışıqlara cəlb edilib və 2 mühüm qərarla bağlı danışıqların aparılması və həmin sənədlərin razılaşdırılması Azərbaycana həvalə olunub.

COP30-un sədri Andre do Laqo tərəfindən Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və Braziliya xarici işlər nazirinin müavini Mauricio Lyrioya verilmiş COP31-in evsahibliyinə namizəd ölkələr olan Türkiyə və Avstraliya arasında danışıqların aparılması səlahiyyəti çərçivəsində, 12 gün ərzində aparılmış intensiv danışıqlardan sonra COP31-in evsahibliyinin Türkiyəyə verilməsi barədə qərar qəbul edilib.

Bununla yanaşı, COP30 çərçivəsində COP sədri tərəfindən Azərbaycan və Norveç nümayəndələrinə Paris Sazişinin Qlobal Qiymətləndirmə İcmalı (Global Stocktake GST) ilə bağlı sənədlərin razılaşdırılması prosesinə onun adından rəhbərlik etmək və dövlətlər arasında danışıqlar aparmaq mandatı verilib. Bu danışıqlara Azərbaycan tərəfdən rəhbərliyi xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Norveç tərəfdən isə iqlim və ətraf mühit naziri Andreas Bjelland Eriksen edib.

Azərbaycan və Norveç tərəfi bütün danışıq qrupları ilə apardığı müzakirələrin nəticəsində mümkün qərar layihələrinə dair tövsiyələrini COP31-in Braziliya Sədrliyinə təqdim edib və bu müzakirələr müvafiq sənədlər üzrə qərarların qəbuluna töhfə verib.

XİN heyəti həmçinin COP29 Sədrinin Fəaliyyət Gündəliyi çərçivəsində irəli sürülmüş sülh və miqrasiya, su, səhiyyə, şəhərlər və iqlim şəffaflığı mövzularında təşəbbüslərlə bağlı 5 tədbir keçirib. Bundan əlavə, Azərbaycan nümayəndə heyəti yenilənən enerji, hidrogen və kənd təsərrüfatı təşəbbüsləri ilə bağlı bir neçə tədbirin keçirilməsinə həmtəşkilatçı qismində dəstək göstərib.

Bununla yanaşı, COP29 çərçivəsində qəbul edilmiş Bakı Maliyyə Hədəfi qərarına uyğun olaraq Azərbaycan və Braziliya tərəfi qlobal iqlim maliyyəsinin 1,3 trilyon ABŞ dollarına yüksəldilməsinə dair "Bakıdan Beleme Yol Xəritəsi"ni hazırlayaraq COP30 çərçivəsində təqdim edib.

# COP30: nəticələr gözləntiləri doğrultmadı

## Belem Bakını yenidən gündəmə gətirdi

**Noyabrın 10-dan 21-dək BMT-nin Braziliyanın Belem şəhərində keçirilən İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP30) bir il əvvəl Azərbaycanda keçirilmiş analoji tədbiri - COP29-u yenidən gündəmə gətirdi. Bu aktuallığı şərtləndirən əsas amil COP30-un həm təşkilatçılıq səviyyəsi, həm konfrans boyu yaranan ardıcıl ciddi problemlər, həm də qeyri-qənaətbəxş nəticələr baxımından COP29-dan çox-çox geri qalmasıdır.**




### COP30 nə ilə yadda qalacaq

Azərbaycanın evsahibliyi etdiyi COP29 təşkilatçılıq standartlarına, iştirakçıların sayına ən mühümü isə qəbul olunmuş tarixi qərarlara görə bu konfranslar tarixinin ən möhtəşəm tədbirlərindən biri və bəlkə də ən birincisi idi. Əfsuslar olsun ki, eyni fikri COP30 haqqında demək mümkün deyil. Çünki builki tədbir heç bir müsbət cəhəti ilə yadda qalmayacaq.

Ölkəmizin səyləri sayəsində COP29-un nəticələri bütün dünya üçün möhtəşəm idi. Onun ən mühüm göstəricilərindən biri kimi COP29 Sədrliyi tərəfindən qəbul olunan Bakı Maliyyə Hədəfi sənədi xüsusi qeyd olunmalıdır. Həmin sənəd 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə iqlim mübarizəsi və uyğunlaşma üçün hər il 1,3 trilyon dollar maliyyə axınının təmin edilməsini nəzərdə tutur. Bu hədəfin əsasını isə donorların ilk mərhələdə icbari şəkildə öhdəlik götürdüyü 300 milyard dollarlıq ictimai maliyyə təşkil edir. Bu qərar Bakıda formalaşan qlobal konsensusun və COP29-un real nəticəyönümlü xarakterinin növbəti sübutu oldu. Məhz bu səbəbdən COP29 real qərarların qəbul edildiyi, qlobal konsensusun formalaşdığı və beynəlxalq gündəmin yönləndirildiyi əsas platformaya çevrildi.

COP29-da karbon kreditləri və karbon ticarəti üçün Paris Sazişinin 6-cı maddəsinin müəyyənləşdirdiyi qaydalar üzrə razılaşma əldə olundu. Bu da beynəlxalq karbon bazarının "tam əməliyyatçılıq" mərhələsinə keçməsi üçün son dərəcə əhəmiyyətlidir. Eyni zamanda İtki və Zərər Fondu üçün mexanizmlər razılaşdırıldı və fondun maliyyələşdirilməsi prosesinin başlanması üçün müəyyən planlaşdırmalar aparıldı. COP29 zamanı Qlobal Adaptasiya Məqsədi ilə bağlı strategiyalar da qəbul edildi, adaptasiya üzrə yüksəksəviyyəli dialoq quruldu.

Habelə gender siyasətinin yenilənməsi istiqamətində çox ciddi nəticələr əldə edildi, Lima İş Proqramı yenidən təsdiqləndi, COP29-dan sonra gələcək 10 il üçün gender əsaslı iqlim siyasətlərinə diqqət verilməsi qərara alındı. "Gender + iqlim" dəyişməsi sahəsində hesabatlılıq və texniki dəstək məsələləri gündəmə gətirildi.

COP29-da su ilə bağlı irəli sürülən təşəbbüslər də son dərəcə əhəmiyyətli idi. Belə ki, tədbir çərçivəsində "İqlim fəaliyyəti üçün su üzrə Bakı Bəyannaməsi" qəbul edildi. Su resurslarının iqlim siyasətinə inteqrasiyası gücləndirildi. Səhiyyə və iqlim fəaliyyətinin birləşdirilməsi məqsədilə müvafiq koalisiya yaradıldı. Bu, iqlim siyasətində sağlamlıq aspektini daha ciddi şəkildə nəzərə almaqdan ötrü strateji bir addım idi.

Konfransda "Bakı Qlobal İqlim Şəffaflığı Platforması"nın yaradılması da planlaşdırıldı ki, bu platforma ölkələr arasında iqlimlə bağlı məlumatların paylaşılması, təcrübə mübadiləsi və hesabatlılığın artırılması üçün nəzərdə tutulub. Həmçinin inkişaf etməkdə olan ölkələrə müəyyən şəffaflıq hesabat icmallarının hazırlanması üçün maliyyə və texniki dəstəyin verilməsi də qərara alındı.

Möhtəşəm tədbirin əsas prinsiplərindən biri "sabitlik + aşağı karbon izi" idi. Məsələn, konfrans məkanlarında bərpaolunan enerji mənbələri və karbon emissiyasını azaltmağa yönəlmiş texnologiyalardan istifadə olunurdu.

Ekosistem və inklüziv idarəetmə modelinə gəldikdə isə təbiətə əsaslanan həllər, biomüxtəliflik, ekosistem bərpası və karbon bazarlarının şəffaflaşdırılması üzrə sənədlər qəbul edildi. Gənclərin, QHT-lərin və özəl sektorun geniş iştirakı isə COP29-u demokratik, açıq və çoxsəsli müzakirə platformasına çevirdi. Bir sözlə, COP29 qlobal iqlim siyasətində peşəkarlıq, inklüzivlik və nəticəyönümlülük baxımından yeni, dayanıqlı standart təqdim etdi.

### COP30-a ümidlər çox idi

COP29-un dünya üçün iqtisadi və siyasi faydaları əhəmiyyətli oldu. O, iqlim maliyyəsi strukturunun güclənməsinə, "yaşıl iqtisadiyyat"ın inkişafına və beynəlxalq diplomatiyada iqlim mövzusunun daha da ön plana çıxmasına töhfə verdi. Eyni zamanda riskləri idarə etmək və razılaşmaları real əməli addımlarla əlaqələndirməyin vacibliyini gündəmə gətirdi ki, bu faydalar uzunmüddətli və davamlı olsun.

Əldə edilmiş tarixi nəticələrlə, o cümlədən iqlim maliyyəsi sahəsində kəmiyyətcə ciddi bir hədəfin qoyulması, karbon bazarlarının qaydalarının tamamlanması, adaptasiya mexanizmləri və şəffaflıq strukturunun gücləndirilməsi yönündə irəliləyişlər kimi parlaq nailiyyətlərlə Azərbaycan estafeti Braziliyaya ötürdü. Bəzi kritik sahələrdə, o cümlədən gender, itki-zərər, ambisiyalı emissiya hədəfləri ilə bağlı tam razılaşmaların əldə edilməsi baxımından COP30-dan gözləntilər çox böyük idi. Bu tədbir Azərbaycanın bir il əvvəl müəyyən etdiyi təşkilatçılıq standartlarını da möhkəmləndirərək bir pillə yüksəltməli idi.

Əfsuslar olsun ki, bu gözləntilər özünü doğrultmadı. COP30-da, ilk növbədə iştirakçılıq və bərabərlik problemləri üzə çıxdı. Məlum oldu ki, hotel qiymətləri həddən artıq yüksəkdir və üstəlik, Belem şəhərinin çox məhdud qonaqlama infrastrukturu var. Bu xüsusilə inkişaf etməkdə olan ölkələrdən gəlmiş nümayəndə heyətləri üçün ciddi çətinlik yaratdı, bəzi ölkələr nümayəndə heyətlərinin sayını azaltmaq məcburiyyətində qaldı. Beləliklə, konfransın inklüzivliyi üçün böyük risklər yarandı, çünki iqlim məsələlərində ölkələrin maddi imkanlarından, əhalisinin sosial durumundan asılı olmayaraq səs hüququ bərabər olmalıdır. Ekspertlərin dediklərinə görə konfransın planlaşdırılması mərhələsindən etibarən Braziliyada davam edən siyasi çaxnaşmalar, hökumətin informasiya müharibəsinə meyilli davranışı və bir sıra təhlükəsizlik problemləri tədbirin təşkilati hazırlığının zəifliyini ortaya çıxardı. Üstəlik, Belemdə gündəliyin boş olması, dünya liderlərinin konfransa maraq göstərməməsi və əvvəlcədən aparılan məzmunlu müzakirələrin yoxluğu COP30-un nəticələrini kölgədə qoydu.

COP30-da logistika və infrastrukturla bağlı da böyük çətinliklər özünü göstərdi. Tədbir iştirakçı sayına rəğmən, məkan və mənbələrin məhdudluğu böyük çətinliklər doğurdu. Müzakirə zonalarında, "Blue Zone"da giriş-çıxış, virtual bələdçilik, havalandırma və s. ilə bağlı əsaslı texniki problemlər də özünü göstərdi. Hətta konfrans mərkəzinin pavilyonlarından birində yanğın baş verdi, iştirakçılar təxliyə edildi.

Konfransda maliyyə vəsaitləri ilə bağlı da ciddi fikir ayrılıqları yarandı. COP30-da maliyyələşdirmə mövzusu, o cümlədən "adaptasiya", "itki və zərər", az inkişaf etmiş ölkələr üçün maliyyə məsələləri müzakirələrin mərkəzində idi. Sadə dildə desək, COP29-da Azərbaycanın qətiyyəti, ardıcıl səyləri nəticəsində formalaşdırılmış maliyyə mənbələrinin hansı əməli işlərə, real layihələrə yönəldiləcəyi sualına COP30-da konkret cavablar tapılmalı idi. Amma Qərb ölkələrindən vəsaitlərin çatdırılması məsələsində narazılıqlar özünü göstərdi. Məsələn, bəzi mənbələr zəngin ölkələrin öhdəliklərini yerinə yetirməkdə gecikdiklərini, yaxud kifayət qədər maliyyə ayırmadıqlarını bildirdilər. 2035-ci ilə qədər müəyyən edilmiş "yeni kəmiyyətli hədəf" olsa da, bu hədəfə çatmaq üçün kifayət qədər maliyyə vəsaiti təmin etməyin çətinliyi göründü, əfsuslar olsun ki, COP30 bu cəhətdən Azərbaycanın yaratdığı tarixi nailiyyəti qoruyaraq möhkəmləndirə bilmədi.

COP30-da fosil yanacaqların tədrici mərhələsi ilə bağlı müzakirələr getdi, bununla belə razılaşma mətnində bu məsələ üzrə kifayət qədər güclü öhdəlik götürülmədi və bu məqam da haqlı olaraq tənqid edildi. Bəzi nümayəndə heyətləri "1,5°C hədəfi artıq geridədir" kimi fikirlər irəli sürdülər, belə qənaət hasil oldu ki, bununla bağlı elmi müddəalara müəyyən etinasızlıq yaranıb. Ümumi "emissiya kəsilməsi" öhdəliklərinin də hələ kifayət qədər ambisiyalı olmadığı nəzərə çarpdı, hazır hədəflər temperatur qızmasının 1,5 °C limitinə çatmasına zəmanət vermədi.

COP30-da gender və bərabərlik məsələləri ilə bağlı da müəyyən problemlər yarandı. Belə ki, iqlim siyasətində gender aspektlərinin hesablanması konfransda ciddi etirazlarla üzləşdi. Cins həssaslığı göstəriciləri, dataların toplanması, qadınların qeyri-ödənişli işi və s. mövzular ətrafında ciddi mübahisələr ortaya çıxdı. Bu gərginliklər göstərdi ki, bəzi ölkələr gender əsaslı iqlim strategiyaları hazırlamağa hələ hazır deyillər və ya bu sahədə resurs çatışmazlığı var.

İnsan haqları və yerli icmaların iştirakı ilə bağlı məsələlər də problemsiz ötüşmədi. Yerli icmalar COP30-da öz tələbləri ilə çıxış edərək konfransa girişlər zamanı onlara müəyyən əngəllər yaratdılar. Bununla bağlı bəzi rəylər irəli sürüldü ki, iqlim danışıqlarında yerli icmalar yetərincə səs sahibi deyillər, iqlim dəyişməsinin təsirinə birbaşa məruz qalsalar da, onların vəziyyəti dəyişmək imkanları məhduddur. Bundan başqa, toplantılarda sərbəst toplaşmaq, söz azadlığı kimi insan haqları məsələləri ilə bağlı da mühüm problemlər özünü göstərdi.

### Böyük bir fürsət əldən çıxdı

Konfransda habelə siyasi güc balansı da problem yaratdı: bəzi böyük emissiya verən ölkələr daha sərt hədəfləri qəbul etməkdən boyun qaçırdılar. COP30 rəhbərliyi bildirdi ki, yeni bir inkar forması ilə üzləşiblər. Burada, inkar elmi deyil, iqlim siyasətinin iqtisadi dəyişiklik yaradacağından narahatlıqdır.

Nəticələri ümumiləşdirsək deyə bilərik ki, COP30-a olan böyük gözləntilər həyata keçmədi. Dünyada iqlim böhranını həll etmək üçün bu vacib fürsət əldən çıxdı. Əvəzində, COP30 struktur problemləri, qeyri-bərabərlik, maliyyə çatışmazlığı və siyasi toqquşmalarla gündəmdə oldu. Bu problemlər tədbirin effektivliyinə xələl gətirdi və iqlim hədəflərinə çatmaq üçün real addımların atılmasını çətinləşdirdi.

Burada COP29 və COP30-un müqayisəsi aydın şəkildə göstərir ki, Bakı qlobal iqlim diplomatiyasında yüksəksəviyyəli təşkilatçılığın, siyasi sabitliyin və nəticəyönümlü idarəetmənin nümunəsini təqdim etmişdi. COP29-un nəticələri qlobal iqlim prosesinin gələcək mərhələləri üçün yol xəritəsi rolunu oynaya biləcək səviyyədə idi. COP30 isə hazırlıqsızlıq, zəif diplomatik iştirak və təşkilati problemlər səbəbindən iqlim diplomatiyasının ən uğursuz tədbirlərindən biri kimi yadda qaldı.

Bu da onu göstərdi ki, Azərbaycanın uğurlarını, müəyyənləşdirdiyi təşkilatçılıq standartlarını, əldə etdiyi nəticələri təkrarlamaq üçün ciddi hazırlıq, istənilən layihəyə son dərəcə məsuliyyətli yanaşma, bu cür qlobal fürsətlərlə bəşəriyyət üçün fayda yaratmaq əzmi, ən mühümü isə lider qətiyyəti olmalıdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva Lənkəranda fermer təsərrüfatı ilə tanış olublar

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva Lənkəranda "Citrus Valley" fermer təsərrüfatına baxış keçiriblər.**





AZƏRTAC xəbər verir ki, təsərrüfatın sahibi Rəftarə Şükürova Azərbaycanın ilk aqro-qastro-ekoturizm məkanlarından biri olan "Citrus Valley"in yalnız 2024-cü il ərzində 15 mindən çox turist qəbul etdiyini deyib. Bildirib ki, burada qonaqlar üçün kənd təsərrüfatı proseslərini, xüsusilə meyvə yığımını izləmək, yerli mətbəxin təamlarını dadmaq və onların hazırlanmasını öyrənmək üçün ustad dərslərində iştirak etmək, eləcə də ətraf mühitlə yaxından tanış olmaq imkanı mövcuddur.

Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva fermer təsərrüfatında yaradılan şəraitlə yaxından tanış olub, məhsullara baxış keçirib, burada çalışan əməkdaşlarla səmimi söhbət edib və onlara fəaliyyətlərində uğurlar arzulayıblar. Sonda təsərrüfatın kollektivi ilə xatirə fotoşəkilləri çəkdirilib.

# Leyla Əliyeva və Alena Əliyeva Lənkəran Dövlət Universitetinin nəzdində yaradılmış Baytarlıq Klinikası ilə tanış olublar





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Alena Əliyeva Lənkəran Dövlət Universitetinin nəzdində yaradılmış Baytarlıq Klinikası ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, yeni istifadəyə verilmiş klinikada heyvanların müayinəsi və müalicəsi üçün nəzərdə tutulmuş kabinetlər, laboratoriyalar və müasir tibbi avadanlıqlar barədə məlumat verilib. Qeyd edilib ki, klinika həm regionda ev və çöl (vəhşi) heyvanlarının sağlamlığının qorunmasına xidmət edir, həm də universitetin Baytarlıq ixtisasında təhsil alan tələbələr üçün praktiki vərdişlərin formalaşdırılması baxımından mühüm tədris bazası rolunu oynayır. Leyla Əliyeva bu ixtisasda təhsil alan tələbələr və müəllim heyəti ilə görüşüb, onların fikirlərini dinləyib, baytarlıq sahəsində kadr hazırlığı istiqamətində həyata keçirilən işlərlə yaxından tanış olub.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Qaradağda yeni parkın açılışında iştirak edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Qaradağ rayonunun Qobustan qəsəbəsində salınmış yeni parkın açılışında iştirak edib.**





AZƏRTAC xəbər verir ki, Bakı-Qazax magistral yolunun 60-cı kilometrliyində, yaşayış evlərinin qarşısında yerləşən yeni istirahət məkanının ümumi sahəsi 10 min 350 kvadratmetrdir. Qobustan qəsəbəsi sakinləri üçün sağlam və keyfiyyətli istirahət məkanı formalaşdırmaq, yaşayış mühitini daha da yaxşılaşdırmaq məqsədilə parkda geniş abadlaşdırma işləri aparılıb. Yaşıllaşdırma işləri çərçivəsində park ərazisində müxtəlif növ ağaclar, kol bitkiləri və güllər əkilib, qazon salınıb. Sakinlərin və xüsusən də uşaqların rahatlığı üçün ərazidə söhbətgahlar, uşaq oyun meydançaları quraşdırılıb, həmçinin işıq dirəkləri, oturacaqlar və zibil qabları yerləşdirilib. Açılış tədbiri çərçivəsində xüsusi ağacəkmə aksiyası keçirilib. Leyla Əliyeva və IDEA könüllülərinin iştirakı ilə parkın müxtəlif hissələrində sərv ağacları əkilib.

Daha sonra Leyla Əliyeva parkdakı uşaqlara müxtəlif oyuncaqlar hədiyyə edib, onlarla birlikdə xatirə şəkilləri çəkdirib.

# *İlyas DEMİRCİ:* "Zəngəzur dəhlizi türk dünyasını birləşdirən geosiyasi və geoiqtisadi körpüdür"

**"Biz Azərbaycanı özümüzdən ayrı görmürük. Onu yalnız qardaş ölkə deyil, eyni canın və eyni taleyin parçası hesab edirik. Azərbaycanın inkişafı, güclənməsi və regional layihələrdə aparıcı mövqeyə yüksəlməsi bizim üçün strateji və mənəvi əhəmiyyət daşıyır".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Türk Dünyası Mühəndislər və Memarlar Birliyinin baş katibi İlyas Demirci söyləyib.

O bildirib ki, Zəngəzur dəhlizi sadəcə, nəqliyyat xətti deyil, türk dünyasını birləşdirən geosiyasi və geoiqtisadi körpüdür. Bu dəhliz Mərkəzi Asiyadan Anadoluya, Xəzərdən Aralıq dənizinə uzanan inteqrasiya xəttinin əsas sütunlarından biridir. Zəngəzur dəhlizi həm Azərbaycanın beynəlxalq tranzit imkanlarını genişləndirəcək, həm də regionda davamlı sülhə və iqtisadi əməkdaşlığa töhfə verəcək strateji layihədir.

"Şübhəsiz ki, biz bu dəhlizin tam şəkildə layihələndirilməsini və inşa olunmasını arzulayırıq. Beynəlxalq siyasi proseslər və böyük güclərin mövqeləri nəzərə alınsa da, nəticə etibarilə bu layihənin həm Azərbaycan, həm də Türkiyə üçün uzunmüddətli fayda verəcəyinə inanırıq.

Bu kontekstdə Türk Dövlətləri Təşkilatı, üzv ölkələr, vətəndaş cəmiyyətləri və beynəlxalq qurumların bu təşəbbüsə verdiyi dəstəyin regionun gələcəyi üçün mühüm rol oynayacağına ümid edirik. Biz Zəngəzur dəhlizini yalnız bir infrastruktur layihəsi deyil, türk dünyasının birliyinin və ortaq gələcəyinin simvolu kimi qiymətləndiririk.

Bu mövzuda bütün imkanlarımızla Azərbaycanın yanında olduğumuzu, hər cür texniki və institusional dəstəyə hazır olduğumuzu bir daha bəyan edirik",- deyə İ.Demirci əlavə edib.

# Elm və təhsil naziri beşinci "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb

**Elm və təhsil naziri Emin Əmrullayev beşinci "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirib. Görüşdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva və gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev iştirak ediblər.**



Elm və Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə qaliblərin fəaliyyət istiqamətləri, fərdi inkişaf planlarının icrası, həmçinin dövlət idarəçiliyində yeni nəsil idarəçilərin roluna dair müzakirələr aparılıb.

Görüş zamanı qaliblərin həyata keçirdikləri layihələr, iştirak etdikləri təlimlər, əldə etdikləri bilik və bacarıqların tətbiqi üzrə görülən işlər müzakirə olunub. Nazir qaliblərlə fikir mübadiləsi apararaq onların idarəetmə, liderlik və innovasiya sahəsindəki suallarını cavablandırıb. O, çıxışında "Yüksəliş" müsabiqəsinin ölkənin insan kapitalının gücləndirilməsində mühüm rol oynadığını qeyd edib.

Görüş zamanı qaliblərin fərdi inkişaf planlarının icrasına dəstək mexanizmləri, müxtəlif dövlət qurumlarında təcrübə proqramları, həmçinin idarəetmədə çevik qərarvermə, strategiya qurma və dəyişikliklərin idarə edilməsi kimi mövzularda təcrübə mübadiləsi aparılıb.

Sonda qaliblər göstərilən diqqət və yaradılan imkanlara görə minnətdarlıqlarını bildirərək əldə etdikləri bilik və bacarıqları fəaliyyətdə tətbiq etməyə davam edəcəklərini vurğulayıblar.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ 2025-ci ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 3, 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 4 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 5, 12, 26 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 18 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 19 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 22 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 23 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 24 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 26 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 26 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 26 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Gələn ilin büdcəsi uğur vəd edir

**Hər bir ölkənin dövlət büdcəsi onun iqtisadi inkişafının təməl daşı və hökumətin iqtisadi siyasətinin əsas göstəricisidir. O yalnız maliyyə resurslarının idarə olunması ilə bağlı bir sənəd olmaqla kifayətlənmir, eyni zamanda dövlətin gələcək iqtisadi strateji planlarını, prioritetlərini və xalqın rifahını təmin etmək üçün həyata keçirəcəyi tədbirləri əks etdirən iqtisadi konsepsiyadır. Büdcə hökumətin iqtisadi siyasətini, sosial proqramlarını və dövlətin inkişaf strategiyasını həyata keçirmək üçün ayrılan maliyyə mənbəyidir.**

Müstəqillik tarixinin qürurlu illərini yaşayan, son 5 ildə qlobal nüfuzu, iqtisadi qüdrəti və hərbi gücü daha da artan Azərbaycan 2025-ci ilə artıq uğurla yekun vurmaqdadır. Hər ilin sonunda Milli Məclis növbəti ilin dövlət büdcə zərfinə aid qanun layihələrini müzakirəyə çıxararaq təsdiqləyir və hökumətin növbəti ildəki əsas hədəfləri bəlli olur.

Əlbəttə ki, Azərbaycan Respublikasının dövlət büdcəsi ölkə vətəndaşlarının həyat səviyyəsini yüksəltmək və sosial-iqtisadi inkişafı təmin etmək məqsədini güdür. 2025-ci ilin iqtisadi göstəricilərinə əsaslanaraq deyə bilərik ki, 2026-cı ildə də Azərbaycan bütün sahələrdə uğurlu nəticələr əldə edəcək.

## 22 ildə iqtisadi yüksəliş dinamikasının bariz təcəssümü

Ötən həftə Milli Məclisdə "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə edilərək qəbul olundu. Təqdimat zamanı hökumət üzvlərinin ortaya qoyduqları real iqtisadi göstəricilərə və maliyyə əsaslandırmalarına istinadən demək olar ki, növbəti ildə də dövlət büdcəsindən səmərəli istifadə olunacaq.

Gələn il üçün dövlət büdcəsinin gəlirləri 38,6 milyard manat və xərcləri 41,7 milyard manat məbləğində proqnozlaşdırılıb. Bu, suverenliyini tam təmin etmiş Azərbaycanın ən böyük büdcəsidir. Nəzərə almalıyıq ki, bu göstərici son 22 ildə əldə edilmiş iqtisadi uğurların nəticəsidir. 2003-cü ildə dövlət büdcəsinin gəlirləri 2 milyard 220,9 milyon manat, valyuta ehtiyatları 1,6 milyard dollar olan ölkənin bu gün 40 milyard manata yüksələn büdcəsi, 82,5 milyard dollar olan valyuta ehtiyatları, son 22 ildəki yüksəlişin real təcəssümüdür.

Ümumiyyətlə, büdcənin göstəriciləri həm də dövlətin sosial-iqtisadi yüksəlişini və bu inkişafın dinamikasını əks etdirir. Azərbaycanın dövlət büdcəsi hər il inkişaf tempinə uyğun olaraq yüksəlib və Cənubi Qafqazda büdcəsinin gəlir və xərclərinin yüksəkliyinə görə dövlətimiz liderdir.

Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyası ötən dövrdə ölkəmizin makroiqtisadi sabitliyini qorumağa imkan verib.

Milli Məclisin Sədri Sahibə Qafarovanın büdcə müzakirələri zamanı söylədiyi kimi, mürəkkəb beynəlxalq konyunkturaya baxmayaraq, iqtisadiyyatımızın dayanıqlılığı və ardıcıl inkişafı təmin edilib. Cənubi Qafqaz bölgəsinin lider dövləti kimi Azərbaycanın iqtisadi müstəqilliyi möhkəmlənib. Qeyri-neft sektorunun artımı, ixrac potensialının genişlənməsi, energetika sisteminin fəal surətdə modernləşdirilməsi və "yaşıl enerji" layihələrinə yeni sərmayələrin qoyulması təsdiq edir ki, iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla davam etdirilir.

Sözü imzası qədər keçərli olan, nəyi nə zaman edəcəyini hər kəsdən yaxşı bilən möhtərəm Prezident İlham Əliyev hələ illər öncə vurğulayırdı ki, iqtisadiyyatımız nə qədər güclü olsa, siyasi addımlarımız da o qədər cəsarətli və uğurlu olacaq. İqtisadi müstəqillik siyasi müstəqillik üçün əsas şərtdir. Son illərdə dünya iqtisadiyyatında yaşanan qlobal problemlər, siyasi gərginliklər, hərbi münaqişələr, müharibələr, toqquşmalar bir daha onu deməyə əsas yaratdı ki, istənilən sahədə qalib gəlməyin əsas şərtindən biri iqtisadi müstəqillikdir. İqtisadi güc bütün sahələrdə qalib gəlməyin bazisidir.

Bütün bunlar Azərbaycanın dövlət başçısının nə qədər uzaqgörən diplomat olduğunu söyləməyə bir daha əsas verir. Prezident İlham Əliyev təkcə Azərbaycan və Qafqazda deyil, dünya miqyasında qəbul olunan, qlobal liderliyi etiraf edilən dövlət başçısıdır. Bu gün dünyada elə bir beynəlxalq toplantı, forum, konfrans yoxdur ki, Azərbaycan Prezidenti oraya dəvət edilməsin və müasir çağırışlar, qlobal problemlərin həlli yolları ilə bağlı öz təkliflərini səsləndirməsin. Bu da əlbəttə ki, ilk növbədə, cənab İlham Əliyevə göstərilən böyük etimad və diqqət, Azərbaycanın artan beynəlxalq nüfuzunun bariz təcəssümüdür.

## Sosial dövlətin sosialyönümlü büdcəsi

Bu bir həqiqətdir ki, Azərbaycanın dövlət büdcəsi bütün dövrlərdə sosialyönümlü olub. Çünki ölkəmizdə sosial sahəyə hər zaman böyük diqqət yetirilir. İnsanların rifah halının daha da yaxşılaşdırılması, əhalinin gəlirlərinin artırılması üçün lazımi tədbirlər görülür.

Qlobal çağırışların gücləndiyi şəraitdə Azərbaycan nəinki maliyyə intizamını qoruyub saxlayıb, həm də büdcə gəlirlərinin artımını, büdcə xərclərinin sosial yönümünü və maliyyə ehtiyatlarının möhkəmlənməsini təmin edib.

Gələn ilin büdcə zərfinin əsas xüsusiyyətlərindən biri, ənənəvi olaraq, onun sosial xarakteri ilə bağlıdır. Belə ki, sosialyönümlü xərclər 17,1 milyard manat olmaqla dövlət büdcəsi xərclərinin 41 faizini təşkil edəcək.

Ümumilikdə götürdükdə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən xərclər üçün gələn ilin dövlət büdcəsində 4,9 milyard manat vəsait nəzərdə tutulur. Bu, 2025-ci ilə nisbətən 121 milyon manat, 2024-ci ilin icra göstəricisinə nisbətən isə 722 milyon manat çoxdur. Cari illə müqayisədə 151 milyon manat artımla proqnozlaşdırılan sosial müavinətlərə, təqaüdlərə və digər sosial ödənişlərə 2,8 milyard manat vəsait sərf ediləcək. Keçmiş məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər növbəti ildə 285 milyon manat proqnozlaşdırılır.

Prezident İlham Əliyevin sosial sahədə siyasətinin mərkəzində insan amili durur. Bunun nəticəsidir ki, son illərdə sosial müdafiə sistemində ardıcıl və dərin islahatlar həyata keçirilir. 2018-2025-ci illər ərzində həyata keçirilən 5 böyük sosial islahat paketi 4 milyon vətəndaşı əhatə edib və ayrılan illik əlavə vəsait 7 milyard 600 milyon manat təşkil edib. Bu dövrdə minimum əməkhaqqı 3,1 dəfə, minimum pensiya 2,9 dəfə, orta aylıq əməkhaqqı 2 dəfə, orta aylıq pensiya 2,6 dəfə artıb. Dövlət sosial müavinət və təqaüd ödənişləri 5 dəfə artaraq 1,9 milyard manata yüksəlib. Ünvanlı sosial yardımın orta məbləği 2,5 dəfə, yaşayış minimumu 65 faiz, ehtiyac meyarı isə 2,2 dəfə artırılıb. Ötən müddət ərzində əmək müqavilələrinin sayı 41 faiz artaraq 1 milyon 851 minə çatıb. Ölkə üzrə əməkhaqqı fondu 3,2 dəfə artıb. Bunun da böyük hissəsi özəl sektorun payına düşüb.

Postmüharibə dövründə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi diqqət mərkəzində olub, 132 min unikal şəxsə 400 mindən çox xidmət göstərilib. Bu kateqoriyadan olan şəxslər üçün nəzərdə tutulan müavinət və təqaüdlər orta hesabla 2 dəfədən çox artırılıb. Bu dövr ərzində şəhid ailələri, müharibə əlilləri və həssas təbəqədən olan digər şəxslərə 6 min 800 mənzil verilib, 28 min nəfər məşğulluq tədbirlərinə cəlb edilib, 11 min nəfərə 89 min sosial-psixoloji dəstək və reabilitasiya xidmətləri göstərilib.

2026-cı ilin dövlət büdcəsindən səhiyyə xərcləri üçün 2 milyard manat vəsait ayrılacaq ki, bu da 2024-cü ilin icra göstəricisinə nisbətən 11 faiz çoxdur. Bütövlükdə, gələn il üçün icmal büdcədən səhiyyə xərclərinə cəmi 3,7 milyard manat vəsait ayrılacaq.

Təhsil və elm xərclərinə 5,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Növbəti ildə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə təhsil alanların sayı 150 min nəfərə, təqaüd alanların sayı isə 121 min nəfərə çatacaq.



Gələn il üçün əlilliyi olan, valideyn himayəsindən məhrum olmuş, şəhid ailələri və müharibə veteranı statusu almış güzəştli kateqoriyaya aid olan 18,5 min tələbənin təhsil və təqaüd xərcləri üçün 42 milyon manat vəsait proqnozlaşdırılır.

Prezident İlham Əliyevin müəllifi olduğu "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qeyd edilir ki, davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət göstərir, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq, iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır.

Əminliklə deyə bilərik ki, əvvəlki illərdə olduğu kimi, 2026-cı ildə də sosial siyasət prioritet olacaq.

## Müdafiə və milli təhlükəsizlik məsələləri əsas prioritet kimi müəyyən edilib

Növbəti ilin büdcə zərfi həm də təhlükəsizlik sənədidir. Layihədə müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 8,7 milyard manatın ayrılması nəzərdə tutulur.

Təbii ki, dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərclərinin müəyyən edilməsi Azərbaycanın milli təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından zərurətdir. Bu rəqəm ölkə təhlükəsizliyinin təmin olunması, ordunun modernləşdirilməsi və yeni geosiyasi reallıqlara uyğun müdafiə konsepsiyasının gücləndirilməsi üçün mühüm maliyyə əsasını şərtləndirir.

5 il öncə İkinci Qarabağ savaşında şanlı Zəfərin əldə edilməsinin əsas səbəblərindən biri Azərbaycanın dünyanın ən güclü ordularından birinə sahib olması idi. Müzəffər Ali Baş Komandan İlham Əliyev siyasi hakimiyyətinin 17-ci ilində elə bir silahlı birləşmələr formalaşdırmışdı ki, həmin hərbi güc istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir idi. Azərbaycan bu savaşla hərb tarixində ilk smart müharibə aparan dövlət kimi dünyada tanındı.

Lakin bu gün regionda yeni reallıqlar yaranıb və onun əsasını sülh təşkil edir. Yəni Cənubi Qafqazdakı sülhün təminatçısı Azərbaycandır. Ona görə də təhlükəsizlik sahəsində hər hansı boşluğun hiss edilməsi dərhal ölkəmizə qarşı təzyiqlərin artmasına gətirib çıxara bilər.

Məhz buna görə 2026-cı il büdcəsində müdafiə və milli təhlükəsizlik məsələləri əsas prioritet kimi müəyyən edilib və 5 milyard manat həcmində vəsait müdafiə təyinatlı layihələrin icrasına yönəldilib. Bu vəsait ordunun təchizatının, hərbi sənayenin modernləşdirilməsinin və yeni hərbi-texnoloji imkanların tətbiqinin genişləndirilməsinə xidmət edir.

## Böyük qayıdış proqramı uğurla davam etdiriləcək

Növbəti ildə əsas hədəflərdən biri işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla icrasıdır. Növbəti ildə büdcə xərclərinin 8,4 faizinə bərabər, yaxud 3,5 milyard manat məbləğində vəsaitin məhz bu istiqamətlərə xərclənəcəyi nəzərdə tutulur.

2020-ci ilin sonundan etibarən yenidənqurma və quruculuq işlərinə hər il dövlət büdcəsinin imkanları səfərbər edilərək cari ilin əvvəlinə 17,6 milyard manat vəsait xərclənib. Bu ilin sonuna isə bu xərclərin 22 milyard manata çatması gözlənilir. 2026-cı ilin büdcə layihəsi və sonrakı üç il üzrə xərclər çərçivəsi də, ilk növbədə, bu istiqamət üzrə maliyyə təminatının yaradılmasını nəzərdə tutur.

Azərbaycanın 2025-ci il və ortamüddətli dövrdə büdcə siyasəti qarşısında duran prioritet istiqamətlərindən biri də cənab Prezidentin 5 iyun 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyən olunmuş tədbirlərin icrasından ibarətdir. Məhz bu məqsədlə gələn ilin dövlət büdcəsi layihəsində Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir və xərcləri bərabər olmaqla 483 milyon manat məbləğində nəzərdə tutulub.

Göründüyü kimi, büdcə zərfinə daxil olan məsələlərin müzakirəsi zamanı səslənən rəqəmlərə əsaslanaraq bir daha deyə bilərik ki, 2026-cı ilin dövlət büdcəsi ölkəmizin sosial-iqtisadi inkişaf dinamikasını əks etdirir və iqtisadi sabitliyin daha da möhkəmləndirilməsinə, insanların sosial müdafiəsinin gücləndirilməsinə yönəlib.

## Daha möhtəşəm gələcəyə doğru...

Azərbaycan Respublikası son 22 ildə böyük inkişaf yolu keçib və bu dövrün əsas arxitektoru Prezident İlham Əliyevdir. Dövlət başçısının həyata keçirildiyi müstəqil siyasət Azərbaycanı dünyada yalnız iqtisadi və siyasi sahələrdə deyil, həm də beynəlxalq aləmdə möhkəm mövqe tutan qüdrətli dövlətə çevirməyə müvəffəq olub.

2026-cı il üçün dövlət büdcəsi qəbul edildikdən sonra, ölkənin iqtisadi inkişafına və sosial rifahına dair gözləntilər daha da artıb. Builki büdcənin əsas hədəfləri, ölkənin iqtisadiyyatı üçün dayanıqlı və uzunmüddətli inkişafı təmin etmək, sosial sahələri gücləndirmək və infrastruktur layihələrinin icrasını sürətləndirməkdir. 2026-cı il üçün dövlət büdcəsinin ümumi həcmi, iqtisadi artım və gələcək perspektivlər baxımından ciddi əhəmiyyət kəsb edir.

Azərbaycanın 2026-cı il büdcəsinin əsas məqsədlərindən biri, dövlətin maliyyə siyasətində islahatların dərinləşdirilməsidir. Büdcənin tərkibində, xüsusən sosial sahələrə, səhiyyəyə, təhsilə və infrastruktur layihələrinə ayrılan vəsaitlərdə artım müşahidə olunur. Bu, sosial inkişafın təmin edilməsi və vətəndaşların gündəlik həyatının yaxşılaşdırılması üçün mühüm bir addım kimi qiymətləndirilir.

Büdcədəki ən diqqətçəkən məqamlardan biri, dövlət xərclərinin səmərəli istifadəsinin artırılması və vəsaitlərin daha şəffaf bir şəkildə yönləndirilməsidir. Bu məqsədlə, büdcə təsdiq edilərkən ciddi iqtisadi və maliyyə təhlilləri aparılıb, xərclərin optimallaşdırılması məqsədilə bir sıra tədbirlər görülüb. Bunun nəticəsində, büdcənin defisiti minimuma endirilərək, maliyyə stabilliyi təmin edilib.

2026-cı ilin büdcəsində sosial sahələrə yatırımların artırılması xüsusi yer tutur. Əhalinin rifahının yaxşılaşdırılması məqsədilə təhsil, səhiyyə və sosial müdafiə sahələrinə daha çox vəsait ayrılıb. Bu ilin büdcəsində təhsil və səhiyyə sistemlərinin təkmilləşdirilməsi, keyfiyyətli təhsil və səhiyyə xidmətlərinin göstərilməsi, müasir avadanlıqlarla təchizat və mütəxəssis hazırlığına yönəldilmiş sərmayələr artırılıb.

Eyni zamanda aztəminatlı ailələr və sosial müavinət alan şəxslər üçün maliyyə dəstəyinin artırılmasına, dövlətin sosial siyasətində daha genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə imkan verəcək.

2026-cı il büdcəsində qeyri-neft sektorunun inkişafına daha çox diqqət yetirilir. Xüsusilə, sənaye, kənd təsərrüfatı, informasiya texnologiyaları və turizm sahələrinə sərmayələrin artırılması ilə bu sektorlarda dayanıqlı inkişafın təmin edilməsi nəzərdə tutulur. Bu yanaşma Azərbaycanın iqtisadiyyatını diversifikasiya edərək, neftdən asılılığını azaltmaq və davamlı iqtisadi inkişafı təmin etmək məqsədini güdür.

Həmçinin bu büdcə ilə özəl sektorun dəstəklənməsi və yerli istehsalın stimullaşdırılması üçün vergi güzəştləri və maliyyə təşviq mexanizmlərinin tətbiqi planlaşdırılır. Bu tədbirlər nəticəsində yerli istehsalın artması, iş yerlərinin yaradılması və ümumilikdə iqtisadiyyatın gücləndirilməsi mümkün olacaq.

Azərbaycanın 2026-cı il büdcəsi, infrastruktur layihələrinin sürətləndirilməsi üçün də mühüm bir zəmin yaradır. Yolların, körpülərin və dəmir yollarının yenidən qurulması və genişləndirilməsi, xüsusən də bölgələrdə inkişafın təşviqi məqsədini güdür. Bu infrastruktur layihələri, nəqliyyat sisteminin təkmilləşdirilməsi ilə yanaşı, regionlar arasında əlaqələrin gücləndirilməsi və iqtisadiyyatın daha balanslı inkişafına gətirib çıxaracaq.

2026-cı il büdcəsi, ölkənin gələcək iqtisadi və sosial inkişafı üçün müsbət nəticələr vəd edir. Lakin büdcənin uğurlu icrası yalnız dövlətin iqtisadi siyasətinin düzgünlüyü ilə deyil, həm də iqtisadiyyatın real sektoru, işgüzar mühit və xarici təsirlərdən asılıdır. Dövlətin büdcə strategiyası Azərbaycanı daha da inkişaf etmiş və dayanıqlı bir iqtisadiyyatla gələcəyə aparmağı hədəfləyir.

Bu ilin büdcəsi, iqtisadi və sosial sahələrdə davamlı inkişafın təmin edilməsində mühüm bir mərhələdir və 2026-cı ildə əldə ediləcək uğurlar, Azərbaycanın gələcək illər üçün daha güclü və müstəqil bir iqtisadiyyat qurmasına zəmin yaradacaq. Bütün bunlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatında böyük dönüşlər baş verib.

Dövlət müstəqilliyi dövlətin tarixdə yaşama mərhələsidir. Ona görə də dövlət müstəqilliyi hər bir vətəndaş üçün ən böyük sərvətdir. Zəngin tarixi keçmişə malik xalqımız tarixin müxtəlif dövrlərində azadlığı, dövlət müstəqilliyi uğrunda mübarizələr aparıb.

Ötən ilin dekabrında Prezident İlham Əliyevin 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında imzaladığı sərəncamda da qeyd edilir ki, müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüz illər boyu Azərbaycan xalqının ən böyük arzusu olub. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlayıb, öz ideallarına həmişə sadiq qalıb və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edib.

Müstəqillik və suverenlik millətlərin sahib ola biləcəyi ən qiymətli sərvətdir. Hər bir millətin müstəqillik salnaməsi və suverenlik yolu məhz onun malik olduğu dövlətçilik ənənələrindən, azadlıq düşüncəsindən, milli-mənəvi irsindən, tarixi keçmişindən asılı olaraq əldə edilir və yaşadılır.

Müasir demokratik dövlətdə suverenliyin daşıyıcısı və hakimiyyətin yeganə mənbəyi xalq olduğu üçün konstitusiyalar da xalq tərəfindən, yaxud xalqın adından qəbul edilir. Demokratik hüquqi dövlətdə Konstitusiya nəinki dövlətin habelə xalqın dövlətçilik iradəsini ifadə edən əsas qanundur.

Dövlət müstəqilliyi dövlətin tarixdə yaşama mərhələsidir. Ona görə də dövlət müstəqilliyi hər bir vətəndaş üçün ən böyük sərvətdir. Zəngin tarixi keçmişə malik xalqımız tarixin müxtəlif dövrlərində azadlığı, dövlət müstəqilliyi uğrunda mübarizələr aparıb.

Bütün bu uğurlara əsaslanaraq deyə bilərik ki, Azərbaycanın gələcəyinə olan inam məhz möhtərəm Prezident İlham Əliyevin strateji və uzaqgörən siyasətinin nəticəsidir. 2020-ci ilin payızında başlanan Vətən müharibəsi və ardınca əldə edilən böyük qələbə, Azərbaycan xalqının həm milli həm də beynəlxalq səviyyədəki gücünü nümayiş etdirən ən mühüm uğurlardan biridir.

Azərbaycanın daha möhtəşəm bir gələcəyə doğru irəliləməsi, bu günümüzdə olduğu kimi, gələcəkdə də Prezident İlham Əliyevin liderliyinə olan etimad və dəstək üzərində qurulacaq. Azərbaycan onun rəhbərliyi altında həm daxili, həm də beynəlxalq səhnədə daha da qüdrətlənərək, inkişaf etmiş və müstəqil bir dövlət olaraq mövqeyini daha da möhkəmləndirəcək. Bu yolun sonunda Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha parlaq və qüdrətli bir gələcəyə qədəm qoyacaq.

*Səttar MÖHBALIYEV,*
*Milli Məclisin deputatı*

# Su resursları idarə olunur

## Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsində bunun strateji əhəmiyyəti var

**Qarabağ və Şərqi Zəngəzur regionları zəngin su ehtiyatlarına malikdir. Qarabağ İqtisadi Rayonunda çayların illik su ehtiyatı təxminən 831,7 milyon kubmetr, Şərqi Zəngəzur İqtisadi Rayonunda isə 1622,6 milyon kubmetr təşkil edir. Bu ərazilərin birlikdə çay suları ehtiyatı ölkənin daxili su ehtiyatlarının təxminən 24 faizinə bərabərdir.**



Nə yazıqlar ki, erməni vandalları 30 il Azərbaycan torpağında soyqırımı törətməklə bərabər həm də əsl ekosid həyata keçirib, o cümlədən mənfur əllərini çaylarımıza da uzadıblar. Onların suyundan güc alan elektrik stansiyalarını darmadağın edib, avadanlığını söküb aparıb, binalarını dağıdıb. Prezident İlham Əliyevin çıxışlarında dediyi kimi: "Çaylarımız da işğal altında idi və düşmən bizi çaylarımızdan da məhrum etmişdi. Çünki biz Tərtər çayının suyundan faktiki olaraq istifadə edə bilmirdik. Tərtər çayı isə Azərbaycanın ən böyük çaylarından biridir. Suqovuşan ermənilərin əlində olduğu üçün yayda suyu kəsirdilər, bizə qarşı ekoloji terror törədilmişdi. Qışda isə buraxırdılar ki, o da daşqınlara səbəb olurdu".

Ən böyük çaylarımızdan olan Həkəridən də istifadə edə bilmirdik. Bazarçay (buna Bərgüşad çayı da deyilir), Lev çay, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay... Bunların hamısını ermənilər vəhşicəsinə istismar edirdilər. Oxçuçayın böyük fəlakəti isə bütün dünyaya bəyandır. "Cronimet" şirkəti bu çayı zibilləyib, zəhərləyib və sularını sarı rəngə boyayıb. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarında gedən məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta rejiminin nümayəndələri ilə şirkətin qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada mis kombinatı işlədiblər.

Öz vəhşiliklərindən əl çəkməyən erməni vandalları 44 günlük Vətən müharibəsində Şuşadan qaçarkən buradakı su xətlərini də partladıblar. İşğal dövründə isə 17 bulağın 17-sini də yararsız vəziyyətə salıb, qurudublar. Erməni vandalları bir zamanlar bütün keçmiş SSRİ məkanında tanınan Kəlbəcərdəki sanatoriyanın binalarını uçurmaqla yanaşı, oradakı su mənbələrini də tamamilə dağıdıblar. İşğal zamanı düşmən həmçinin çoxsaylı su anbarımıza zərbə endirib.

Prezident İlham Əliyev bununla bağlı hələ işğaldan azad olunmuş ərazilərimizin bərpasına başlanan ilk dövrdə belə demişdi: "İs-



tisu yenə də öz şöhrətini qaytaracaq. Azad edilmiş torpaqlarda indi içməli su mənbələrinin layihələndirilməsi gedir. Onların arasında, əlbəttə ki, Şuşa şəhərinin içməli su layihəsi prioritetdir. Çünki artıq Şuşada insanlar yaşayırlar. Şuşada yaşayış binaları da tikilir və tezliklə insanlar qayıdacaqlar. Ona görə Şuşanın içməli su layihəsi bu il tam istifadəyə verilməlidir... Suvarma işləri həm azad edilmiş torpaqlar üçün, həm bütün ölkə üçün ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq. Bu layihələr elə icra edilməlidir ki, bizim ümumi suvarma təsərrüfatımıza inteqrasiya olunsun. Bax buna da çox ciddi fikir vermək lazımdır. Çünki azad edilmiş torpaqların relyefi belədir ki, - xüsusilə Kəlbəcər, Laçın, Qubadlı zonasını nəzərdə tuturam, - oradan həm suvarma suyu, həm içməli su öz axarı ilə gəlib Ağdama, Bərdəyə və digər yerlərə çata bilər. Bu, ümumi suvarma sistemimizə inteqrasiya edilməlidir. Eyni zamanda biz çaylarımızdan içməli su mənbəyi kimi istifadə etməliyik".

Budur, indi işğaldan azad olunmuş ərazilərimizin yenidənqurma tədbirləri sırasında su təsərrüfatı infrastrukturunun bərpası və inkişafı layihələri də öz bəhrəsini verir. Təsadüfi deyil ki, bu da Böyük qayıdış proqramının qarşıya qoyulan əsas prioritetlərdən biridir. Bu sahədə görülən tədbirlər özündə təkcə içməli su və suvarma təminatını deyil, həm də kənd təsərrüfatı istehsalının bərpasını, ekoloji tarazlığın qorunmasını ehtiva edir. Azad olunmuş ərazilərimizdə indiyədək 4 su anbarı istifadəyə verilib. Suqovuşan su anbarının və 5,2 kilometrlik magistral kanalın təmiri ilə 96 min hektara yaxın torpaq sahəsinin su təminatı bərpa edilib. Ağdam rayonundakı Xaçınçay su anbarı və 7 kilometrlik əsas kanalın bərpası ilə 7 min hektar sahənin suvarma şəraiti yaxşılaşdırılıb.

Füzuli rayonunda "Köndələnçay" kompleksinin bərpası 6,2 min hektar sahənin suvarılmasını təmin edib, Laçın rayonunda Zabuxçay su anbarı və 51,6 kilometr uzunluğa malik boru kəməri Qubadlı və Zəngilan rayonlarında 12,1 min hektar ərazinin suvarma sistemini formalaşdırıb.

Qarabağın və Şərqi Zəngəzurun suyu həm də işıq saçır, nur bəxş edir. Böyük Zəfərdən sonra burada yaradılan 38 su-elektrik stansiyası 307 MVt güc təmin edərək ölkənin vahid enerji sisteminə inteqrasiya olunub.

Adıçəkilən obyektlərin əksəriyyətinin təməlqoyma və açılış mərasimlərində Prezident İlham Əliyevin iştirak etməsi onların hər birinin önəminə diqqət çəkir. Bu bir daha göstərir ki, həmin istiqamətdə həyata keçirilmiş işlər işğaldan azad olunmuş ərazilərimizdə su resurslarının idarə edilməsini modernləşdirərək, iqtisadi, ekoloji və sosial sabitliyin təminatında strateji əhəmiyyətə malikdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan Prezidentinin strateji mesajı

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyinə həsr olunmuş yığıncaqda dövlət başçısının iştirakı və dərinməzmunlu nitqi ölkə ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanıb. İlham Əliyev çıxışı zamanı aktual və əhəmiyyətli məqamlara toxunub. Dövlətçiliyimiz və elmimizlə bağlı vacib məsələləri gündəmə gətirib və konkret vəzifələr müəyyən edib. Dünya ictimaiyyəti tərəfindən də Azərbaycan rəhbərinin ifadə etdiyi tezislərə maraq göstərilir.**

## Tarixi nitq

Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubiley yığıncağında iştirak etməsi və orada strateji xarakterli və dərinməzmunlu nitq söyləməsi müasir tariximizin mühüm hadisələrindəndir. Dünya təcrübəsindən bilindiyi kimi, elə liderlər vardır ki, bir fikri və ya tezisi ilə bütöv millətin taleyini yeni istiqamətə yönəldirlər. Azərbaycan Prezidenti də çıxışlarında müasir müstəqil Azərbaycan dövlətinin və xalqın taleyində ciddi müsbət dəyişikliklərə yol açan tezislər irəli sürür. Bu sırada dövlət başçısının Azərbaycanın elm məbədindən səsləndirdiyi fikirlər xüsusi məna daşıyır və tarixi aktuallığı şübhə doğurmur.

Prezidentin nitqində Azərbaycan dövləti və cəmiyyəti üçün aktual olan və dünyada baş verən dəyişikliklər fonunda əhəmiyyət daşıyan taleyüklü məsələlərin təhlili olduqca maraqlı məzmunda aparılıb. Azərbaycan lideri dövlətimiz üçün intellektual potensialın yüksək əhəmiyyətinin olduğunu ifadə edib. Ulu Öndər Heydər Əliyev də intellekti, alimliyi, elmi təfəkkürü, ziyalılığı və müəllimliyi Azərbaycan xalqının çox qiymətli sərvətləri kimi dəyərləndirirdi. Bu ənənə davam edir: Prezident İlham Əliyev Azərbaycan elmini, akademik intellektini milli sərvət kimi qiymətləndirir.

AMEA-nın 80 illik yubileyində söylədiyi nitqində dövlət başçısı çox əhəmiyyətli olan və strateji mahiyyət daşıyan məsələlərə aydınlıq gətirib. Həmin məsələlər içərisində Prezidentin Qərbi Azərbaycana bizim necə qayıda biləcəyimiz haqqında manifestal səviyyədə ifadə etdiyi tezislər də xüsusi yer tutur.

## Azərbaycanın zəngin irsi var

Azərbaycan rəhbəri tariximizin zənginliyi tezisini bir daha irəli sürərək bunun başqa sahələrlə yanaşı, dövlətçilik ənənələrimizə də xas olduğunu vurğulayır. Məsələ ondadır ki, bəzi dairələr Azərbaycanın dövlətçilik tarixini XIX əsrlə bağlamağa cəhdlər edir. Bu zaman sözdə "qədim Azərbaycan dövlətçiliyi" ifadəsi işlədilsə də, konkret elmi mövqe ortaya qoymaq məsələsində sətiraltı şəkildə imperiyaların buralara ayaq basması "yeni mədəniyyət", "yeni ideologiya", "müasir dövlət qurmaq imkanı" və s. kimi təqdim edilir. Əlbəttə, tariximizin hər bir anı bizim üçün qiymətlidir. Lakin tarix boyu bir neçə dövlət, hətta imperiyalar qurmuş bir qövmü XIX əsrə "sığışdırmaq" cəhdi həm əsassız, həm də elmi baxımdan qəbuledilməzdir. Azərbaycan Prezidenti sözügedən nitqində də tariximizin və dövlətçiliyimizin qədimliyini vəhdətdə vurğulayıb.

Bu kontekstdə Prezidentin nitqindən aşağıdakı hissə çox böyük maraq doğurur: "Təbii ki, Qarabağ və Şərqi Zəngəzur haqqında danışdıqda Azərbaycan tarixi haqqında da danışmalıyıq. Bizim zəngin tariximiz əfsuslar olsun ki, Ermənistan tərəfindən, erməni diasporu tərəfindən uzun illər ərzində təhrif edilmişdir və bu istiqamətdə bizə qarşı aparılan təbliğat bu gün də dayanmır. Ona görə bunun qabağına biz öz həqiqətlərimizi qoymalıyıq. Bu barədə mən 10 il bundan əvvəl akademiyanın 70 illiyində danışmışam. Bu gün də bu barədə danışmaq istəyirəm ki, biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər".

Dövlət başçısının məsələyə bu cür yanaşmasının mənəvi, siyasi, tarixi və geosiyasi məzmunu ümumən dövlətçilik anlayışında ehtiva olunub.

## Mənəvi, geosiyasi və siyasi-ideoloji aspektlər

Azərbaycan lideri dəqiqliklə tariximizin zənginliyinin müxtəlif aspektlərini ifadə edir. Tarixi aspekt: "Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır".

Burada xalqın və dövlətçiliyin tarixi xalqın qurub-yaratmaq qabiliyyəti fonunda təqdim edilir. Bu, vacib məqamdır, çünki Azərbaycan xalqının qədimdən öz tarixinin subyekti olması ideyası ifadə edilib. Deməli, hər bir gənc bu fikri dərindən mənimsəməlidir: xalqın intellektual potensialı hələ qədim dövrlərdən həm cəmiyyəti, həm də dövləti formalaşdıran əsas qüvvədir. Burada tarixi və mənəvi aspektlər vəhdətdədirlər. Onlar həm bir-birini tamamlayır, həm də funksional olaraq ahəngdarlıq təşkil edirlər.

Prezidentin yanaşmasında tarixi-mənəvi aspekti geosiyasi aspekt tamamlayır. Dövlət başçısı ifadə edir: "Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar. Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar".

Çox dərin və geniş mənalı tezisdir. Burada Qərbi Azərbaycanın geosiyasi konteksti dəqiq ifadə edilərək tarixi-mənəvi, coğrafi faktorlarla bağlanıb. Eyni zamanda "bütün qonşu ölkələrlə sərhədlərimizin o tayı" fikrinin politoloji izahı aparılmalıdır. Yekun fikir bundan ibarətdir ki, Azərbaycan tarixən vahid və bütöv geosiyasi məkan olub və müasir dövlətimiz bu məqama xüsusi diqqət yetirir.

Dövlət başçısı deyib: "Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq. Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi".

Bunlar siyasi-ideoloji kontekstdə olduqca əhəmiyyətli fikirlərdir. Və konkret siyasi mövqedir. Əslində, bu, eyni zamanda başqa aspektlərin politoloji nöqteyi-nəzərdən ümumiləşdirilməsidir. Prezident azərbaycanlıların hansı dövlətdə yaşamalarından asılı olmayaraq, ləyaqət sahibi olduqlarını ifadə edir, bununla da son 200 ildə bizlərə qarşı aparılan bütün məkrli kampaniyaları darmadağın edir. Azərbaycanlılar fərd, vətəndaş və qövm olaraq dövlətçiliyə hörmətlə yanaşırlar. Buna görə də onlar heç zaman hansısa dövlətə qarşı separatçı mövqedə olmayıblar. Azərbaycanlılar öz haqlarını tələb ediblər və bu, davam edəcəkdir.

Buna görə də Ermənistan rəhbərliyi və əhalisinin bir qismi soydaşlarımızın yurdlarına dönüşündən əndişə duymamalıdırlar. Onlar anlamalıdırlar ki, türklər ermənilərdən fərqli tarixi düşüncə mədəniyyətinə sahibdirlər və dövlətçiliyə qarşı durmazlar. Əksinə, onu müdafiə edərlər. Nümunə Gürcüstan və Rusiyadır. Qonşu Gürcüstanda yaşayan azərbaycanlılar hər zaman bu dövlətin ərazi bütövlüyünə, mədəni özəlliyinə, dini mənsubluğuna hörmətlə yanaşıblar. Baxmayaraq ki, bəzi radikal ünsürlər azərbaycanlılara aşağılayıcı adlar verməyə çalışmış, özlərini qeyri-adekvat aparmağa cəhd etmişlər. Müdrik Azərbaycan xalqı bunlara səbir və dostluqla yanaşmış və indi də Gürcüstan dövlətçiliyinə dərin hörmət nümayiş etdirir. Bu ölkədə keçirilən seçkilər bunu əyani sübut etdi. Azərbaycanlılar heç bir təxribata getmədilər.

Rusiyada yaşayan azərbaycanlılar haqqında da eyni fikirləri söyləyə bilərik: toplum olaraq azərbaycanlılar Rusiyanın bütövlüyünə və dövlət müstəqilliyinə hörmət nümayiş etdirirlər.

İranda yaşayan Azərbaycan türkləri daim bu dövlətin mövcudluğu və ərazi bütövlüyünün təmin edilməsi uğrunda mübarizə aparıblar. İran-İraq müharibəsində azərbaycanlılar vətəndaşları olduqları İran üçün minlərlə şəhid veriblər.

Bütün bunlardan məntiqi nəticə alınır: Azərbaycan xalqı təbiətcə separatizmdən uzaq olub, yaşadığı ölkələrin qanunlarına həmişə hörmətlə yanaşıb. Qərbi Azərbaycana qayıdış planı dinc səciyyə daşıyır, bəzilərinin yozduğuna rəğmən, erməni xalqı üçün heç bir təhlükə törətmir. Şübhə yoxdur ki, Prezident İlham Əliyevin sülh siyasəti nəticəsində qərbi azərbaycanlılar öz tarixi yurdlarına qayıdacaqlar!

Bütövlükdə tarixi Zəfərimizin, suverenliyimizin bərpasının reallıqları fonunda Qarabağa və Şərqi Zəngəzura qayıdışımızın davamı olaraq Qərbi Azərbaycana da qayıdış günümüzün əsas çağırışıdır. Qərbi Azərbaycana qayıdış dövlətimizin qarşısına qoyduğu prioritetlərdən biridir.

## "Sərhədlərimizin o tayı"

Prezident İlham Əliyev Azərbaycan politoloji fikri üçün çox əhəmiyyətli olan və geniş geosiyasi məna daşıyan ifadə səsləyib. Adi ünsiyyətdə, əlbəttə, "sərhədlərimizin o tayı" ifadəsini işlədən ola bilər. Ancaq müasir Azərbaycan tarixində dövlət başçısı bu ifadəyə konkret politoloji məna verir və AMEA-dakı nitqində detallarını izah edir. İlk növbədə, Azərbaycan fəlsəfi-elmi və politoloji düşüncəsi üçün yeni aktual məsələ gündəmə gətirir.

"Sərhədlərimizin o tayı" deyəndə, öncə vurğulanmalıdır ki, Azərbaycan Prezidenti beynəlxalq hüquq normalarına tam uyğun mövqe nümayiş etdirir. Dövlət başçısı siyasi-hüquqi baxımdan indiki Azərbaycanın ərazisini əsas götürür: yəni indiki Azərbaycanın siyasi xəritəsi daxilində olan ərazi hüquqi cəhətdən bizim ərazidir, ondan kənarda olan ərazilər isə "sərhədin o tayı"dır.

Bununla yanaşı, dövlət başçısı hazırkı siyasi-hüquqi sərhədlərimizdən kənarda da tarixi, mədəni və demoqrafik anlamlarda Azərbaycanın və azərbaycanlılığın mövcud olduğunu vurğulayır. Bu, artıq hüquqi anlamda "sərhəd" anlayışından daha geniş ərazini əhatə edir və kimsəyə qarşı hər hansı ərazi iddiasının varlığı anlamına gəlmir.

## Təbii haqlarımız: daha geniş yanaşma

Azərbaycanlıların təbii haqları qədimdən mövcuddur. Onların qorunması dövlətçiliyimizdə əsas yerlərdən birini tutur. Ancaq son neçə yüzillikdə imperialist dairələr müxtəlif bəhanələrlə onları dövlətçilik şüurumuzdan çıxarıb, "abstrakt psixoloji sahə"yə atmağa çalışmışlar. İlk dəfə bu neqativ tendensiyanın qarşısını Ulu Öndər Heydər Əliyev uğurla alıb. Onun əsas əlamətlərindən biri isə Heydər Əliyevin Qərbi Azərbaycan və qərbi azərbaycanlılara qarşı yeridilən siyasətə verdiyi siyasi qiymətdir.

XXI əsrdə kimliyimiz və dövlətçiliyimiz baxımından strateji məna daşıyan bu prosesi Prezident İlham Əliyev böyük uğurla davam etdirir. Onun əsas məğzini Azərbaycanın baş elmi təşkilatının tribunasından yığcam şəkildə ifadə etməsi xüsusi məna daşıyır. Yəni Ulu Öndərin yaratdığı siyasi ənənəni davam etdirən dövlət başçısının Azərbaycan alimlərindən gözləntiləri çoxdur. Onların sırasında azərbaycanlıların tarixi, siyasi, hüquqi haqları mühüm yer tutur. Bu tezisin işığında dövlət başçısının "sərhədin o tayı" ifadəsinin məna çalarlarını nəzərdən keçirək.

Əslində, Prezident İlham Əliyev azərbaycanlıların haqq və hüquqlarının qorunması məsələsini bir neçə il öncə rəsmi olaraq ifadə edib. Məsələn, Türk Dövlətləri Təşkilatının (TDT) tədbirlərində Azərbaycan lideri dünyanın hansı regionunda yaşamasından asılı olmayaraq, azərbaycanlıların hüquqlarının təmini məsələsini ümumilikdə türklərin hüquqlarının təminatı kontekstində siyasi gündəmə gətirib. Bu, Azərbaycan dövlətçilik ənənəsinin ideya çərçivəsinə tam uyğun siyasi mövqedir. Suverenliyini tam təmin etmiş Azərbaycan bütün dünyada azərbaycanlıların hüquqlarını qorumağa mükəlləfdir! AMEA-dakı nitqində Prezident ilk dəfə bu anlayışın geosiyasi-tarixi anlamını ifadə edib. Onun dəqiq politoloji mənası mövcuddur.

İlham Əliyevin Azərbaycan xalqının dövlətçilik şüurunun əhəmiyyətli aspektini ifadə etdiyi mövqeyinin mühüm siyasi mənası var. Bu kontekstdə Prezident Qərbi Azərbaycana qayıdışın fəlsəfəsini belə əsaslandırır: "Qərbi Azərbaycan tarixi Azərbaycandır və buna kimsə şübhə etməsin. Lakin Azərbaycanın indi Ermənistan adlanan ərazini hərbi zəbt etmək niyyəti yoxdur. Ancaq oraya mənəvi, mədəni, demoqrafik qayıdış mütləq baş verəcək".

Bununla yanaşı, Qərbi Azərbaycan torpaqlarına fiziki qayıdış Qərbi Azərbaycan məsələsinin ədalətli həllinin mühüm aspektini təşkil edir. Daha dərin, geniş və obyektiv əsaslarda Qərbi Azərbaycan məsələsinin elmi və politoloji dərkinə imkan verən yanaşmaların işlənib hazırlanması strateji əhəmiyyət daşıyır. Onun bir sıra vacib cəhətlərini dövlət başçısı təqdim edib: "Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin".

Deməli, Qərbi Azərbaycanda etnik və dini tərkibin dəyişməsi məqsədini daşıyan həmin məkrli imperialist siyasət dəqiq araşdırılmalı və dünyaya çatdırılmalıdır. Bu məqamı Prezident İlham Əliyev belə ifadə edib: "Yəni bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir. Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimaiyyəti bilsin və eyni zamanda indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var".

Nəhayət, dövlət başçısı Qərbi Azərbaycan məsələsini ümumən dövlətçilik tariximiz kontekstində ifadə edib. Burada problemə tarix-müstəqillik-müasirlik bağlantısında baxış dəqiq ifadə olunub. İlham Əliyev deyib: "Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var. Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var".

Vurğulanan məqamların Qərbi Azərbaycana qayıdış kontekstində politoloji mənası əhəmiyyətlidir.

## Qayıdış tarixi-siyasi və mədəni-demoqrafik proses kimi

Prezidentin yuxarıda vurğuladığımız fikirləri fonunda Qərbi Azərbaycana qayıdışın başlıca xüsusiyyətləri tam aydın olur. Hər şeydən öncə, heç bir halda söhbət Azərbaycanın "sərhədin o tayı"ndakı hər hansı əraziyə hərbi təcavüzündən gedə bilməz. Bu, istisnadır!

Bununla yanaşı, Qərbi Azərbaycan "sərhədin o tayı" kateqoriyasına daxil olan məkan kimi dərindən öyrəniləcək və onun bütöv "elmi obrazı" formalaşdırılacaq. Bu, həm azərbaycanlılara Qərbi Azərbaycan məsələsinin mahiyyətini daha dərindən anlamağa ciddi yardım edəcək, həm də onun təbliği və təşviqi üçün yeni imkanlar açacaq.

Bu yanaşma Qərbi Azərbaycan məsələsini üç aspektdə qərəzli baxışlardan sığortalayır.

Birincisi, xaricdə bizimlə hələ də dost olmaq istəməyən dairələrin əvvəlki rahatlıqla Azərbaycan və azərbaycanlılar əleyhinə kampaniyalar həyata keçirmək yolları bağlanır.

İkincisi, azərbaycanlıların öz dövlətçilik tarixləri ilə bağlı bilikləri daha da dolğunlaşır və tamlaşır.

Üçüncüsü, bir sıra xarici dairələrin Azərbaycandakı qulbeçələrinin də əlindən çoxlu sayda saxta arqument çıxır. Xüsusilə onların qərbi azərbaycanlılar haqqında illərdir yaratmağa çalışdıqları həqiqətə uyğun olmayan təsəvvürlərinin "ayaq tutub yeriməsi" neytrallaşdırılır.

Bütün bunlar onu göstərir ki, Azərbaycan Prezidenti Qərbi Azərbaycan məsələsini milli dövlətçiliyin strateji faktorlarından biri kimi dəqiqlik, sistemlilik və ədalətliliklə qlobal siyasi gündəmə uğurla gətirməkdə davam edir!

Əlbəttə, bu prosesdə dövlət başçısının yanında ilk yer tutanlar alimlər olmalıdırlar. Alimlər dərin və obyektiv araşdırmalarla Qərbi Azərbaycanın tarixi, siyasi, geosiyasi və demoqrafik mənzərəsini yaratmalıdırlar. Bu əsasda Qərbi Azərbaycanın dövlətçiliyimizdə tutduğu yer və oynadığı rol yeni səviyyədə müəyyənləşdiriləcək.

Bu, dünya ictimaiyyəti üçün də vacibdir: Azərbaycan xalqı və dövlətinin yüksək mənəvi keyfiyyətləri və humanist dövlətçilik ənənələri daha dərin şəkildə anlaşılacaq və bəşəriyyət görəcək ki, tarixi ərazisinin 29 min kvadratkilometrlik hissəsində imperialistlər və sovetlərin yaratdığı Ermənistan adlı ölkəyə azərbaycanlıların münasibəti tolerantdır! Bəlkə də həddindən artıq tolerantdır!

***Kamal ADIGÖZƏLOV,***
***siyasi analitik***

# Azərbaycan diplomatik nüfuzunu gücləndirir

**Müasir dövrdə Azərbaycanın həm regional, həm də qlobal müstəvidə artan strateji əhəmiyyəti Latın Amerikası ekspertləri tərəfindən də maraqla izlənilir. Argentinanın nüfuzlu "TRENDS Research & Advisory" beyin mərkəzinin ofis rəhbəri Paulo Botta AZƏRTAC-a məxsusi müsahibəsində ölkəmizin Avrasiya ilə Latın Amerikası arasında oynadığı "körpü" rolundan və iqtisadi potensialından bəhs edib. Müsahibədə həmçinin dəyişən dünya nizamında "orta güclər"in mövqeyi, enerji sektorunda əməkdaşlıq və analitik mərkəzlərin artan rolu təhlil olunur. Müsahibəni təqdim edirik:**



*- Siz Azərbaycan ilə Argentina arasındakı iqtisadi münasibətlərin hazırkı səviyyəsini necə qiymətləndirirsiniz?*

- Mən iki ölkə arasındakı iqtisadi münasibətləri yüksək qiymətləndirir və bu sahədə böyük potensialın mövcud olduğunu vurğulamaq istəyirəm. Lakin müxtəlif səbəblərdən bu potensial hələ tam reallaşmayıb. Ən başlıca səbəb mövcud imkanlarla bağlı qarşılıqlı yetərli məlumatın olmaması və ya bu sahəyə kifayət qədər diqqət yetirilməməsidir. Bu imkanlar aydın və obyektiv olsa da, iqtisadi subyektlər digər bazarlara üstünlük veriblər. Bundan əlavə, qlobal böhranlar və baş verən digər hadisələr səbəbindən regional ticarət əlaqələrinin genişlənməsində müəyyən məhdudiyyətlər yaranıb. Bununla belə, əminəm ki, bu məhdudiyyətlər tədricən aradan qalxacaq.

Hələ görüləsi çox iş var. İkitərəfli faydalı münasibətlər həm xam məhsullar sahəsində, həm kənd təsərrüfatı və heyvandarlıqda tətbiq olunan biotexnologiya sahəsində, həm də yeni texnologiyaların inkişaf etdirilməsində genişləndirilməlidir.

*- Bu gün Azərbaycan həm Şərqlə, həm də Qərblə əlaqələrini fəal şəkildə inkişaf etdirir. Siz Azərbaycanın güc mərkəzləri və digər ölkələrlə balanslaşdırma strategiyasını necə dəyərləndirirsiz?*

- Hazırkı beynəlxalq sistem orta güclərin sistemi kimi təsvir edilə bilər. Əlbəttə, böyük dövlətlər var, lakin qarşılıqlı fəaliyyət sahələrinin və qarşılıqlı asılılıq səviyyələrinin müxtəlifliyi müasir dünya nizamının xarakterik xüsusiyyəti olan orta güclər şəbəkəsinin, regional güc mərkəzlərinin yaranmasına səbəb olub. Bu baxımdan, Azərbaycan kimi ölkələr, haqlı olaraq qeyd etdiyiniz kimi, balanslaşdırılmış xarici siyasət yürüdür, çoxsaylı ticarət və maliyyə əlaqələri ona diplomatik nüfuzunu gücləndirməyə imkan verir. Bu, ölkənizə yüksəksəviyyəli strateji status verməklə yanaşı, digər ölkələr üçün də etibarlı vasitəçi kimi çıxış etməyə imkan verir. Son illərdə biz bunun şahidi oluruq. Bu da öz növbəsində ölkənizin beynəlxalq sistemdəki rolunu gücləndirir. Bu, müxtəlif ölkələrlə münasibətləri saxlamağa imkan verən müsbət amildir.

*- Azərbaycan Avrasiya məkanında əsas enerji ixracatçılarından biridir. Siz Azərbaycanın Latın Amerikası ölkələri ilə əməkdaşlıq potensialını, xüsusilə "yaşıl enerji"yə keçid kontekstində, necə görürsüz?*

- Mən hesab edirəm ki, enerji sektorunda əlaqələr iki əsas istiqamətdə inkişaf edə bilər. Birinci istiqamət hidrokarbonlar sektorudur. Burada əməkdaşlıq həm Azərbaycanın təcrübəsindən faydalanmaqla bilik və texnologiyaların mübadiləsi əsasında, həm də Latın Amerikası ölkələrində mövcud investisiya imkanları çərçivəsində - Azərbaycanın qlobal genişlənmə proqramlarına uyğun gələn həm xam neft və təbii qazın kəşfiyyatı və hasilatı, həm də xam neftin emalı, təbii qazın emalı və son məhsulların istehlakçılara paylanması fəaliyyətlərində həyata keçirilə bilər.

Digər tərəfdən, Latın Amerikası ölkələrinin açıq üstünlüyə malik olduğu və hüquqi sistemlərini xarici investisiyalara uyğunlaşdırdıqları enerji keçidi və "yaşıl enerji" sektorlarında da çoxsaylı imkanlar açılır.

Hər iki halda əməkdaşlıq həm bilik və təcrübə mübadiləsinə, həm də investisiyalara yönəlməlidir.

*- Siz məşhur "TRENDS Research & Advisory" beyin mərkəzini təmsil edirsiniz. Azərbaycanda analitik mərkəzlərin siyasətin formalaşmasında rolunu necə qiymətləndirirsiniz?*

- Müasir beynəlxalq sistemdə tədqiqat və analitik mərkəzlərin rolu getdikcə artır və onlar zəruri institutlara çevrilirlər. Çünki mahiyyət etibarilə, siyasi qərarların böyük əksəriyyəti texniki xarakter daşıyır və onların təhlili, hazırlanması və icrası üçün çox spesifik biliklər tələb olunur. Digər tərəfdən, dövlət qurumlarının resursları məhdud olduğundan, beyin mərkəzləri hökumət rəsmilərinə dünyada baş verən prosesləri təhlil etməkdə, mümkün fəaliyyət istiqamətlərini təklif etməkdə və vətəndaş cəmiyyəti ilə əlaqələr vasitəsilə həmin siyasətlərin icrasına dəstək göstərməkdə mühüm rol oynaya bilər.

Azərbaycanda analitik ekosistemin formalaşması müşahidə olunur. Müxtəlif ixtisaslaşma sahələrinə və fərqli yanaşma perspektivlərinə malik beyin mərkəzlərinin yaradılması, onların fəaliyyətləri və nəşrləri vasitəsilə qərar qəbuletmə proseslərinə töhfə verilməsi bu ekosistemin əhəmiyyətli tərkib hissəsidir.

*- Azərbaycan və Latın Amerikası analitik mərkəzləri arasında əməkdaşlıq platformasının yaradılmasını mümkün hesab edirsinizmi? Sizin fikrinizcə, əsas əməkdaşlıq sahələri nə ola bilər - enerji, təhsil, diplomatiya, yoxsa rəqəmsallaşma?*

- Bu təşəbbüsü son dərəcə müsbət qiymətləndirirəm. Çünki bu cür əməkdaşlıq platformaları Latın Amerikası ilə Avropa və ya Aralıq dənizi ölkələri arasında artıq uğurla tətbiq edilmiş modellərin davamı ola bilər. Azərbaycan ilə Latın Amerikası arasında əməkdaşlıq platformasının yaradılması həm akademik mühitə, həm cəmiyyətə, həm də hökumətlərə bir çox sahədə fayda verə bilər. Hesab edirəm ki, gündəliyə Latın Amerikası ölkələri və Azərbaycan üçün ümumi narahatlıq doğuran məsələlər daxil edilməlidir.

Gələcəyə yönəlik çağırışlara fokuslanmaq, mövzuları praktik fəaliyyət istiqamətlərini prioritetləşdirən yanaşma ilə təhlil etmək, müxtəlif ölkələrdən olan tədqiqatçıları təcrübə və baxış bucaqlarını bölüşmək üçün bir araya toplamaq zəruridir. Süni intellektin ictimai həyatın bütün sahələrinə təsiri, qlobal səviyyəli çağırışlar, dövlətlərin ortaq maraq kəsb edən mövzular üzrə idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, beynəlxalq ticarət və investisiya axınlarında müşahidə olunan meyillər, siyasət və hüquq strukturlarından daha sürətli dəyişən cəmiyyətlərin tələbləri kimi məsələlər mütləq nəzərdən keçirilməli və dərindən təhlil olunmalıdır.

*- Sizcə, ənənəvi beynəlxalq institutların böhran yaşadığı bir dövrdə kiçik və orta dövlətlərin dünya siyasətindəki rolu qarşıdakı illərdə necə dəyişəcək?*

- Qeyd etdiyim kimi, beynəlxalq sistem gözlərimizin önündə dəyişir. Bu dəyişikliklərin əsas istiqamətlərindən biri institusionallığın zəifləməsidir. Artıq beynəlxalq institutların sayı azalır və ya G-20 və BRICS+ kimi daha az institusional xarakter daşıyan əməkdaşlıq formatları ortaya çıxır. Bununla yanaşı, İkinci Dünya müharibəsindən sonra formalaşmış liberal beynəlxalq sistemin əsas institutlarına, xüsusən də Birləşmiş Millətlər Təşkilatına yönələn tənqidlər də artır. Belə şəraitdə dövlətlər mərkəzi oyunçulara çevrilir, çünki onlar öz maraqlarının idarə olunmasını beynəlxalq təşkilatlara həvalə etmək istəmirlər. Nəticədə sistem getdikcə daha çox "dövlət mərkəzli" xarakter alır.

Beynəlxalq siyasətin çağırışları bütün dövlətlərdən, xüsusilə də böyük güc statusuna malik olmayanlardan fəal diplomatiya yürütməyi, oxşar problemlərlə üzləşən ölkələrlə yüksək səviyyədə koordinasiya aparmağı tələb edir. Bu, daha çox gücə sahib aktorların qaydaların və institutların azaldığı bir mühitdə öz iradələrini digər dövlətlərə diktə etməsinin qarşısını almaq baxımından həyati əhəmiyyət daşıyır.

*- Sizcə, Azərbaycan Şərqlə Qərb arasında olduğu kimi, həm də Avrasiya ilə Latın Amerikası arasında "körpü" rolunu oynaya bilərmi? Bu cür "yeni diplomatiya marşrutu" hansı dəyəri ifadə edərdi?*

- Azərbaycan kimi ölkələr bu baxımdan son dərəcə mühüm rol oynaya bilər. Ölkənizin iqtisadi əlaqələrinin çoxşaxəliliyi, zəngin tarixi və geosiyasi mövqeyi üzərində qurulmuş diplomatik təcrübə həmin bilik və bacarıqların Avrasiya ilə Latın Amerikası arasındakı münasibətlərə də ötürülməsini mümkün edir. Bu kontekstdə vurğulamaq istərdim ki, həm universitetlərin, həm də analitik mərkəzlərin akademik təşəbbüsləri, eləcə də mədəni layihələr xüsusi əhəmiyyət kəsb edir.

On ildən artıqdır ki, La Plata Milli Universitetinin Beynəlxalq Əlaqələr İnstitutu nəzdində Azərbaycanşünaslıq kafedrası fəaliyyət göstərir. Bu kafedra analitik materialların dərc edilməsi, tərcümələr, akademik tədbirlərin təşkili və tanışlıq səfərləri kimi fəaliyyətlər vasitəsilə qarşılıqlı əlaqələrin güclənməsinə əhəmiyyətli töhfə verib. Belə təşəbbüslər münasibətlərin davamlılığını təmin edir, əlaqələrin sosial əsasını genişləndirir və əməkdaşlığın yalnız hökumətlər səviyyəsində deyil, həm də xalqlar arasında inkişafına şərait yaradır.

# D-8 Media Forumu əməkdaşlığın və qarşılıqlı etimadın bariz təzahürüdür

**D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının əsası 1997-ci ildə inkişaf etməkdə olan səkkiz ölkə tərəfindən qurulub. Bu təşkilatın məqsədi üzv ölkələr arasında iqtisadi, ticarət, maliyyə və texnoloji əməkdaşlığı inkişaf etdirmək, sosial və mədəni əlaqələri gücləndirməkdir.**



Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, ötən il dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI sammitində ölkəmiz yekdilliklə D-8 təşkilatının üzvü seçilib. Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsi olan D-8-ə üzvlüyümüz təşkilat yarandığı gündən onun ilk genişlənməsi kimi əlamətdar hadisə oldu.

"Bakıda keçirilmiş "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu böyük əhəmiyyət kəsb edən platformadır. Forum ölkələrimiz arasında mövcud olan dostluğun, əməkdaşlığın və qarşılıqlı etimadın bariz təzahürüdür. Dövlət başçısı İlham Əliyev D-8 Media Forumunun iştirakçılarına müraciətində də bildirdi ki, otuz ilə yaxın müddət ərzində fəaliyyət göstərən bu təşkilatın ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul etməsi əlamətdar haldır. Bu, ölkəmizə olan beynəlxalq etimadın göstəricisi, təşkilata üzv olan hər bir ölkə ilə möhkəm dostluq və əməkdaşlıq münasibətlərimizin, birliyimizin və həmrəyliyimizin təzahürü idi", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, 1,2 milyard əhalini əhatə edən və böyük iqtisadi potensiala malik D-8 təşkilatına üzv olan dövlətlər ortaq dini-mədəni dəyərləri bölüşürlər. Bu gün artıq üç qitəni əhatə edən D-8 platforması dayanıqlı iqtisadi artım, rəqəmsal transformasiya, süni intellekt, qlobal iqlim dəyişmələri ilə mübarizə və enerji təhlükəsizliyi kimi mühüm sahələrdə inkişafı irəli aparmaq üçün geniş imkanlara malikdir.

Hazırda media mühitinin sürətli transformasiyaya məruz qaldığını deyən V.Rəhimzadə vurğulayıb ki, qlobal informasiya məkanında dezinformasiya, saxta xəbərlər, hibrid təhdidlər, "deepfake"lər, süni intellektin imkanlarından sui-istifadə və digər manipulyasiya halları dayanmadan artmaqdadır: "D-8 Media Forumunun əsas vəzifələrindən biri doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin qurulması üçün üzv ölkələrin media qurumları arasında etibarlı əməkdaşlığın formalaşdırılmasıdır. Azərbaycan bundan sonra da təsisat çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinə öz töhfəsini verməyə davam edəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# AZƏRTAC və Malayziyanın "Bernama" Xəbər Agentliyi əməkdaşlığı genişləndirəcək

**Bakıda keçirilən "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumunda iştirak edən Malayziyanın "Bernama" Xəbər Agentliyinin baş direktoru xanım Datin Paduka Nur-ul Afida Kamaludinin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 22-də AZƏRTAC-ı ziyarət edib.**

Qonaqlar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mətbuatla bağlı tədbirlərdə iştiraklarını, Müzəffər Ali Baş Komandanın Vətən müharibəsi dövründə xalqa müraciətlərini, işğaldan azad olunmuş bölgələrə səfərlərini əks etdirən fotolara, həmçinin AZƏRTAC-ın müxtəlif dövrlərdə istifadə etdiyi texniki avadanlıqlardan ibarət eksponatlara baxıblar.

İştirakçılar AZƏRTAC-ın şəhid jurnalisti Məhərrəm İbrahimovun xatirə guşəsi ilə tanış olublar. Onlara jurnalistin həyat yolu barədə ətraflı danışılıb.

Sonra keçirilən görüşdə AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev bildirib ki, AZƏRTAC ilə "Bernama" 2014-cü ildən bəri əməkdaşlıq edir, gündəlik informasiya mübadiləsi həyata keçirir. O əlavə edib ki, agentliklərimiz Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı (OANA) çərçivəsində də uğurlu əlaqələr qurub.

Vüqar Əliyev həmçinin dünən Bakıda keçirilən D-8 Media Sammitində Media Mükəmməlliyi Mərkəzinin yaradılması ilə bağlı qərarın əhəmiyyətindən bəhs edib. O bildirib ki, bu mərkəz üzv ölkələr arasında informasiya mübadiləsini gücləndirəcək və media sahəsində peşəkarlığın artırılmasına töhfə verəcək.

"Bernama" Xəbər Agentliyinin baş direktoru AZƏRTAC-la əməkdaşlıq əlaqələrindən məmnunluğunu ifadə edərək bildirib ki, müasir dövrün tələblərinə uyğun olaraq multimedia sahəsində informasiya mübadiləsinə daha intensiv yanaşılmalıdır.

Görüş çərçivəsində AZƏRTAC və "Bernama" arasında mövcud olan əməkdaşlıq haqqında memorandumun yenilənməsinə dair razılıq əldə edilib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri qonaqları gələn il keçiriləcək Şuşa Qlobal Media Forumuna dəvət edib.

# 8 ölkə, 71 xarici nümayəndə, 150-yə yaxın qonaq

## D-8 Media Forumunun ölkəmizdə keçirilməsi Azərbaycan jurnalistlərinin beynəlxalq əlaqələrini genişləndirəcək

**Son illər dünyada informasiya mübadiləsinin və media sahəsində inkişafın əhəmiyyəti daha da artır. Bu sahədəki dəyişikliklər qlobal siyasətə, iqtisadiyyata və cəmiyyətin ümumi inkişafına təsir göstərir. Ötən həftə Bakıda keçirilən D-8 Media Forumu da bu mühüm tendensiyaların bir hissəsi olaraq qiymətləndirilməlidir.**




Ötən həftə paytaxtımız Bakı daha bir mötəbər tədbirə evsahibliyi etdi. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin media sahəsinə məsul qurumlarının və aparıcı media subyektlərinin rəhbərlərinin, digər yüksəkvəzifəli nümayəndələrin və sahə üzrə tanınmış ekspertlərin iştirakı ilə "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu keçirildi. Forum aparıcı media subyektlərinin rəhbərlərini, digər yüksəkvəzifəli nümayəndələri və sahə üzrə tanınmış ekspertləri bir araya gətirdi.

Tədbir çərçivəsində regional və beynəlxalq müstəvidə informasiya mübadiləsinin təkmilləşdirilməsi, media sahəsində əməkdaşlığın gücləndirilməsi, dezinformasiyaya qarşı mübarizə üzrə birgə mexanizmlərin formalaşdırılması, rəqəmsal media istiqamətində birgə layihələrin təşviqi və təcrübələrin paylaşılması məsələləri müzakirə olundu.

Xatırladaq ki, forumda 8 ölkədən və təşkilatın katibliyindən 71 xarici nümayəndə olmaqla, ümumilikdə 150-yə yaxın qonaq iştirak edirdi.

Ümumiyyətlə, D-8 1997-ci ildə iqtisadi və texnoloji əməkdaşlıq məqsədilə yaranan, inkişaf edən səkkiz ölkənin təşkilatıdır. Bu ölkələr arasında Türkiyə, İndoneziya, İran, Malayziya, Nigeriya, Pakistan, Banqladeş, Misir və Azərbaycan yer alır. D-8-in əsas məqsədi üzv ölkələr arasında iqtisadi və ticarət əlaqələrini gücləndirmək, sosial və mədəni sahələrdə əməkdaşlığı artırmaqdır. Təşkilatın media forumu isə üzv ölkələr arasında informasiya axınının asanlaşdırılmasına, media sektorunda bilik və təcrübə mübadiləsinin aparılmasına yönəlmiş bir platformadır.

Azərbaycan son illər informasiya və media sahəsində əhəmiyyətli irəliləyişlər əldə edib. Dövlət tərəfindən media azadlığının təmin edilməsi, jurnalistlərin peşəkar inkişafının dəstəklənməsi, həmçinin yerli və beynəlxalq media əlaqələrinin genişlənməsi bu inkişafın əsas məqamlarıdır. Azərbaycanın müasir media bazarında televiziya kanalları, internet saytları və sosial media platformaları geniş yayılıb və cəmiyyətin hərtərəfli informasiya təminatında mühüm rol oynayır.

Azərbaycanın media sahəsindəki irəliləyişləri nəzərə alaraq, D-8 Media Forumunun ölkəmizdə keçirilməsi ölkəmizin beynəlxalq aləmdə media sektorundakı nüfuzunun daha da artmasına şərait yaradacaq. Bu tədbir həmçinin Azərbaycanın media siyasətinin və inkişafının digər D-8 üzv ölkələri ilə bölüşülməsini təmin edəcək.

Media yalnız informasiya mübadiləsi vasitəsi deyil, həm də iqtisadi inkişafın mühüm alətlərindən biridir. Forumun keçirilməsi media sahəsindəki potensial əməkdaşlıqların gücləndirilməsi üçün geniş imkanlar yaradacaq. Məsələn, Azərbaycan, D-8 ölkələri ilə birgə media layihələrinin icrası, reklam və məlumat xidmətləri sahəsində qarşılıqlı faydalı əlaqələr qurulmasına şərait yarada bilər.

Bir sözlə, D-8 Media Forumunun Azərbaycanda keçirilməsi yalnız media sahəsindəki inkişaf üçün deyil, həm də ölkəmizin beynəlxalq əlaqələrini daha da gücləndirmək və regional liderliyini möhkəmləndirmək baxımından böyük əhəmiyyət kəsb edir. Bu tədbir Azərbaycan üçün yeni imkanlar açacaq, həmçinin D-8 üzv ölkələri arasında qarşılıqlı anlaşma və əməkdaşlıq mühitini daha da inkişaf etdirəcəkdir. Nəticədə forumun keçirilməsi Azərbaycanın beynəlxalq səhnədəki mövqeyini daha da möhkəmləndirəcək, eyni zamanda media sektorunun inkişafına yeni impuls verəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Hərbi Dəniz Qüvvələrində "Konstitusiya və Suverenlik İli" ilə bağlı tədbirlər keçirilib

**"Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Hərbi Dəniz Qüvvələrində (HDQ) silsilə tədbirlər keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, həmçinin Vətən uğrunda şəhid olan vətəndaşlarımızın xatirələri birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Çıxış edənlər Prezident İlham Əliyevin 2024-cü il dekabrın 28-də imzaladığı sərəncamla 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunmasının əhəmiyyəti barədə danışıblar. Bu sərəncamın hüquqi, siyasi və ictimai baxımdan böyük əhəmiyyət daşıdığı və ölkəmizin inkişafında həlledici rol oynadığı vurğulanıb.

Silsilə tədbirlərdə həmçinin Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdən, Qələbənin qazanılmasında xalqımızın əvəzsiz rolundan, igid oğullarımızın şücaətlərindən söz açılıb, şəhidlərimizin xatirəsinin daim yaşayacağı əminliklə bildirilib. Azad edilmiş torpaqlarımızda görülmüş abadlıq-quruculuq işlərinin və Böyük qayıdışın dövlətimizin və xalqımızın Vətən torpaqlarına verdiyi dəyərin göstəricisi olduğu diqqətə çatdırılıb.

# Ruben Vardanyanın məhkəməsində ifadələr dinlənilib

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 24-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Ardınca zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Mirhüseyn Salahov Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində özünün, Hüseyn Məmmədovun və daha bir neçə nəfərin yaralandığını söyləyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Elturan Cəbiyev Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində xəsarət aldığını bildirib.

Zərərçəkmiş Telman Fərhadlı ifadəsində Kəlbəcərdə düşmən tərəfindən açılmış atəş nəticəsində yaralandığını deyib. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş hadisə zamanı daha iki nəfərin xəsarət aldığını söyləyib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş İslam Məsiyev və Mehdi Əhmədov Kəlbəcərdə düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində müxtəlif xəsarətlər aldıqlarını bildiriblər.

İfadə verən Xəlil Xasməmmədov düşmənin təxribatı nəticəsində özünün və daha iki nəfərin xəsarət aldığını, daha iki nəfərin isə həlak olduğunu deyib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Ariz Məmmədov Şuşa rayonunun Xəlfəli kəndində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin minaatandan açdığı atəş nəticəsində yaralandığını bildirib. Hadisə zamanı yanında olmuş Nemət Abdullayev və Sadiq Qasımlı da yaralanıb.



Zərərçəkmiş Elnur Şıxıyev Kəlbəcərdə tibbi təxliyə maşınını idarə edərkən düşmən tərəfindən açılmış atəş nəticəsində yaralandığını deyib. O bildirib ki, idarə etdiyi avtomobilin üzərində tibbi xidmətlə bağlı fərqləndirici nişan olmasına baxmayaraq maşın minaatanla atəşə tutulub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Sadiq Əliyev və Müsənnif Əliyev düşmənin Kəlbəcərdə törətdiyi təxribat nəticəsində yaralandıqlarını bildiriblər.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş Yagir Sultanov düşmənin atdığı minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində yaralandığını söyləyib.

İlyas Babazadə Kəlbəcərdə düşmən tərəfindən atılmış artilleriya mərmisinin partlaması nəticəsində yaralandığını söyləyib. Hadisə zamanı yanında olmuş Nicat Qarazadə isə həlak olub.

Zərərçəkmiş Fərid İbrahimov Ağdamda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış artilleriya mərmisinin partlaması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldığını bildirib.

Zərərçəkmiş Elgün Talıbov ifadəsində Ağdərə istiqamətində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində sağ əlindən yaralandığını söyləyib.

Xəyal Həbibov Laçında düşmən tərəfindən basdırılmış minanın partlaması nəticəsində yaralandığını bildirib.

Vüqar Həsənov Ağdamda düşmən tərəfindən açılmış atəş nəticəsində yaralandığını deyib.

Digər zərərçəkmiş şəxslər - Mustafa Ağayev, Əmrah Abdıyev, Natiq Zeynallı, Fərid Əliyev, Hidayət Qüdrətzadə, Polad Rəhmanov, Zamil Tağıyev, Sənan Əliyev, Famil Abdullayev, Firuddin Namazalıyev, Hakim Həsənov, Ömər Musayev müxtəlif istiqamətlərdə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Daha sonra məhkəmə prosesi cinayət işi materiallarında olan sənədlər və digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası noyabrın 25-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29, 120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29, 120.2.11, 29, 120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# REGİONLAR

**Kəlbəcər... 27 il dağların sinəsinə sığınıb dumanın qucağında yuxuya gedən yurd yeri. Hər axşam və hər səhər burada qayalar dilə gəlir, çayların və bulaqların səsi isə keçmişdən nağıl pıçıldayır. Bu torpaq təkcə yurd yeri deyil, yarımçıq qalmış nəğmələrin, sinəsi dağlı insanların göyə ucalan dualarının məkanıdır. Kəlbəcərə gedən yolların hər döngəsi bir həsrətin parçasıdır. Uca dağlar o həsrəti illərlə qorumuş, qayaların çatında gizlətmişdi - ta o zamana kimi... küləklər sovurduğu tozun altından Vətənin itirilmiş ümidini geri gətirdi.**



## Çin olmuş arzunun Kəlbəcər zirvəsi

Bu gün azad Kəlbəcərin səhərləri başqa cür açılır. Günəş yavaşca doğur, yellər yumşaq danışır, sular pıçıldayır. İnsan qəribə bir sakitlik tapır bu torpaqda. O, insanı təkcə gözəlliyi ilə deyil, keçmişin acısını daşıyan ucalığı ilə də qarşılayır. Bu gözəl yurdun 27 illik zaman kəsiyi susqun bir dastandır. Hər meşə kölgəsində, dağ yamacında öz hekayəsini pıçıldayır, insan isə yalnız qulaq asır və ruhunu bu tarixlə, bu səssizliklə bəsləyir. Amma səssizliyin içində "yurd salmış" keçmişin harayı, ötənlərin ağrı-acısı hələ də dağların qoynunda əks-səda verir. Daşların altında, bulaqların gözündə acı həsrət gizlənib. Kəlbəcər o həsrəti illərlə qoruyub, saxlayıb və gözləyib ki, qayıdanlar onu qucaqlasın, ruhunu paylaşsın.

Bu yurda qayıdanların 27 illik taleyinə işğalın kədəri, ağrı-acısı həkk olundu. 1993-cü il aprelin 2-də Kəlbəcər erməni işğalçılarının basqını ilə üz-üzə qaldı, şəhər və kəndlər boşaldıldı, insanların taleyi yurd ayrılığının və torpaq həsrətinin qoynuna sığındı. Minlərlə kəlbəcərli öz isti ocağından uzaq düşdü, doğma evlərini tərk etməyə məcbur qaldı və "məcburi köçkün" statusu ilə sınağa çəkildi. İşğal illərində Kəlbəcərin memarlıq və tarixi abidələri, mədəniyyət obyektləri və infrastrukturu ciddi ziyan gördü. Məktəblər, kitabxanalar, mədəniyyət evləri dağıdıldı, mənzillər talan edildi.

"Human Rights Watch"ın hesabatına görə, Kəlbəcərə hücum zamanı Ermənistan silahlı qüvvələri bir çox müharibə qaydasını pozub, əhaliyə amansızcasına atəş açıb və çoxlu sayda mülki insanı girov götürüb. 1993-cü ilin aprelində BMT Təhlükəsizlik Şurası işğalçı qüvvələrin Kəlbəcər rayonundan çıxarılmasını tələb edən 822 saylı qətnaməni qəbul edib. 2000-ci illərin əvvəllərindən etibarən şəhərə əslən Aşağı Ağcakənd və Gülüstan kəndlərindən olan etnik ermənilər köçürülüb, Kəlbəcəri Ermənistanla birləşdirən yeni avtomobil yolu çəkilib. 1993-cü ilin qiymətlərinə görə, Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon manatlıq ziyan vurulub. İşğal nəticəsində rayondan 53340 insan qovulub, dinc əhalinin 511-i öldürülüb, 321 nəfər isə əsir götürülüb və itkin düşüb.

Bu rəqəmlər sadəcə statistika deyil, hərəsi bir ömrün, bir ailənin yarasıdır. Amma zaman keçdikcə həmin yaralar ümidin işığı altında qaysaqlandı. Nəhayət, 2020-ci ilin noyabrından sonra illərlə içimizdə qövr edən ağrılar və yaralar yavaş-yavaş sağalmağa başladı. Dağlar yenidən nəfəs aldı, küləklər doğma yurda tanış səslər gətirdi. Qayıdışın ilk addımları hələ utancaq olsa da, torpaq onları qucaqlayaraq bağrına basdı. Çiçəklər bir anda illərin həsrətinə son qoyub gül açdı. İndi o yerlərin səssizliyində yalnız kədər deyil, həm də dirçələn iradənin, yenidən qurulan bir ümidin səsi eşidilir. İtkilər və ağır nəticələr Kəlbəcərin taleyində dərin izlər buraxsa da, torpaq beş ildir azadlığın sevincini yaşayır. İşğalın acıları ilə yoğrulan bu torpaq illər sonra öz haqqına qovuşdu. Üç ay əvvəl Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılan şəraitlə tanış olub, 32 ildən sonra buraya ilk köçən sakinlərlə görüşərək, onlara mənzillərin açarlarını təqdim etdi.

Təbii sərvətləri, zəngin torpaq və su ehtiyatları Kəlbəcərin ağır sənaye, "yaşıl energetika", ekoturizm və aqrar sahələrdə inkişafı üçün nadir imkanlar yaradır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu il avqustun 21-də rayonun sakinləri ilə görüşündə Kəlbəcərin İsveçrə modelinə uyğun yüksəkkeyfiyyətli yaşayış məskəninə çevriləcəyini vurğulayıb: "Siz neçə il əziyyət içində yaşamısınız. Ona görə sizin üçün ən gözəl şərait yaradılmalıdır. Bu da İsveçrə layihəsidir. İsveçrədəki şəhərlərə tam uyğundur. Bəli, həm memarlıq, həm də daxildəki dizayn baxımından. Bilirsiniz, İsveçrə dünyada insanın həyat keyfiyyətinə görə birinci yerdədir. Ona görə biz Kəlbəcər üçün bunu seçmişik". Dövlət başçısının sözləri təbii ki, təsəlli deyil, gələcəyə çəkilmiş aydın bir yol xəritəsi, "İsveçrə modeli" bənzətməsi isə Kəlbəcərin qarşısına qoyulan yüksək hədəfin adıdır.

Kəlbəcərin bərpası təkcə bununla bitmir ki! 2026-cı ilə qədər bərpa planlarında 15 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulub. Kəlbəcərin baş planı hazırlanıb: gələcəkdə burada yaşayış binaları, məktəblər, xəstəxanalar, ictimai mərkəzlər inşa olunacaq. Dağların ətəyində yeni turizm məkanları yaranır, milli parklar və istirahət zonaları illərin həsrətini pıçıldayır: "nəhayət, geri döndünüz". Kənd təsərrüfatı, heyvandarlıq və digər sahələr oyanışın bir parçası kimi insanlara ümid bəxş edir. Çöldə əkilən toxum, dağların ətəyində otlayan sürü elə bil illərin yarasını sarıyan bir möcüzədir. Yenidən doğulan bu dirçəliş Kəlbəcərin qəlbində yalnız iqtisadi inkişaf deyil, bərpaolunan bir həyatın, doğma yurdun yenidən cana gələn döyüntüsü kimi eşidilir. Burada infrastruktur layihələri prioritetdir. "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su-elektrik stansiyaları bərpa olunub və yarımstansiya tikilərək regionun enerji təchizatı yaxşılaşdırılıb.

Bu gün dağların qoynunda yeni yollar çəkilir, müasir binalar ucalır, sabahın rahat və təhlükəsiz həyatı addım-addım formalaşır. İsveçrəyə xas səliqə və estetika indi Azərbaycanın öz qarlı zirvələri arasında canlanır. Saf bulaqlar, termal sular, zəngin təbiət və təmiz hava buranı sağlam həyat üçün ideal bir məkan edir. Yeni şəhərsalma layihələri, yaşayış kompleksləri, məktəblər, enerji və yol infrastrukturu bu idealın canlı ifadəsidir. MDB ölkələri arasında böyüklüyü ilə birinci yerdə olan Murovdağ tuneli, ekoloji dayanıqlı stansiyalar və "İstisu" kimi sağlamlıq ocağı Kəlbəcərin yeni dövrünü əks etdirir.

İndi Kəlbəcərə "xatirələrin və gələcəyin evi" də deyə bilərik. Hər yol, hər bina, hər açılan pəncərə bir ömrün, bir həsrətin gerçəkləşən dualarıdır. Kəlbəcər dirçələn yurdun, yenidən doğan arzuların və ümidlərin məkanıdır. Bu gün - noyabrın 25-i Kəlbəcər şəhər günü kimi qeyd olunur. Bu, həm tarixdir, həm də qayıdışın, bərpanın və ümidin bayramıdır. Bayramın mübarək, doğma Kəlbəcər!

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## "Azərişıq" ASC Ağdamın elektrik şəbəkəsini yeniləyir

**"Azərişıq" ASC bütün regionlarda olduğu kimi, Ağdamın da elektrik təsərrüfatını yenidən qurur. Cənab Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, rayonun bir sıra kənd və qəsəbələrində elektrik şəbəkəsi yenilənir, həmçinin şəhər ərazisində yeni güc mərkəzləri yaradılıb.**



Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, rayonun Xıdırlı, Sarıcalı və Kəngərli kəndlərinə köç edən sakinlər üçün 0,4 kV-luq yeraltı xətlər, 35 kV-luq Özünüdaşıyan İzolyasiyalı Naqillər (ÖİN-3) çəkilib, üç kənddə ümumilikdə 30 müasir tipli Transformator Məntəqəsi (TM) quraşdırılıb. Yaşayış məntəqələri SMS tipli müasir sayğaclarla təchiz olunub.

Baş Qərvənd, Güllücə, Suma, Nəmirli kəndlərinə qədər 35 kV-luq kabel hava xəttinin çəkilişi yekunlaşıb, Paylayıcı Qurğular (PQ) quraşdırılıb. Növbəti günlərdə Eyvazxanbəyli istiqamətində işlərə start veriləcək.

Abonentlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunmasını, elektrik enerjisi itkilərinin minimuma endirilməsini hədəfləyən "Azərişıq" ASC ölkənin bütün regionlarında əsaslı təmir-bərpa və yenidənqurma işlərini davam etdirir.

***"Azərbaycan"***

## Gəncədə yeni radiologiya şöbəsi fəaliyyətə başlayıb

**Gəncədəki Sağlam Ailə Tibb Mərkəzində yeni radiologiya şöbəsi fəaliyyətə başlamışdır. Şöbə rentgen, ultrasəs (USM), mammoqrafiya və kompüter tomoqrafiyası kimi ən son texnologiyalara əsaslanan avadanlıqlarla təchiz olunmuşdur.**

Şöbənin fəaliyyəti Gəncə və ətraf bölgələrdə yaşayan sakinlər üçün vaxtında diaqnostika, erkən aşkarlama və tibbi xidmətlərə əlçatanlıq imkanlarını artıracaqdır. Bu addım tibbi profilaktika mədəniyyətinin gücləndirilməsinə, xroniki xəstəliklərin daha effektiv idarə olunmasına və göstərilən xidmətlərin çeşidinin genişləndirilməsinə imkan verəcək.

Şöbədə müasir avadanlıqlar sayəsində pasiyentlər daha sürətli, dəqiq və etibarlı diaqnostika ilə təmin olunacaq, rəqəmsal arxivləşdirmə isə diaqnostika tarixçəsinin izlənməsini asanlaşdıraraq müalicə prosesinin optimallaşdırılmasına şərait yaradacaq.

Radiologiya şöbəsi həm fərdi müayinələr, həm də ixtisas həkimlərinin göndərişi əsasında kompleks diaqnostik paketlər təqdim edəcək. Şöbədə fəaliyyət göstərən həkim-radioloqlar beynəlxalq standartlara uyğun xidmət göstərmək üçün xüsusi təlimlərdən keçmişlər.

## Ağstafada intellektual bilik yarışı keçirilmişdir

**Ağstafada "Konstitusiya və Suverenlik İli" çərçivəsində Qazax-Tovuz Regional Təhsil İdarəsinin Ağstafa rayonu üzrə Təhsil Sektoru və "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun birgə təşkilatçılığı ilə "Suverenlik zirvəsi" adlı intellektual bilik yarışması keçirilmişdir.**

Ölkəmizin ərazi bütövlüyü, suverenliyi və konstitusion dəyərləri haqqında biliklərin artırılması, işğaldan azad olunmuş ərazilərimizin tarixi irsinin tanıdılması, regionun milli-mədəni dəyərlərinə marağın yüksəldilməsi məqsədilə keçirilən yarışda rayonun 31 ümumtəhsil məktəbinin müəllimləri iştirak etmişlər.

Bilik yarışmasında komandalar Azərbaycan Respublikasının Konstitusiyası, işğaldan azad edilmiş rayonlarda yerləşən abidələr və suverenliyə həsr olunmuş sualları cavablandırmışlar. Yekunda Vətən Müharibəsi Qəhrəmanı Azər Yusifli adına Böyük Kəsik tam orta məktəbin "Zəngilan" komandası 1-ci, Poylu kənd tam orta məktəbin "Qarabağ" komandası 2-ci, Poylu qəsəbə tam orta məktəbin "Qızıl Hacılı" komandası 3-cü yerlərə layiq görülmüşlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Şirvanda beynəlxalq şahmat festivalına start verilib

**Azərbaycan Şahmat Federasiyası, Şirvan Şəhər İcra Hakimiyyəti və Şirvan Olimpiya İdman Kompleksinin birgə təşkilatçılığı "Shirvan Open 2025" beynəlxalq şahmat festivalı keçirilir. Turnirdə 8 ölkədən 240-dan artıq şahmatçı iştirak edir.**

Tədbirdə öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, xatirəsi ehtiramla anılıb. Sonra festivalın açılış mərasimində iştirak edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və Azərbaycan Şahmat Federasiyasının Birinci vitse-prezidenti Faiq Həsənov qonaqları və yarış iştirakçılarını salamlayıb, şahmatçılara uğurlar və nailiyyətlər arzulayıblar.



Yarışlar A və B qrupları üzrə təşkil olunub və hər iki qrupda mübarizə İsveçrə sistemi ilə 9 turdan ibarət formatda keçirilir. Festivalın ümumi mükafat fondu 22 min 650 manatdır. A qrupunun qalibi 5 min 100, B qrupunda isə ilk yeri tutacaq şahmatçı 1000 manat qazanacaq. Festival çərçivəsində həmçinin rapid və blits yarışlarının da təşkili nəzərdə tutulub.

Qeyd edək ki, festival Azərbaycan Şahmat Federasiyasının "Chess Tour Azerbaijan" layihəsi çərçivəsində keçirilir və layihənin sayca 8-ci və bu il üçün sonuncu festivalıdır. Turnirə 26 noyabrda yekun vurulacaq.

***S.CAVADOV,***
***"Azərbaycan"***

## Çıraqqalanın çırağının sönməməsi üçün...

### ABİDƏNİN ƏRAZİSİNDƏ TURİZM İNFRASTRUKTURU YARADILMALIDIR

**Azərbaycanın şimalında - Şabran rayonu ərazisindəki Çıraqqala qədim tariximizin dəyərli yadigarlarından, Orta əsrlərə aid müdafiə memarlığının maraq doğuran nümunələrindəndir. Qalanın strateji baxımdan əlverişli mövqedə yerləşməsi vaxtilə onun bölgədəki hərbi-siyasi hadisələrdə mühüm rol oynamasına şərait yaratmışdır.**

Lakin Çıraqqalanın Azərbaycanın memarlıq tarixindəki yeri yalnız hərbi-strateji deyil, həm də memarlıq irsinin qorunması baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu barədə "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Günel Pirquliyeva danışır: "Qalanın orijinal memarlıq üslubunun saxlanılması, onun müasir dövrdə turizm potensialının artırılması və gələcək nəsillərə ötürülməsi vacibdir. Qala Azərbaycanın Orta əsrlərə aid unikal müdafiə tikililərindən biridir. Ümumiyyətlə, ölkəmizin ərazisindəki Orta əsrlərə aid qalalar həm memarlıq, həm də hərbi strateji baxımdan xüsusi maraq doğurur. Böyük Qafqaz sıra dağlarının cənub ətəyində, dəniz səviyyəsindən 1232 metr yüksəklikdə yerləşən Çıraqqala bu abidələrdən biridir. Qala hər zaman hərbi məqsədlərlə istifadə edilməklə yanaşı, sosial-iqtisadi həyatın da mərkəzində olmuşdur. Onun ətrafında aparılmış tədqiqatlar ərazidə qədim məskunlaşmaların mövcudluğunu, əhalinin müdafiə olunması ilə bərabər, gündəlik fəaliyyətlərini də burada davam etdirdiyini göstərir".

Günel Pirquliyeva həmçinin bildirir ki, Çıraqqalanın inşa tarixi III-IV əsrlərə, bəzi mənbələrdə isə V-VI əsrlərə Sasani dövrünə aid edilir: "Qala, əsasən, Şirvanşahlar dövründə, xüsusilə X-XII əsrlərdə təkmilləşdirilmiş və müdafiə məqsədləri üçün istifadə olunmuşdur. Qala yalnız Sasani dövründə deyil, sonrakı dövrlərdə, o cümlədən Şirvanşahlar, Səfəvilər, xanlıqlar dövründə də sərhəd mühafizəsində istifadə edilmişdir. Çıraqqalada ilk dəfə arxeoloji tədqiqatlara XX əsrin ortalarından başlanılmışdır".



Çıraqqalanın yerləşdiyi mövqe təsadüfi seçilməyib. O, həm Dərbənd keçidinə, həm də qədim "Şimal yolu" ("Kafkas yolu") kimi tanınan strateji ticarət və hərbi yoluna nəzarət üçün inşa edilib. Bu baxımdan, qala yalnız müdafiə deyil, həm də nəzarət və müşahidə məntəqəsi funksiyasını yerinə yetirib. Beləliklə, həm etimoloji baxımdan "Çıraq" adının "işıq, günəş, alov" anlayışları ilə bağlı olması, həm də tarixi baxımdan qalanın "şimal sərhədlərinin işıq saçan gözətçisi" funksiyası bir-birini tamamlayan məna qatları yaradır.

Çıraqqala dağlıq relyefə uyğun şəkildə tikilmiş və yerli daş materialları ilə inşa edilmişdir. Tikinti zamanı həmçinin, əsasən, yerli əhəng məhlulundan istifadə olunmuşdur. Qala divarlarında Sasanilər və sonrakı dövrlərə aid keramika fraqmentləri tapılmışdır.

Maraqlıdır ki, bu yerlərin əhalisi arasında Çıraqqala ilə bağlı bayatılar, nağıllar və dastanlar hələ də yaşamaqdadır. Məsələn, "Çıraq yananda düşmən qaçar" ifadəsi insanların yaddaşında bu qalanın qoruyucu və siqnalverici funksiyasını simvolizə edir. Yaxın vaxtlara qədər bəzi bayram və mərasimlərdə bu qala ilə bağlı xüsusi rituallar, o cümlədən ocaqqalama da icra olunarmış.

Çıraqqalanın ətrafında yaşayan əhali arasında əsrlər boyu qala ilə bağlı müxtəlif əfsanələr və inanclar formalaşmışdır. Bəzi rəvayətlərə görə, qalanın gizli keçidləri var imiş və onlarda xəzinələr saxlanılırmış. Digər versiyalara əsasən, burada qoruyucu ruhların yaşadığına da inanılır.

Konservasiya işləri zamanı qala divarları gücləndirilmiş, təhlükəli ucuq sahələr, müşahidə qülləleri bərpa edilmişdir. İşlər qalanın tarixi quruluşuna və materialına müdaxilə edilmədən görülmüşdür. Turistlər üçün təhlükəsizlik yollarının çəkilməsi də planlaşdırılıb.

Çıraqqala Azərbaycanın memarlıq və hərbi-strateji irsinin nadir nümunəsidir. Onun qorunması yalnız konservasiyadan ibarət olmamalıdır. Bu dəyərli abidə ictimaiyyətə yaxından tanıdılmalı, bunun üçün də dərin elmi araşdırmalar aparılmalıdır.

Hazırda Çıraqqala Mədəniyyət Nazirliyi tərəfindən tarixi abidə kimi qeydiyyata alınıb və mühafizə olunur. Onun turist marşrutlarına daxil edilməsinə baxmayaraq, infrastruktur məhdudluğundan buranı ziyarət etmək imkanları o qədər də geniş deyil. Halbuku Çıraqqala qoruğunun böyük turizm marşrutlarından birinə çevrilmək imkanı böyükdür.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Məktublar: problemlər, rəylər, təkliflər...



● TƏDBİR

## "İgid əsgər, möhkəm dayan"





**Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin, Lerik Rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "N" saylı hərbi hissənin Lerik rayonu ərazisində yerləşən sərhəd zastavalarında "İgid əsgər, möhkəm dayan" adlı görüş və mədəni-kütləvi tədbir keçirilib.**

Çıxışlar zamanı bildirilib ki, Azərbaycan dövlətinin suverenliyinin möhkəmləndirilməsi, ordumuzun gücləndirilməsi və təhlükəsizliyimizin təmin olunması istiqamətində həyata keçirilən islahatlar öz real nəticəsini verir. Ölkə rəhbərliyinin ardıcıl və qətiyyətli siyasəti nəticəsində Azərbaycan Ordusu bu gün bölgənin ən qüdrətli hərbi gücüdür. O da xüsusi vurğulanıb ki, Vətən müharibəsi və sonrakı dövrdə dövlət sərhədlərinin bərpası zamanı ordumuzun zabit və əsgəri yüksək peşəkarlıq, cəsarət və fədakarlıq göstərib.

Əsas məqsədi "Konstitusiya və Suverenlik İli"nin mahiyyətini təbliğ etmək, əsgər və zabitlərin vətənpərvərlik ruhunu artırmaq, onların mənəvi-psixoloji durumunu gücləndirmək olan tədbir sərhəd komendantlığında və zastavalarda Lerik Rayon Mədəniyyət Mərkəzinin musiqi kollektivinin ifasında təqdim edilən konsert proqramı ilə yekunlaşıb.

*Zəfər ORUCOĞLU,*
*Lerik rayon sakini*

● MİNNƏTDARLIQ

## İnsan diqqət və qayğı görəndə...

**Həyat yoldaşım Zakir Sultanov 1994-cü il yanvarın 19-da şəhid oldu. İki uşaqla tək qaldım. Mürəkkəb zaman idi. Ömür-gün yoldaşını itirən insanın çəkdiyi əzabları təsəvvür etmək belə çətindir.**

Amma bizə dövlətimiz kömək oldu. Üstəlik, hamı bizə yardım etmək istəyirdi. Bizə həyan olan, qayğımızı çəkən insanlar dərdimizi unutdurmağa, dəstək olmağa çalışırdı. Deyirlər, dərdi bölüşəndə azalır. Mən bu insani hissləri özüm yaşamışam.





Artıq neçə illərdir ki, təkcə maddi yardımla deyil, həm də qayğı ilə sağlamlığımızın keşiyində dururlar. Rayonda həkimlər şəhid ailəsi olduğumu biləndə əllərindən gələni ikiqat etməyə çalışırlar. Son illər bu diqqət daha da artıb. Hər ay bir dəfə növbəli şəkildə həkim nəzarətindən keçirik. Dərmanlarımızın böyük hissəsi pulsuz verilir. Rayonun rəhbər işçiləri bütün problemlərimizi həll edirlər.

Qayğı və diqqətlə əhatələnəndə insanın yaşamaq həvəsi də artır. Bu gün qusarlı şəhid ailələri onlara olan diqqətə görə dövlət başçısına və əlaqədar təşkilatlara minnətdardırlar.

*Sevda SULTANOVA,*
*şəhid Zakir Sultanovun həyat yoldaşı,*
*Qusar sakini*

AZƏRBAYCAN-a cavab verirlər

## "Aidiyyəti qurumların iştirakı ilə müvafiq tədbirlər görülmüşdür

**Sizin Nizami Rayon İcra Hakimiyyətinə ünvanladığınız 17.10.2025-ci il tarixli məktubunuza tərəfimizdən baxılmışdır.**





Qeyd olunan məsələ ilə əlaqədar bildiririk ki, 2024-cü ilin oktyabr ayında Nizami rayonu, C.Naxçıvanski küçəsi, "8-ci km bazarı" yerləşən ərazidə yaşayan sakinlərin çoxsaylı müraciətlərinə əsasən, uzun illər həmin küçəboyu yolun hər iki tərəfinin nəqliyyat və piyadaların hərəkəti üçün nəzərdə tutulan hissələrində qanunsuz olaraq quraşdırılmış piştaxtalar aidiyyəti qurumların iştirakı ilə götürülmüş və ümumilikdə ərazidə antisanitar vəziyyət aradan qaldırılmışdır.

Bundan başqa, küçə boyunca sakinlərin və nəqliyyat vasitələrinin rahat gediş-gəlişi, həmçinin xüsusi təyinatlı nəqliyyat vasitələrinin də (təcili tibbi yardım, yanğınsöndürən və məişət tullantılarının daşınmasını həyata keçirən nəqliyyat vasitələrinin) maneəsiz hərəkəti təmin edilmiş, səkilərin və yaşıllıqların bərpası istiqamətində əlavə tədbirlər görülmüşdür. Nizami Rayon İcra Hakimiyyətinin müraciətinə əsasən, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən C.Naxçıvanski küçəsi boyunca parklanma zonası təşkil edilmişdir.

Qeyd olunan ərazidə qanunsuz küçə ticarəti ilə məşğul olan şəxslərin fəaliyyətlərinin davam etdirilməsi üçün yaxınlıqda mövcud olan bazarların rəhbərləri ilə görüşlər təşkil edilmiş və həmin bazarlarda onlar üçün müvafiq satış yerləri ayrılmışdır. Bundan başqa, həmin şəxslərin müraciətləri nəzərə alınaraq bazarlarda bir müddət heç bir ödəniş etmədən fəaliyyət göstərmələri üçün şərait yaradılmışdır.

"Azərbaycan" qəzetinin 17.10.2025-ci il tarixli sayında dərc edilmiş "Ticarət fəaliyyəti sanitar mədəniyyəti ilə uzlaşmalıdır" sərlövhəli məqalə ilə əlaqədar əraziyə təkrar baxış keçirilmiş, aidiyyəti qurumların iştirakı ilə müvafiq tədbirlər görülmüşdür.

Həmçinin bildiririk ki, ərazidə yerləşən bazarların 24 saat fəaliyyət göstərməsi və insan axınının intensiv olması, eləcə də ərazidə fəaliyyət göstərən şəxslər tərəfindən sanitar qaydalara riayət edilməməsi məqalədə qeyd olunan halların yaranmasına səbəb olur. Buna baxmayaraq, aidiyyəti qurumlar digər ərazilərlə müqayisədə həmin ünvanda tullantıların toplanması və daşınması prosesini gün ərzində nəzərdə tutulan qrafikdən bir neçə dəfə artıq həyata keçirirlər. Ərazinin sanitar vəziyyətinin yoxlanılması və qanunsuz küçə ticarətinin qarşısının alınması məqsədilə tərəfimizdən müvafiq qurumlarla birgə mütəmadi olaraq monitorinqlər aparılır. Bundan əlavə, ərazi daimi olaraq kommunal xidmətlərin nəzarəti altındadır.

**İldırım MEHDİYEV,**
**rayon icra hakimiyyəti başçısının müavini**

● QAYĞI

## Xahişimiz yerinə yetirildi

**Ölkəmizdə dövlət siyasətinin əsasında vətəndaş məmnunluğu dayanır. Bu baxımdan Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın xalqın, vətəndaşların arasında olmaları, onların müraciətlərini, istəklərini dinləmələri bütün dövlət məmurlarına nümunədir.**



Bizim rayonda da vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılır. Bu yaxınlarda rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov Ağköynək kəndində vətəndaşların müraciətlərini dinlədi. Xahiş etdik ki, kəndin yolunun hamarlanmasına, köhnə transformatorun yenisi ilə əvəz olunmasına kömək edilsin. Sakinləri dinləyən rayon rəhbəri xahişimizə həssaslıqla yanaşılacağına, problemlərin həlli istiqamətində addımlar atılacağına söz verdi.

Məsələlər artıq öz müsbət həllini tapıb. Köhnə transformator yenisi ilə əvəz olunub, yolumuz hamarlanıb. Sakinlər onlara göstərilən bu diqqət və qayğıya görə başda Prezident olmaqla, rayon rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

*İkram İBRAHİMOV,*
*Qazax rayon Ağköynək kəndinin sakini*

● FOTOFAKT

## Keçilməz yeraltı keçidlər











**Yol infrastrukturunun ən çox diqqətdən kənarda qalan hissələrindən biri də yeraltı piyada keçidləridir. Şəhərin müxtəlif ərazilərində, xüsusən sıx nəqliyyat axını olan prospekt və küçələrdə yerləşən keçidlər bir vaxtlar piyadaların təhlükəsizliyini təmin etmək üçün inşa edilsə də, bu gün onların vəziyyəti də dəyişib, "təyinat"ı da. Baxımsızlıq, laqeyd münasibət və uzun illərdir aparılmayan təmir işləri nəticəsində yeraltı keçidlər artıq insanların istifadə etməkdən çəkinəcəyi bir məkana çevrilib.**

Yeraltı keçidlərin bəzilərində quraşdırılmış hansı eskalatora yaxınlaşırsansa ya tamam işləmir, ya da birtərəfli işləyir. Nəticədə insanlar pilləkənlərdən istifadə etməyə məcbur olurlar. Bu isə xüsusilə yaşlılar, xəstələr və uşaqlı valideynlər üçün çətindir. Biz hələ ağır çantalar, alış-veriş səbətləri ilə pilləkənləri düşüb-qalxmağı demirik.

Yağışlı havalarda problem daha da böyüyür. Leysan vaxtı bəzi keçidlərdə kiçik su gölməçələri əmələ gəlir, döşəmə "buz meydançası"na çevrilir. Belə şəraitdə yıxılıb xəsarət almaq isə an məsələsidir. Məsələn, Bakının mərkəzində - "Qış parkı" ərazisindəki keçiddə vəziyyət aşağı-yuxarı belədir. Bəzən keçidlərdə işıqlandırma da normal səviyyədə olmur - bir çox lampa yanmır, bəziləri də zəif işıq verir. Qaranlıq keçidlər isə piyadalar üçün qorxulu filmləri xatırladır.

Bütün bu çatışmazlıqlar nəticəsində insanlar artıq yeraltı keçidlərdən istifadə etməməyə üstünlük verirlər. Onlar hətta bəzən çox sıx hərəkətli yollarda avtomobil axınını gözardı edərək həyatlarını təhlükəyə atırlar. Bu isə o deməkdir ki, bir çox halda faciə ilə nəticələnən yol qəzalarının başvermə səbəblərindən biri də məhz bu baxımsız keçidlərdir.

Əslində, yeraltı keçidlər şəhərin yol infrastrukturunun göstəricisidir. Təmiz, işıqlı, rahat olan keçidlər təkcə piyadalar üçün təhlükəsiz hərəkət etmək imkanı deyil, həm də şəhər mədəniyyətidir. Lakin bəzi keçidlərdəki hazırkı mənzərə bunun əksini göstərir. Çoxsaylı müraciətə, sosial mediada yayılan şikayətlərə baxmayaraq, bir çox halda aidiyyəti qurumlar ya səthi təmir işləri ilə kifayətlənir, ya da, ümumiyyətlə, problemə göz yumurlar. Unudurlar ki, yeraltı keçidlərin səliqə-sahmana salınması, eskalatorların təmiri, işıqlandırmanın normallaşdırılması, həmçinin təmizliyin təmin olunması təkcə infrastruktur yox, həm də ictimai təhlükəsizlik məsələsidir.

*Nərminə ƏSGƏROVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

● ASUDƏ VAXT

## Köhnə parkımız yeni görkəm aldı





**Xaçmaz ölkəmizin abad şəhərlərindən sayılır. Buna baxmayaraq, şəhərdə abadlıq işləri səngimir.**

Götürək mədəniyyət və istirahət parkında aparılan yenidənqurma və təmir işlərini. Yaydan başlayan işlər artıq başa çatıb. Park Zəfər Günü ərəfəsində sakinlərin istifadəsinə verilib.

Bir xaçmazlı kimi bildirim ki, görülən abadlıq işləri şəhərin simasını daha da gözəlləşdirib. Ümumiyyətlə, bizim rayonda görülən hər bir iş mükəmməlliyi ilə seçilir. Bu baxımdan sözügedən park da istisna deyil. Parkda piyada yolları yenidən salınıb, işıqlandırma sistemi tam bərpa olunub, yaşıllıq sahələri abadlaşdırılıb, uşaqlar üçün yeni attraksion quraşdırılıb. Bir sözlə, yeni görkəm alan mədəniyyət və istirahət parkı şəhər sakinlərinin asudə vaxtının səmərəli istirahəti üçün bütün zəruri şəraitlə təmin olunub.

*Elxan QASIMOV,*
*Xaçmaz şəhər sakini*

● SAĞLAMLIQ

## Xəstə üçün həkim diqqəti dərmandan da irəlidir

**Mən Sumqayıtda doğulub böyümüşəm. Bir müddət əvvəl ciddi xəsarət aldım. Dizimdə güclü damar zədələnməsi və laxtalanma nəticəsində yaranan intoksikasiya səbəbindən vəziyyətim kritik həddə çatdı.**



Yaxınlarım müxtəlif klinikaların adlarını çəksələr də, 2 nömrəli xəstəxananın Cərrahiyyə şöbəsinə üstünlük verdim və peşman olmadım. Çünki insan qayğı və diqqətlə üzləşəndə içində inamı artır, etibarı güclənir. Bunu xəstəxanada göstərilən tibbi xidmətdə gördüm. Xəstəxananın yüksəksəviyyəli həkim və peşəkar tibb heyəti mənə qayğı və diqqətlə yanaşdılar.

İki aya yaxın müddətdə xəstəxanada müalicə alandan sonra evə buraxıldım. Hazırda özümü gümrah və sağlam hiss edirəm. İnanın ki, indinin özündə də həkimlər mənimlə əlaqə saxlayırlar. Tibb bacılarının çoxu ilə rəfiqə olmuşuq.

Sən demə, həkim məsuliyyəti, xəstənin inamı və ona sağlam münasibət çox zaman dərmandan da güclü təsir edirmiş.

*Nərminə BAYRAMOVA,*
*Sumqayıt şəhər 3-cü mikrorayon sakini*

● GİLEY

## Evlərimiz niyə qeydiyyata alınmır?

**Yaşadığımız Məhsəti qəsəbəsi 30 ilə yaxındır salınıb. İndi qəsəbədə 5 mindən çox sakin yaşayır. İnfrastruktur tamamilə yenilənib, demək olar ki, elə bir ciddi problemimiz yoxdur. Təkcə yaşadığımız evlərin qeydiyyatından savayı.**



Bu barədə əlaqədar qurumlara dəfələrlə müraciət etmişik. Hər dəfə də deyirlər ki, yaxın vaxtlarda bu iş qaydaya salınacaq. Bildirim ki, qəsəbə sakinləri işığın, qazın və suyun pulunu vaxtlı-vaxtında ödəyirlər. Ancaq bir sənəd lazım olanda bilmirik kimə müraciət edək. Deyirlər ki, qeydiyyatınız yoxdur.

Hörmətli redaksiya! Xahiş edirik bu işdə bizə kömək edəsiniz.

*Rövşən ƏSGƏROV,*
*Gəncə şəhər Məhsəti qəsəbəsinin sakini*




# Zəngilan rayonunun Məmmədbəyli kəndinə köç edən ailələrə evlərin açarları təqdim edilib

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir. AZƏRTAC xəbər verir ki, bu mərhələdə Zəngilan rayonunun Məmmədbəyli kəndinə 30 ailə - 144 nəfər köçürülüb. Dünən növbəti köç karvanı ilə Zəngilanın Məmmədbəyli kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.**



Kəndə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək öz evlərində məskunlaşıblar.

Məmmədbəyli kəndi bu gün 30 ailə olmaqla 144 nəfərə qucaq açıb. Kəndə qədəm qoyan ailələr sevinc göz yaşları ilə öz doğma yurduna qovuşub və yaradılan gözəlliyi seyr ediblər. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.









Qeyd edək ki, kəndin ümumi sahəsi 51,6 hektardır. Kənddə 188 fərdi ev inşa edilib ki, onlardan 39-u iki, 55-i üç, 55-i dörd və 39-u beşotaqlıdır. Hər bir ev üçün həyətyanı ərazi nəzərə alınaraq hasarlanıb. Evlərdə Günəş panelləri quraşdırılıb, onlar su, işıq, qaz, yüksəksürətli internet şəbəkəsi ilə təmin olunub. Kənddaxili yollar asfaltlanıb. Kənddə çoxfunksiyalı 2 qeyri-yaşayış binası da inşa olunub. Köçürülən ailələrin evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

## Keçmiş məcburi köçkün sevinc içərisindədir

**"Oğlumla, gəlinimlə, nəvələrimlə - hamımız birlikdə doğma yurda yola çıxırıq. Arzularımız da, xəyallarımız da çoxdur. İnşallah gedib öz həyatımızı quraraq, sakitlik və rahatlıq taparıq. Hər şey yaxşı olacaq".**




AZƏRTAC xəbər verir ki, bu sözləri Zəngilan rayonunun Məmmədbəyli kəndinə köç edən keçmiş məcburi köçkün Nəcibə Orucova deyib. O bildirib ki, bu illər ərzində yataqxanada məskunlaşıb, çətinliklər çəkib. Ancaq indi daha yaxşı şəraitli mənzillə təmin olunub.

"Bu illər boyu bütün çətinliklərə dözmüşük, amma şükürlər olsun ki, bu gün bizi öz yerimizə qaytarırlar. Bu günü bizə yaşadan şəhidlərimizə Allah rəhmət etsin, qazilərimizə cansağlığı versin. Prezidentimizə də uzun ömür arzu edirəm. Biz bu günü 32 il gözləmişdik. Şükürlər olsun ki, həmin gün gəldi və biz doğma yurdumuza qayıdırıq", - deyə keçmiş məcburi köçkün vurğulayıb.

## Zəngilanın 15 yaşlı sakini bildirir ki, yaşayacağı hissləri təsəvvür etmək çətindir

**"Ailəm - anam, atam, qardaşım və nənəmlə birlikdə Vətənə qayıdıram. Orada hansı hissləri yaşayacağımı təsəvvür etmək çətindir. Çünki heç vaxt o yerlərdə olmamışam, amma həmişə haqqında çox eşitmişəm".**




AZƏRTAC xəbər verir ki, bu sözləri Zəngilan rayonunun Məmmədbəyli kəndinə köç edən Gülnar Süleymanova deyib.

O, həmçinin şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzu edib.

# Hava əsasən yağmursuz keçəcək

**Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 10-13, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85 faiz, gündüz 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10, gündüz 17-21, dağlarda gecə 3-8, gündüz 13-18 dərəcə isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 13-17° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-8° isti, gündüz 15-20° isti təşkil edəcək.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-6° isti, gündüz 14-19° isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9° isti, gündüz 17-21° isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-8° isti, gündüz 17-21° isti, dağlarda gecə 3-8° isti, gündüz 13-18° isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10° isti, gündüz 17-21° isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10° isti, gündüz 15-19° isti, dağlarda gecə 7-9° isti, gündüz 16-19° isti olacaq.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik -156 (yüz əlli altı) manat
6 aylıq - 78 (yetmiş səkkiz) manat
3 aylıq - 39 (otuz doqquz) manat
1 aylıq - 13 (on üç) manat


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan media sahəsində mühüm təşəbbüslərlə çıxış edir
"Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumunun iştirakçılarına
VAHİD GEOSİYASİ İQTİSADİ REGİON
Belem Bakı standartına çata bilmədi
COP-un mesajı isə dəyişməz qalır: zaman daralır, hər addım vacibdir
Bakının sülh səyləri praktik müstəvidə də öz təsdiqini tapır
Qlobal media mühiti sürətli transformasiya dövrü yaşayır
D-8 Media Forumunun ölkəmizdə keçirilməsi Azərbaycanın bu sahəyə yüksək diqqət və qayğı göstərdiyinin bariz nümunəsidir
azerbaijan-news.az

### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


BEYNƏLXALQ HƏYAT

# ABŞ və Ukrayna yenilənmiş "sülh planı" hazırlayıblar

## Marko RUBİO: "Cenevrə danışıqlarında əhəmiyyətli irəliləyiş əldə edilib"

**Ukrayna və ABŞ rəsmiləri eyni vaxtda - 24 noyabr bazar ertəsi gecəsi iki ölkənin nümayəndə heyətlərinin Cenevrədə "məhsuldar danışıqlar" zamanı Ukraynada sülhə nail olmaq üçün birgə yenilənmiş "çərçivə sənədi" hazırladıqlarını açıqlayıblar.**

Ağ Evin və Ukrayna Prezidentinin veb saytlarında müvafiq birgə bəyanat açıqlanıb. Qeyd olunub ki, hər iki tərəf məsləhətləşmələrin məhsuldar olduğunu qəbul edib. Bəyanatda deyilir: "Tərəflər gələcək hər hansı bir razılaşmanın Ukraynanın suverenliyinə tam hörmət etməli, habelə davamlı və ədalətli sülhü təmin etməli olduğunu bir daha təsdiqləyiblər". Birgə bəyanata görə, hər iki tərəf sənəd üzərində "yaxın günlərdə" intensiv işi davam etdirmək və Avropa tərəfdaşları ilə sıx əməkdaşlıq etmək barədə razılığa gəliblər.

Görüşdən bir neçə saat sonra ABŞ Dövlət katibi Marko Rubio Donald Tramp administrasiyasının "sülh planı"nın yenidən işlənmiş versiyasının həyata keçirilməsi üçün yüksək potensiala malik olduğuna əminliyini bildirib. Noyabrın 23-də Cenevrədə Ukrayna nümayəndə heyətinin üzvləri və onun Avropa müttəfiqləri ilə məsləhətləşmələrdən sonra M.Rubio jurnalistlərə deyib ki, danışıqlar nəticəsində indi gələcək iş üçün əsas olacaq "təməl sənəd" hazırlanıb.



Ukrayna nümayəndə heyətinin rəhbəri Andriy Yermak da İsveçrədəki Amerika nümayəndələri ilə danışıqların məhsuldar xarakter daşıdığını qeyd edib. "Danışıqlarda əhəmiyyətli irəliləyiş əldə edilib və biz çox nikbinik ki, məqsədimizə qısa zamanda, çox ağlabatan bir müddətdə çatacağıq. Sadəcə, bugünkündən daha çox vaxta ehtiyacımız var. Mən buna nail ola biləcəyimizə qəti əminəm. Cenevrə danışıqlarında hələ də həll edilməli bir neçə məsələ var və bundan sonra ABŞ-nin "sülh planında" əlavə dəyişikliklər edilə bilər, - deyə Rubio bildirib. Amerikalı siyasətçinin dediyinə görə, xüsusilə Avropa İttifaqı və NATO-nun münaqişənin həllində rolu müzakirə olunmalıdır.

Sənəd daha sonra ABŞ və Ukrayna arasında prezidentlər səviyyəsində razılaşdırılmalıdır ki, bu da M.Rubionun Donald Tramp və Volodimir Zelenski arasında yeni təmaslara imkan yaratmasına səbəb olacaq. Bundan əlavə, Marko Rubio qeyd edib ki, Rusiya tərəfi də qarşıdan gələn razılaşmalarla bağlı mövqeyini bildirəcək. "Aydındır ki, rusların burada söz hüququ var", - deyə o əlavə edib.

Məlumata görə, Cenevrə danışıqlarında irəliləyiş əldə olunarsa, Ukrayna Prezidenti Volodimir Zelenskinin Ağ Evə səfəri gələn həftə baş tuta bilər.

DPA agentliyinin xəbərinə əsasən, Rusiyanın Ukraynaya qarşı müharibəsinə son qoymaq məqsədiylə ABŞ planına düzəliş etmək üçün Avropa təklifləri arasında Kiyevin xeyrinə bir neçə əsas müddəa var. "Reuters"in öz mənbələrinə istinadən dərc etdiyi Avropa "sülh planı" təklifinə görə, Ukrayna hökumətindən hazırda nəzarətində olan əraziləri Rusiyaya güzəştə getmək tələb olunmayacaq. Bundan əlavə, plan müharibə zamanı Rusiya tərəfindən ələ keçirilən ərazilərin faktiki olaraq tanınmasını nəzərdə tutmur.

Məlum olduğu kimi, noyabrın 20-də ABŞ Ukrayna üçün 28 bəndlik sülh planı təqdim edib. Sənədə əsasən, rəsmi Kiyev digər məsələlərlə yanaşı, qoşunlarını Donbasdan tamamilə çıxarmalı, ordusunu əhəmiyyətli dərəcədə azaltmalı, uzaqmənzilli silahlardan imtina etməli və NATO-ya qoşulmamalıdır.

Cenevrə görüşündən əvvəl Donald Tramp sosial media platforması "Truth Social"dakı çoxsaylı paylaşımlarından birində Kiyevin "sülh planı"nın ilk versiyası üzərindəki səylərinə kifayət qədər minnətdar olmadığını yazıb. V.Zelenskinin veb saytında dərc olunan açıqlamada isə deyilir: "Ukrayna nümayəndə heyəti bir daha ABŞ-yə və xüsusən şəxsən Prezident Donald Trampa minnətdarlığını bildirir".

## Sinişa Karan prezident seçkilərində qələbə qazanıb



**Keçmiş prezident Milorad Dodikin impiçmentindən sonra Serb Respublikasında (Bosniya və Herseqovinanın iki inzibati-ərazi qurumundan biri) keçirilən növbədənkənar prezident seçkilərində Sinişa Karan qalib gəlib.**

Serb Respublikasında və xaricdə 2211 seçki məntəqəsində səsvermə noyabrın 23-də yerli vaxtla səhər saat 7:00-da başlayıb axşam saat 19:00-da başa çatıb. Bosniya və Herseqovina Mərkəzi Seçki Komissiyası (MSK) 1,2 milyondan çox seçicidən 443472-nin səs verdiyini bildirib.

MSK sədri Yovan Kalaba ilkin nəticələrə görə, Serb Respublikasının elm, texnologiya və ali təhsil naziri və keçmiş daxili işlər naziri Sinişa Karanın liderlik etdiyi barədə məlumat verib. O, Dodikin rəhbərlik etdiyi Müstəqil Sosial Demokratlar Alyansının dəstəyini qazanıb. Rəsmi ilkin nəticələrə görə, Karan səslərin 50,89, əsas rəqibi - Serbiya Demokrat Partiyasından Branko Blanuşa isə 47,81 faizini toplayıb. Milorad Dodik Karanı qələbəsi münasibətilə təbrik edib və seçici fəallığının aşağı olduğunu qeyd edib.

"Serb Respublikası heç kim üçün təhlükə deyil. Biz dayandığımız yerdən daha böyük güclə davam edəcəyik", - deyə Sinişa Karan qələbəsini elan edərək bildirib. Amma müxalifət bir neçə şəhərdəki bəzi seçki məntəqələrində pozuntular olduğunu iddia edib və səsvermənin təkrar keçirilməsini tələb etmək niyyətindədir.

Xatırladaq ki, separatçı açıqlamaları ilə dəfələrlə diqqət çəkən Milorad Dodik Bosniya və Herseqovinada 1992-1995-ci illər müharibəsinə son qoyan Deyton Sülh Sazişi çərçivəsində yaradılmış Ali Nümayəndələr Ofisini (OHR) və Ali Nümayəndə Kristian Şmidti tanımaqdan imtina edib. Dodikin rəhbərliyi altında Serb Respublikası Xalq Məclisi 2023-cü ilin iyun ayında Ali Nümayəndə K.Şmidtin qərarlarını qurumun rəsmi qəzetində dərc etməmək qərarına gəlib. Qanunvericilik prosesinə müdaxilə etmək hüququna malik K. Şmidt dərhal bu qərarı ləğv edib.

"Serb Respublikası Bosniya və Herseqovinadan ayrılacaq" deyə açıq şəkildə bəyan edən M. Dodik, OHR qərarlarını yerinə yetirməmək ittihamı ilə cinayət işinin fiqurantına çevrilib. Prokurorluq onun üçün həbs cəzası istəyib.

Məhkəmə prosesi 2023-cü ilin dekabrında başlayıb. M. Dodik sonda 1 il həbs cəzası alıb və siyasi vəzifə tutmaqdan 6 il müddətinə məhrum edilib. Bosniya və Herseqovina məhkəməsi daha sonra həbs cəzasını cərimə ilə əvəz edib, lakin siyasi fəaliyyətə qoyulan qadağa qüvvədə qalıb. Bu qərara əsasən, Bosniya və Herseqovinanın Mərkəzi Seçki Komissiyası Milorad Dodiki yekdilliklə Serb Respublikasının Prezidenti vəzifəsindən uzaqlaşdırıb.

*Hazırladı: Rizvan CƏFƏROV, "Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


### ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanova atası

**FAMIL DÖVLƏTXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4071
Sifariş 2386

Qiyməti 60 qəpik